№1 (34) 2014 ISSN: 2079-4150

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

LIBRARIANSHIP AND BIBLIOGRAPHY

БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

ISSN 2079-4150

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik
və təcrübi jurnal

№ 1 (34) * 2014

20633

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuşdur.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

1997-ci ilin oktyabrından çıxır

BAKI - 2014

KBT – 78
K 73

Təsisçi və baş redaktor: *professor* ***Xəlil İSMAYILOV***
Məsul katib: ***Rəşad QARDAŞOV***

REDAKSİYA HEYƏTİ:

Professor ***Abuzər XƏLƏFOV***
Professor ***Zöhrab ƏLİYEV***
Professor ***Bayram ALLAHVERDİYEV***
Dosent ***Nadir İSMAYILOV***
F.e.d. ***Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ***
Dosent ***Knyaz ASLAN***
T.f.d. ***Kərim TAHİROV***
Tamella İSMİXANOVA
Mələk HACIYEVA

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. –B.: 2014. - №1, 134 s.*

Redaksiyanın ünvanı:

AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,
2 №-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi, "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası
Telefon: 510-17-60

© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2014

ISSN 2079-4150

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ
ФАКУЛЬТЕТ

БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

Научно-теоретический,
Методический и практический журнал

№ 1 (34) * 2014

Утвержден решением Президиума Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики от 30 апреля 2010 года (протокол №10-R).

Выпускается с октября 1997 года

БАКУ – 2014

ББК – 78
К 73

Учредитель и
главный редактор: профессор ***Халил ИСМАИЛОВ***
Ответственный секретарь: ***Рашад ГАРДАШОВ***

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:
Профессор ***Абузар ХАЛАФОВ***
Профессор ***Зохраб АЛИЕВ***
Профессор ***Байрам АЛЛАХВЕРДИЕВ***
Доцент ***Надир ИСМАИЛОВ***
Д.ф.н. ***Айбениз АЛИЕВА-КЕНГЕРЛИ***
Доцент ***Князь АСЛАН***
К.н.д. ***Керим ТАХИРОВ***
Тамелла ИСМИХАНОВА
Мелек ГАДЖИЕВА

К 73 *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал. –Б., 2014. - № 1, 134 с.*

Адрес редакции:

AZ-1073/1 г.Баку, ул. Захида Халилова 23,
учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала «Библиотековедение и библиография»
Тел.: 510-17-60

© «Библиотековедение и библиография», 2014

ISSN 2079-4150

MINISTRY OF EDUCATION
OF AZERBAIJAN REPUBLIC

BAKU STATE UNIVERSITY
LIBRARIANSHIP AND INFORMATION
DEPARTMENT

LIBRARIANSHIP AND BIBLIOGRAPHY

Scientific and theoretical, methodical
and practical journal

№ 1 (34) * 2014

Approved by the decision of the Presidium of the Supreme Attestation Commission Under the President of the Republic of Azerbaijan from 30 April 2010 (protocol №10-R).

Published since October, 1997

BAKU – 2014

LBC – 78
K 73

Founder and editor-in-chief: professor ***Khalil ISMAILOV***
Executive secretary: ***Rashad GARDASHOV***

EDITORIAL BOARD:
Professor ***Abuzar KHALAFOV***
Professor ***Zohrab ALIYEV***
Professor ***Bayram ALLAHVERDIYEV***
Docent ***Nadir ISMAILOV***
Ph.D. ***Aybaniz ALIYEVA-KANGARLI***
Docent ***Knyaz ASLAN***
Ph.D. ***Kerim TAHIROV***
Tamella ISMIHANOVA
Melek HAJIYEVA

K 73 Librarianship and bibliography: The scientific-theoretical, methodical and practical journal, –B., 2014. - №1, 134 p.

Editorial address:

AZ-1073/1, Baku, st. Zahid Khalilov, 23, an educational building №2,
Floor IV, Librarianship and information depertment?
Edition of "Librarianship and bibliography" journal;
Tel.: 510-17-60

© "Librarianship and bibliography", 2014

MÜNDƏRİCAT

Xəlil İsmayilov — "Kitabxana informasiya resursları" fənninin tədrisi yeni aspektdə....10

Sevda Xələfova, **Ulduz Manafova** — Müstəqillik illərində respublika kitabxanalarında elektron kataloqların yaradılması....17

Sənubər Mustafayeva, **Səfurə Hacıyeva** — Kitabxana təsnifatı nəzəriyyəsinin inkişafı....28

Nadir İsmayilov, **Tünzalə Nəsibova** — Kitabxanada oxuculara soraq-biblioqrafiya xidmətinin təşkilində İKT-nin yeri....47

Yusif Qaziyev — Şəhər məktəblərinin kitabxanaları (Azərbaycanda məktəb kitabxanalarının inkişafi tarixindən)....53

Nigar Babaxanova — Müstəqillik dövrünün informasiya mühiti və Azərbaycan kitabxanalarının beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri (1991-1995-ci illər)....59

ƏfsunəAğaverdiyeva — Azərbaycan kitabxanaları beynəlxalq biblioqrafik əməkdaşlıq kontekstində....72

Tahirə Bağirova — Klassik Azərbaycan şairi Hüseyn Cavidin ədəbi irsinin nəşr tipləri....80

Aygün Haciyeva — Bibliometrik tədqiqat istiqamətləri, bibliometrik üsullar....85

İradə Bayramova — Aran iqtisadi regionunda oxuculara biblioqrafik-informasiya xidmətinin təşkili....95

Sima İsmayilova — Azərbaycan "Xalça sənəti" biblioqrafik mənbələrdə....113

Orxan Ağamirzəyev — Kitabxana menecmentində əməyin normalaşdırılması....119

Nadir İsmayılov, **Xəyalə Xəlilova** — Azərbaycanda kitabxana işinin inkisafinda yeni mərhələ (ADA univesitetinin kitabxanasının keçirdiyi beynəlxalq konfransın icmalı)....127

СОДЕРЖАНИЕ

Х.Исмаилов Преподавание предмета «Информационные ресурсы библиотек» в новом аспекте.....10

С.А. Халафова
У.И.Манафова Создание электронных каталогов в библиотеках республики в годы независимости.....17

С.М.Мустафаева
С.Гаджиева Развитие теории библиотечной классификации.....28

Н.Исмаилов
Т.Насибова Место ИКТ в организация справочно-библиографического обслуживания в библиотеке..... 47

Ю.Газиев "Городские школьные библиотеки" в Азербайджане..... 53

Н.Бабаханова Информационная среда в годы независимости и сотрудничество Азербайджанских библиотек с международными организациями (1991-1995 годы).....59

А.Агавердиева Азербайджанские библиотеки в контексте международным библиографическим сотрудничестве 72

Т.Багирова История изданий произведение Гусейна Джавида (1904 - 1958).....80

А.Гаджиева Направления библиометрической исследовании, библиометрические методы 85

И.Байрамова Организация библиографического-информационного обслуживания читателей в Аранского економического района.....95

С.Исмайлова "Искусство ковроткачества" Азербайджана в библиографических источниках.....113

О.Агамирзоев Нормирование труда в библиотечном менеджменте..... 119

Н. Исмайлов
Х. Халилова Новый этап в развитии библиотечного дела в Азербайджане (итоги международной конференции, проводимой библиотекой университета АДА).....127

CONTENTS

K.Ismayilov Teaching of "Library information resources" subject in a new aspect.....10

S.A. Xalafova
U.İ.Manafova Creation of e-catalogs in libraries of republic within years of independence.....17

S.M.Mustafayeva
S.Hajiyeva Development of the theory of library classification.....28

N.Ismailov
T.Nasibova Position of ict in the organization of bibliographic services in the library.....47

Y.Qaziyev "The city school libraries" in Azerbaijan.....53

N.Babakhanova Information society in the years of independence and cooperation of Azerbaijani libraries with international organizations (1991-1995 years).....59

A.Agaverdieva Azerbaijan libraries in the context of international bibliographic cooperation.....72

T.A.Baghirova History of work publications of Huseyn Javid (1904 - 1958).....80

A.Hajiyeva Bibliometric investigation directions, bibliometric methods.....85

I.Bayramova Organization of bibliocraphical-information service of readers in the Aran economical region.....95

S.Ismayilova Azerbaijan – "Art of carpet" in bibliographical sources.....113

O.Agamirzoyev Work rationing in library management.....119

N.Ismayilov
Kh.Khalilova A new phase in library work development in Azerbaijan (review of international conference held by the library of ADA university).....127

Xəlil İSMAYILOV
Əməkdar mədəniyyət işçisi
tarix elmləri doktoru, professor

"KİTABXANA İNFORMASİYA RESURSLARI" FƏNNİNİN TƏDRİSİ YENİ ASPEKTDƏ

Açar sözlər: *Kitabxana, informasiya, komplektləşdirmə, texnologiya, ədəbiyyat, proses*

Ключевые слова: *Библиотека, информация, приобретение, технологии, литературы, процесс*

Keywords : *Library, information, acquisition, technology, literature, the process*

Kitabxana fondu müasir cəmiyyətdə informasiya resurslarının tərkib hissələrindən hesab olunur. İnformasiya resurslarının digər növlərindən fərqli olaraq kitabxana fondlarının fərqli cəhətləri ondan ibarətdir ki, komplektləşmə zamanı fondun tərkibi məqsədyönlü şəkildə nəşrin növünə və komplektləşmənin profilinə uyğun aparılır.

Vahid kitabxana fondlarının ümumi modelinin yaradılması üçün, fəaliyyətdə olan fondun bütün yarımsistemlərinin tədqiq olunub öyrənilməsi ilə onun bütün parametrlərə və normalara, həmçinin oxucu maraqlarına uyğun gəlməsini ciddi şəkildə öyrənmək olduqca vacibdir. Bu deyilənləri müəyyənləşdirdikdən sonra fondun tərkibi ilə bağlı optimal qərar qəbul etmək olar və optimal idarəetmə qərarları və fondun formalaşması sahəsində yəni komplektləşmə, fondun yerləşdirilməsi və qorunması haqında düzgün fikir söylənilə bilər.

Kitabxana fondlarının komplektləşdirilməsi, idarə edilməsi və qorunması son illərdə müxtəlif yanaşmalar və xüsusiyyətlər kəsb etməkdədir. Xüsusilə, sənəd resurslarının tərkibi, məzmunu və formalarında nəzərə çarpan bir sıra yenliklər vardır. Bu yenliklər fondun tərkibinin açılmasında, onun qorunub saxlanılmasında bir sıra vacib məsələlərin həllini tələb edir. Son illərdə kitabxana işinin inkişadfında çox mütərəqqi yenliklər baş vermiş və əsasən iki istiqamətdə bu yeniliklər həyata keçirilir. Əsasən bu yenliklər ənənəvi avtomatlaşdırma proseslərinin həyata keçirilməsinə və yeni informasiya texnologiyalarının tətbiqinə yönəldilmiş, əsasən intensiv olaraq texniki avadanlıqların əldə edilməsinə yönəldilmişdir. Əlbəttə, həm dünyada gedən proseslər, həm də respublikamızda bu istiqamətdə müəyyən problemlər öz həllini tapmaq üzrədir.

Lakin hazırda kitabxanaların qarşısında ancaq ənənəvi texnoloji proseslərin həyata keçirilməsi və onların texniki təminatı yox, ilk növbədə idarəetmə vəzifələrinin həyata keçirilməsi, kitabxana xidmətinin və onun keyfiyyətinin yaxşılaşdırılması müasir tələblər səviyyəsinə qaldırılmalıdır.

Kitabxana işində sözsüz ki, bu vəzifələrin həlli yerinə yetirilməklə yanaşı, kitabxanaşünaslıq tədqiqatlarında, kitabxana fondlarının idarə edilməsi, onların formalaşması mühüm əhəmiyyət kəsb edir. Bu haqda görkəmli kitabxanaşünas alimlərin əsərlərində çox dəyərli fikirlər vardır. Fondun formalaşması və idarə olunması sahənin tarixi, ayrı-ayrı terminlər, idarəetmənin strukturu, komplektləşmənin növləri, mənbələri və s. nəzəri ədəbiyyatlarda olduğu kimi mühazirələr deyilərkən tələbələrə çatdırılmalıdır. Əlbəttə, bu fikirlər bir tarix olaraq və ya ənənəvi formalardan biri kimi yox yeni aspektdə, yeni standartlara uyğun olaraq çatdırılması vacibdir.

Kitabxana informasiya resursları haqqında danışarkən ictimai istifadə məqsədilə bütün informasiya resursları haqqında geniş təsəvvür yaratmaq lazımdır. Nəzərə almaq lazımdır ki, şəxsi kitabxanalarla yanaşı dövlət kitabxanalarından bütün ərazidə yaşayan oxucular istifadə edir. Kitabxana fondu özlüyündə çox mürəkkəb bir anlayışdır və mürəkkəblik indiki zamanda xüsusilə informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə, kitabxana sferasında baş verən yenliklərdən sonra daha mürəkkəb proseslər meydana çıxmış, mürəkkəbliklər daha da artmışdır. Ona görə də kitabxana informasiya resurslarında yaranmış mürəkkəb proseslər təhlil edilərkən, ən çətin anları çox xırda elementləri diqqətlə təhlil etmək və öyrənmək vacibdir. Xüsusilə yeni informasiya resurslarının kitabxana fondlarında geniş şəkildə komplektləşdirilməsi yeni problem kimi tədrisdə əhatəli şəkildə açıqlanmalıdır. Kitabxana-informasiya resurslarının tədrisi prosaesində görkəmli kitabxanaşünas alimlərin fond haqqında fikirləri, elmi nəzəri konsepsiyaları mühazirələrdə geniş şərh olunmuşdur. Bu sahədə görkəmli kitabxanaşünas alimlərin, xüsusilə rus kitabxanaşünaslarının fikirləri həm müqayisəli olaraq, həm də yaradıcı və bəzən də tənqidi yanaşılmaqla təmin edilməlidir.

Bir məsələni qeyd etmək lazımdır ki, kitabxanaşünaslıqda uzun illərdir ki, kitabxana fondlarının inkişafı və onun idarə olunması və formalaşması, görkəmli alimlərin tədqiqatlarında öz tarixini yaratmış və elmi yeniliklərlə zənginləşmişdir. Bu sahədə kitabxana fondunun bir proses kimi formalaş-

ması kitabxanaşünas alim Yuri Vladimiroviç Qriqorev tərəfindən əsaslı şəkildə işlənilmiş və təhlil edilmişdir. Y.V.Qriqorev tərəfindən işlənmiş konsepsiya ondan ibarətdir ki, fondun idarə olunması, fondun formalaşması, komplektləşmə, təşkil və idarə etmə prosesləri eyni səviyyədə əsas tərkib hissələrdən biri kimi meydana çıxır. Kitabxana resurslarının komplektləşdirilməsi, formalaşdırılması və idarə edilməsindən danışarkən Qriqorevin fikirlərinə görə komplektləşmənivə hər bir prosesi ayrılıqda nəzəri və təcrübi cəhətdən əsaslandırmaqla izah etmək lazımdır. Kitabxana fondunun idarə olunmasından danışarkən digər kitabxanaşünas alimlərin fikirlərini də izah etmək yerinə düşər ki, tədris prosesində onların fondun idarə edilməsi ilə bağlı fakir və mülahizələrinin açıqlaması olduqca vacibdir.

Görkəmli kitabxanaşünas alim Y.M.Stolyarov kitabxana fondunun idarə olunmasını iki yarım sistemə bölmüş və göstərmişdir ki, bu bölgü ilk növbədə sosial idarəetmə ilə bağlıdır, yəni işçilərin idarə edilməsilə, fondla onun formalaşması ilə məşğul olan işçilər; ikinci texnoloji iadrəetmə, yəni kitabxana fondunun formalaşması və idarə olunması nəzərdə tutulur. Kitabxana fondunun obyektinin idarə olunması ilk növbədə sənəd axınında onun hərəkətini qəbulu, yerləşdirilməsi və verilişi nəzərdə tutur, bir sözlə fondun yaranmasını, inkişafını və formalaşmasını özündə əks etdirir, idarəetmənin subyekti isə fondla məşğul olan işçilərdir hansı ki, bu proseslər onlara həvalə edilmişdir.

Fondun idarə olunması onların nəzəri, təcrübi əsasları rus alimləri tərəfindən olduqca dolğun şəkildə təhlil edilmiş, nəzəri və təcrübi cəhətdən qiymətləndirilmişdir.

Bu məsələ ilə bağlı V.İ.Teryoşin Y.M.Stolyarovdan fəqli olaraq fondun idarə olunmasına "Sənəd fondunun idarə olunması kimi baxır və qiymətləndirir". Eyni zamanda fondun idarə edilməsi və proseslərin idarə olunmasını bir-birindən ayırır. Fondun,yəni istehsal prosesini və istifadəsini ayırır və belə izah edir ki, əslində sənəd fondunun idarə olunması informasiya xidmətinə rəhbərlik edən işçilərin hamısına aiddir və onun formalaşması istifadə edilməsini əhatə edir.

Həmçinin kitabxana standartlarına müraciət etsək görərik ki, "fondun idarə edilməsi termini bölməsində də bu problemin texnoloji proses kimi fondun formalaşması, fondun təşkili, fondun komplektləşdirilməsi və tamlığının təmin edilməsi kimi əks olunur.

Fondun idarə edilməsi konsepsiyasını müxtəlif mütəxəssislərin fikirləri əsasında davam etdirmək olar. Lakin belə bir qənaətə gəlmək olar ki,

bütün bu fikir və ayrı-ayrı konsepsiyaların hər biri fondun idarə edilməsini müəyyənləşdirir onun ayrı-ayrı parametrlərini özündə əks etdirir, kitabxanaların vəzifəsinə uyğundur oxucu sorğularının ödənilməsinə xidmət edir. Hətta bir sıra dünya alimlərinin də kitabxana fondunun idarə olunması haqqında fikir və konsepsiyalarını bura əlavə etsək məsələnin mahiyyəti tam açıqlanmır ki, hər halda fondun tərkibi, mahiyyəti, fondun struktur quruluşu, kitabxanadaxili sənəd axını fondun formalaşması texnologiyası və kitabxana kadrlarının idarəetmə strategiyası hansı funksiyaları təmin edir.

Bütün bu məsələlərin elmi əsaslarla araşdırılması, təhlil edilməsi, fondun idarə edilməsi haqqında müəyyən konsepsiyaların işlənilməsi konkret elmi fakir və düşüncələrin ortaya qoyulması kitabxana resursları fənninin yeni aspektdə tədris olunmasına şərait yaradardı.

Kitabxana sistemi olduqca mürəkkəb proses və sistemləri özündə birləşdirir. Kitabxana fondlarının tərkibi ilə yanaşı, onun strukturu elmi və dil üzrə quruluşu bütün cəhətləri xırdalığına qədər açıqlanmalı və tədris prosesində izah olunmalıdır. Xüsusilə, fondun kitabxana sistemindəki yeri əhatə olunmalıdır.

Kitabxana informasiya resursları fənninin tədrisi zamanı kitabxana fondunun bütün mahiyyəti geniş şəkildə açıqlanmalı, kitabxana sistemində göstərilməlidir. İlk növbədə göstərmək lazımdır ki, fond mövcud olmadan heç bir kitabxana, stosianar bir müəssisə kimi fəaliyyət göstərə bilməz, fondun mövcudluğuna görə kitabxanalar özlərinin sosial vəzifələrini yerinə yetirmək imkanı əldə edirlər. Nəhayyət kitabxana fondunun mövcudluğu imkan yaradır ki, onlar öz ictimai funksiyalarını yerinə yetirsinlər. Baxmayaraq ki, son illərdə istər fondun komplektləşdirilməsi, istərsədə oxucu sorğularının ödənilməsində bir sıra spesifik dəyişikliklər baş vermiş, yeni elektron sənəd növləri meydana gəlmiş və onların məzmununda, komplektləşdirilməsində, istifadə olunmasında çox yenliklər olması tədris prosesində izah olunmalıdır.Həmçinin bu məsələlər audiotoriyada geniş təhlil olunmaqla istər seminar, istərsədə məşğələ və laboratoriya dərslərində, xüsusilə fərdi tədris prosesində, frontal suallar əsasında öyrədilməlidir.

Kitabxana fondlarının yaradılması olduqca vacib məsələlərdən biridir. Lakin onun struktur quruluşunun formalaşması, xüsusilə idarə olunması çox vacib məsələlərdən biridir. Fondun idarə olunması ilə bağlı bir çox kitabxanaşünas alimlərin fərqli fikirləri mövcuddur. Belə olan halda ortaya sual çıxır ki, "kitabxana fondunun idarə olunması nədən ibarətdir"?

Bu suala bir sıra alimlər müxtəlif aspektlərdə cavab vermişlər. Ümumi fikir ondan ibarət olmuşdur ki, fondun idarə olunması – məqsədyönlü fəaliyyət növü, zəruri və bitgin formalaşma, kitabxana fondunun qorunması və səmərəli istifadəsidir. Bu deyilən nəzəri, təcrübi və elmi fikirlər,onun mahiyyəti, elmi ədəbiyyatlarda göstərildiyi kimi, üç kompleks prosesdən ibarət olmaqla tələbələrlə diskusiya şəklində öyrənilməsi, hətta bəzən elmi-təcrübi fikirlərə söykənməklə tənqidi fikirlər səslənməlidir.

Bu məqalənin "Kitabxana informasiya resursları fənninin tədrisi yeni aspektdə" olduğuna görə fond haqqında çox cüzi fikir və materialllar oxucuların nəzərinə çatdırmaq məqsədi ilə qələmə alınmışdır. Odur ki, kitabxana fondlarının idarə edilməsində formalaşmış proseslər 1. Fondun idarə edilməsi; 2. Fondun qorunmasının idarə edilməsi; 3. Nəhayət, fonddan istifadənin idarə edilməsi hər biri əsas mövzulardan biri kimi geniş öyrənilməli, idarəetmə prosesində, modelləşmə, komplektləşmə, fondun uçotu, kitabişləmə və fonddan çıxarılma prosesləri əhatəli olaraq təhlil edilməli və öyrədilməlidir.

Əlbəttə, kitabxana fondu yeni aspektdə, yeni strukturda müasir tələblərə uyğun, kitabxana informasiya resursları fənninin proqramından irəli gələn tələblər səviyyəsində tədris olunmalıdır.

Kursun yenidən formalaşması, yeni mövzu və bölmələrin daxil edilməsi, xüsusilə kitabxana informasiya resurslarının yeni kitabxana resursları və texnologiyaları ilə zənginləşməsi fənnin tədrisinin yeni aspektdə tədrisini zəruri edir. Odur ki, gələcək yazılarımızda tədris olunan fənnin digər aspektləri də qələmə alınacaq.

ƏDƏBİYYAT:

1. Əliyev A.M., Həsənov M.M. Kitabxana fondu: proqram. - B.: BDU, 2001.- 25 s.
2. Həsənov M.M. Kitabxana fondunun öyrənilməsi sistemi// Kitabxanaşünaslıq və biblioqrafiya.-B.:BDU,2002.-№1.-s.31-37.
3. Васильченко Н.П.Методы управления библиотечным фондом /Н.П Васильченко//Научно-технические библиотеки.-1988.- №9.-с.17-19.
4. Григорьев Ю.В. Теоретические основы формирования библиотечных фондов: учеб.пособие/ Ю.В Григорьев.-М.,1973.-88 с.
5. Деева А.С. Хранение и исползование фондов ГПНТБ России /

А.С. Деева.,И.А.Скорикова//Научно-технические библиотеки.-1995.- №12. - с.24-30
6. Коваленко Н.И.Обновление фонда. Методы оценки и расчета /Н.И Коваленко //Научно-технические библиотеки.-2002.- №5.-с.17-25
7. Павлова Л.П.Библиотека и новые информационные технологии /Л.П Павлова, //Научно-технические библиотеки.-1999.- №6.-с.15-21.
8. Терешин В.И. Библиотечный фонд: учеб.пособие /В.И.Терешин.-М.,1994. -174 с.
9. Шилов В.В.Методологический и математический аспекты в измерений полноты библиотечного фонда //В.В Шилов // Научно-технические библиотеки.-2001. -№8. -с.17-27.

Х.Исмаилов

ПРЕПОДАВАНИЕ ПРЕДМЕТА ИНФОРМАЦИОННЫЕ РЕСУРСЫ БИБЛИОТЕК В НОВОМ АСПЕКТЕ

Р Е З Ю М Е

В статье фонд библиотеки в современном обществе является частью информационных ресурсов. В отличие от других информационных ресурсов различными аспектами библиотечных фондов является то, что во время комплектации состав фонда целенаправленно предоставляет вид издания и дает информацию в соответствии с типом профиля комплектации. Так же в статье, чтобы создать единую модель библиотечных фондов в действующих фондах применение и иследование всех полусистем, его соответствие вмем параметрам и нормам, а так же интересам читателя тоже отмечается очень серьезно важным. После определения всего сказанного можно применять оптимальные решения о составе фонда и оптимальные ведущие решения, за счет формирования фонда новой комплектации может высказаться правильное мнение о размещении и защите фонда.

Kh. Ismayilov

TEACHING OF LIBRARY INFORMATION RESOURCES SUBJECT IN A NEW ASPECT

SUMMARY

The library fund in the article is part of the contemporary information resources. Unlike the other types of information resources the specific features of library funds present information about the compliance of the fund's content with the type of publication and the profile of staffing.

The importance of its study on compliance with all the parameters, norms and readers' interests by studying all the acting subsystems in order to establish a general model of single library funds is particularly mentioned in the article. An accurate opinion can be made about optimal administrative decisions, staffing of the fund, its placement and protection and an optimal decision can be taken on the content of the fund after identification of the above-mentioned issues

Sevda XƏLƏFOVA
tarix üzrə fəlsəfə doktoru, dosent

Ulduz MANAFOVA
"Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının laborantı

MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKA KİTABXANALARINDA ELEKTRON KATALOQLARIN YARADILMASI

Açar sözlər: *Azərbaycanda kitabxanaların kompyuterləşdirilməsinin tarixi,M.F.Axundov adına Milli Kitabxananın elektron kataloqu, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının elektron kataloqu, Prezident Kitabxanasının elektron kataloqu, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının elektron kataloqu və s.*

Ключевые слова: *история компьютеризации библиотечного дела в Азербайджане, электронный каталог Национальная библиотека имени М.Ф.Ахундова, электронный каталог Центральная научная библиотека НАНА, электронный каталог Президентская Библиотека, электронный каталог Научная библиотека Бакинского Государственного Университета и др.*

Keywords: *the history of the computerization of libraries in Azerbaijan, electron catalogue of M.F.Akhundov National Library, electron catalogue of ANAS Central Scientific Library, electron catalogue of President's Library, electron catalogue of Baku State University's Scientific Library and ect.*

Respublika kitabxanalarında yeni texnologiyaların tətbiqinə, elektron kataloqların yaradılmasına, daha doğrusu, kitabxanaların kompyuterləşdirilməsi işinə ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra diqqət verilməyə başlanmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi dönəmdə mədəniyyətin digər sahələri kimi, kitabxanalar da lazımi vəsaitlərlə təmin edilmir, oxucuların sayı azalır, fondlar cari ədəbiyyatla təmin edilmirdi. Müstə-

20633
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

qilliyinin ilk illərində respublikada kitabxana fəaliyyətini yeni şərtlərlə qaydaya salan heç bir rəsmi və metodiki sənədlər qəbul edilməmişdir ki, bu vəziyyət xüsusilə də yeni kitabxana-informasiya texnologiyası sahəsində özünü göstərirdi.

1995-ci ildən başlayaraq ayrı-ayrı əməliyyatları yerinə yetirmək məqsədilə kompyuterlərdən istifadə edilməyə başlandı. İlk vaxtlar kompyuterlər kitabxanalarda kargüzarlıq, qismən də maliyyə xərclərinin hesablanmasını avtomatlaşdırmaq məqsədilə istifadə olunurdusa, 90-cı illərin axırlarından kitabxanaların İnternet kompyuter informasiya şəbəkəsinə qoşulması oxucuların informasiya tələbatının elektron formada ödənilməsinə, kitabxanalararası əlaqələrin qurulmasına, ədəbiyyat sifarişlərinin avtomatlaşdırılmasına, daha doğrusu, kitabxana işi kollektiv əmək olduğundan onun kompyuterləşdirilməsini kompleks həyata keçirən, özündə kitabxana işinin bütün sahələrini əhatə edən avtomatlaşdırılmış sistemlərin yaradılmasına və ya alınmasına böyük ehtiyac yaranmışdı. Bu dövrdə kitabxanalar yaranan bu çətin vəziyyətdən çıxış yolları, ələlxüsus da maliyyə mənbələri axtarmaq məcburiyyətində idilər. Belə bir şəraitdə bir çox iri kitabxanalar müxtəlif beynəlxalq fondlardan, xeyriyyəçi təşkilatlardan qrantlar almağa başladılar ki, bu da kitabxanaların müəyyən dərəcədə iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb oldu.

1990-cı illərin ikinci yarısından başlayaraq respublika kitabxanalarına ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Azərbaycanda fəaliyyət göstərən xarici neft kompaniyaları, bir çox humanitar və qeyri-hökumət təşkilatları maliyyə yardımı göstərməyə başladılar. Bu dövrdə kitabxanaların dövlət tərəfindən də maliyyə vəsaiti ilə təmin edilməsi tədricən genişlənirdi. 1998-ci ilin dekabr ayının 22-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən «Kitabxana işi haqqında» qanun qəbul edildi. Bu qanun kitabxanaların statusunun rəsmi şəkildə bərpa edilməsinə imkan verdi, onların fəaliyyəti üçün hüquqi baza yaratdı, kitabxanaların demokratikləşdirilməsini gücləndirdi və respublika kitabxanalarının dünya kitabxanaları ilə müstəqil qarşılıqlı əlaqələrinin genişlənməsinə imkan yaratdı.

Artıq kitabxana quruculuğu sahəsində həyata keçirilən bu kimi tədbirlər 1990-cı illərin sonu - 2000-ci illərin əvvəlindən Azərbaycan kitabxanalarında yeni kitabxana-informasiya texnologiyalarının tətbiqini zəruri etdi və bir çox iri kitabxanalar bu sahədə xüsusilə də elektron kataloqların yaradılması istiqamətində ilk addımlarını atdı.

İnformasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi nəticəsində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində gərəkli addımlar atan kitabxanalardan biri M.F.Axundov adına Milli Kitabxana olmuşdur.

Milli Kitabxanada avtomatlaşdırma işinə 1990-cı illərin sonlarında Açıq Cəmiyyət İnstitutu Yardım Fondu (və ya Soros Fondu) və Avrasiya Fondu kimi beynəlxalq təşkilatların kitabxanaçılar üçün elan etdiyi xüsusi layihələrdə iştirak edərək dəfələrlə qrantlar udması yolu ilə başlanılmışdır. Alınan qrantlar hesabına elektron resursların yaradılması üçün zəmin yaranmış və modernləşdirilmiş kitabxana quruculuğunun əsası qoyulmuşdu. Hələ 1998-ci ildə Milli Kitabxana ABŞ-ın USAID təşkilatının vəsaiti hesabına Avrasiya Fondundan qrant udaraq, qlobal informasiya şəbəkəsinə qoşulmuşdu. Respublikamızda kitabxanada ilk İnternet zalı, 2000-ci ildə isə yenə də həmin ictimai təşkilatların qrant vəsaiti hesabına Tədris Mərkəzi məhz M.F.Axundov adına Milli Kitabxanada yaradılmışdı. Bu mərkəzdə ilk dəfə olaraq respublikamızın kitabxana işçiləri üçün kompyuter təlimi və İnternetdə axtarış aparmaq vərdişlərinin aşılanması üzrə treninqlər təşkil olunmuşdur.

2002-ci ildə Avrasiya Fondu tərəfindən elan olunmuş qrant əsasında Milli Kitabxana "Maşınla oxunan elektron kataloq" adlı layihə təqdim edərək qalib gəlmişdi. Həmin ildən M.F.Axundov adına Milli Kitabxanada avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqi istiqamətində ilk addımlar atılmışdı. ABŞ-ın Azərbaycandakı səfirliyi, Soros və Avrasiya fondlarının maliyyə dəstəyi ilə ABŞ-ın Virciniya ştatı Texniki Universitetinin 1981-ci ildə məxsusi olaraq kitabxanalar üçün işləyib hazırladığı və dünyanın 100-dən çox kitabxanasında tətbiq edilən VİRTUA-VTLS (Virginia Technical Library System) proqramı seçilərək alınmışdı. Bu layihənin kompyuter avadanlıqları və texnoloji təminatı Soros Fondu tərəfindən, proqram təminatı isə Avrasiya Fondu tərəfindən həyata keçirilmişdi. Bütün hazırlıq işləri başa çatdırılaraq 2003-cü ilin yanvarından elektron kataloqun tərtibinə start verilmiş və elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdi.

2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir. Bu gün Milli Kitabxana VİRTUA proqramının 9 moduldan ibarət tam komplektinə malikdir və hazırda kitab fondunun komplektləşdirilməsi, kitabların işlənməsi və sistemləşdirilməsi, diyarşünaslıq və milli biblioqrafiyaların tərtibi, kataloq

kartoçkalarının çapı, dövri mətbuatın analitik bazasının yaradılması, qramplastinkaların və səs yazılarının elektron bazasının yaradılması işləri avtomatlaşdırılmış formada həyata keçirilir.

İnformasiya cəmiyyəti quruculuğu dövrünün tələblərinə müvafiq olaraq 2006-cı ildən etibarən Milli Kitabxanada yeni tələblərə uyğun müvafiq struktur şöbələri və bölmələri - "Elektron informasiya xidməti", "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları", "Elektron resurslarının yaradılması", "Kitabxana siyasəti və metodik rəhbərlik", "Analitik elektron məlumat bazasının yaradılması", "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" və s. yaradılmışdır. İlk növbədə kitabxananın elektron resurslarının yaradılmasına olan böyük ehtiyac nəzərə alınaraq yeni strukturda Milli Kitabxananın qiymətli fondlarının elektron daşıyıcılara köçürülməsi kimi mühüm bir prosesə başlanğıc verilmişdir. Elektron məlumat bazasına ədəbiyyat 3 istiqamətdə daxil edilir: kitabxanaya daxil edilən yeni ədəbiyyat; arxiv şöbəsinə toplanmış və əksxronoloji ardıcıllıqla seçilən ədəbiyyat; kitab verilişi məntəqəsində oxucular tərəfindən qaytarılan və daha çox tələb olunan ədəbiyyat.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası respublikamızın kitabxanaları içərisində elektron kataloqun yaradılması və ümumiyyətlə, kompyuterləşmə prosesini həyata keçirməyə çalışan ilk kitabxanalardan biri olmuşdur. Bu mühüm işdə "Kitabxanaların kompyuterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının çox böyük rolu olmuşdur. Laboratoriyada respublikada ilk dəfə olaraq vahid virtual elektron kitabxana şəbəkəsinin yaradılmasının elmi əsasları hazırlanmışdı və BDU-nun elmi kitabxanasının bazasında onun mərhələ-mərhələ həyata keçirilməsinə başlanmışdı. Tədqiqatların ilkin nəticəsi olaraq laboratoriyanın proqramçı əməkdaşı tərəfindən «Kitabxana-1.0» Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) yaradılmışdır. Daha sonra «Kitabxana-1.0» AKİS-nin təkmilləşdirilmiş «Kitabxana-2.0» versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirirdi. Sistem qeyri-məhdud sayda istifadəçisi olan ixtiyari tip lokal kompüter şəbəkələrində işləyə bilirdi. Sistemdə əsas kitabxana prosesləri, o cümlədən sistemləşmə, kataloqlaşma, abonent xidmətinin avtomatlaşdırılmış işçi yerləri nəzərdə tutulmuşdur. Sistem qeyri-məhdud sayda verilənlər bazası yaratmaq və istifadə etmək qabiliyyətinə malik idi. Sistem oxucu sorğusunun tez formalaşması üçün müxtəlif rubrikaların avtomatik yaradılmasını təmin edirdi. Sistem sadə, rahat, qrafiki istifadəçi interfeysinə malik olub, səhvsiz informasiyasının daxil olmasını təmin edən xidmət vasitələrinə malik idi. Həmçinin "açıq" texnologiya əsasında yaradılmış sistem konkret kitabxana üçün asan adaptasiya oluna bilər.

Bu AKİS-lər Azərbaycanda virtual vahid kitabxana informasiya sisteminin yaradılması sahəsində atılan ilk addım olduğundan və 90-cı illərdə qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmirdi. Buna görə də 2003-cü ildən etibarən BDU-nun elektron kataloqunun yaradılmasında keçmiş MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan «MARC-Sql-1,5», daha sonra isə «İRBİS-64» proqramını tətbiq etməyə başladılar. Laboratoriya yarandığı vaxtdan Elmi Kitabxananın elektron kataloqunun yaradılması üzərində işlər aparmış və bütün bunlar müsbət nəticələnmişdir. Hal-hazırda elektron kataloqun məlumat bazasının yaradılmasında laboratoriyanın əməkdaşları ilə bərabər, kitabxananın işçiləri də məşğul olurlar. Artıq Elmi Kitabxananın «Nadir kitablar fondu»ndan 7100 adda kitab, «Dissertasiyalar və avtoreferat» fondundan 3170 adda dissertasiya rus dilində, 580 adda Azərbaycan dilində, «Xarici ədəbiyyat və dövri mətbuat» şöbəsində isə bütün elm sahələri üzrə müxtəlif xarici dillərdə (ingilis, alman, fransız və Qərbi Avropa dillərində) 1525 jurnal (son illərin nəşrləri), texniki elm sahələrinə aid rus dilində 13 768 jurnal, Azərbaycan dilində 976 jurnal elektron kataloqa daxil edilmiş və oxucuların istifadəsinə verilmişdir. Həmçinin laboratoriyanın işçiləri rus dilində kitabxananın sistemli kataloqunda kimya elminə aid olan kitabları elektron kataloqa daxil etmişdir. Hazırda biologiyaya aid kitablar elektron kataloqa daxil edilməkdədir. Kitabxananın fondunda Azərbaycan dilində olan bütün kitablar, həmçinin nadir xarici ədəbiyyat və dövri mətbuat fondu bütünlüklə elektron kataloqa daxil edilmişdir. Azərbaycan dilli dövri mətbuat fondu və rus dilində təbiət və texniki ədəbiyyat fondunun biblioqrafik məlumat, informasiya-sorğu bazası yaradılaraq elektron kataloqa əlavə edilmişdir.

BDU Elmi Kitabxanasının elektron kataloqunun iki versiyası mövcuddur: Azərbaycan və rus versiyaları. Elektron kataloqun Azərbaycan versiyasında olan informasiya axtarışını beş baza üzrə həyata keçirmək mümkündür: 1) Yeni Kitablar (burada 2000-ci ildən bu günə qədər kitabxanaya daxil olan Azərbaycan dilində nəşrlər yerləşdirilmişdir); 2) Kitablar (1921-2002); 3) Jurnallar; 4) Dissertasiyalar; 5) Məqalələr.

Elektron kataloqun rus versiyasında məlumat bazalarının sayı digərinə nisbətən daha çoxdur. Burada 8 baza mövcuddur: 1) Kimyaya dair kitablar (11037 adda); 2) Yeni kitablar (sayı tez-tez dəyişir); 3) Nadir kitablar (15 920 adda); 4) Dissertasiyalar (3 290 adda); 5) Humanitar elmlərə dair jurnallar (12 361 nüsxə); 6) Texniki elmlərə dair kitablar (15 930 adda); 7) Xarici jurnallar (1 942 nüsxə); 8) Məqalələr (22 131 adda).

Elektron kataloqda UOT-a, müəllifə, sərlövhəyə, nəşriyyata, nəşr yerinə, nəşr ilinə, predmet təsnifatına, topluya, açar sözlərə və s. ünsürlərə görə kompleks axtarış aparmaq mümkündür. Elektron kataloq vasitəsilə oxucular aşağıdakı elektron nəşrlərdən də istifadə edə bilərlər: dərsliklər (Azərbaycan və rus dillərində), siyasi ədəbiyyat, ensiklopediyalar, lüğətlər, bədii ədəbiyyat, milli folklor, poeziya, nəsr əsərləri və s.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) elektron kataloqun yaradılmasına və proseslərin kompyuterləşdirilməsinə 2002-ci ildə «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsinin fəaliyyətə başlaması ilə start verilmişdir. Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılması və kompyuterləşdirilməsini qarşısına məqsəd qoyan bu şöbə qısa zaman kəsiyində ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompyuterləşdirilməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitlə uyğun qurmağa müvəffəq olmuşdur. 2005-ci ildən MEK-in rəhbərliyi iş proseslərinin avtomatlaşdırılmasını Rusiya istehsalı olan "İRBİS-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəsilə reallaşdırır.

Kitabxananın elektron kataloqunun yaradılması ənənəvi kartoçka kataloqunun maşınla oxunan formaya keçirilməsi əsasında həyata keçirilir. "Azərbaycan dilində elmi ədəbiyyatın elektron kataloqlarının yaradılması" işi üzrə Azərbaycan dilində cari ədəbiyyatın biblioqrafik təsviri və elektron kataloqa daxil edilməsi mərhələsi başlanmışdır ki, bunun nəticəsində də elektron kataloqa 5400 adda yeni kitabın biblioqrafik yazısı daxil edilmişdir. MEK-in elektron kataloquna hələlik yalnız cari və qismən retrospektiv ədəbiyyat daxil edilir. Kitablar bir qayda olaraq yazıldıqları dildə elektron kataloqda öz əksini tapır. Daha dəqiqi, MEK-in elektron kataloqundakı təsvirlər 7 - Azərbaycan, rus, ingilis, fransız, fars, ərəb və türk dillərindədir. Proqram təminatı UTF-8 kodlaşmasını dəstəklədiyi üçün burada fars və ərəb şriftləri ilə bərabər, heroqliflər, Çin və yapon dillərində də təsvirlər mümkündür. Elektron kataloqa daxil edilən təsvirdə müəllif, sərlövhə, müəllif işarəsi, nəşr ili, səhifə, illüstrasiya, həcm, cild və s. məlumatlar əks olunur. Daxil

olan hər bir ədəbiyyat "Kataloqlaşdırıcı" AİY-nin bloklarındakı bazalar uyğun bölünür.

"Azərbaycanda neft" elektron göstəricisinin məlumat bazası yaradılmışdır və orada Azərbaycanda neft sənayesinin tarixini, müasir vəziyyətini və perspektivlərini əhatə edən müxtəlif dillərdə 1500 adda sənədin elektron kataloqu yaradılmışdır. Bunlardan 120-nin isə tam mətni hazırlanaraq elektron kitabxanaya daxil edilmişdir. Həmçinin "Azərbaycan Milli Elmlər Akademiyasının alimləri. Humanitar və ictimai elmlər" adlı elektron biblioqrafik göstərici Azərbaycan, rus və ingilis dillərində hazırlanmışdır.

2003-cü ildən fəaliyyətə başlayan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Kitabxanası da İRBİS-64 AKİS-nin köməyi ilə elektron kataloqun yaradılmasına başlanılmış və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir. Bu sistem vasitəsilə analitik təhlil, elmi-tədqiqat, ictimai-siyasi fəaliyyətlə məşğul olan oxucu qruplarına kömək etmək məqsədilə 12 adda daim yeniləşən tammətnli elektron nəşr, 7 adda cari elektron biblioqrafik nəşr hazırlanmışdır. Kitabxanada yaradılmış elektron toplular arasında nisbətən aktual əhəmiyyət kəsb edən "Odlar yurdu Azərbaycan" adlı tammətnli ölkəşünaslıq elektron nəşrlər toplusunda ölkəmizin tarixinə, mədəniyyətinə, iqtisadiyyatına və xarici siyasətinə dair zəngin materiallar toplanmışdır.

İnformasiya tutumu baxımından zəngin mənbələrdən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ilin oktyabr ayından başlayaraq etdiyi bütün nitqlərin, çıxışların və müsahibələrinin tammətnli elektron nəşridir. Elektron biblioqrafik göstəricilərdən isə "Azərbaycan Respublikası Prezidentinin gündəlik fəaliyyətinin xronikası" (rüblük), "Azərbaycan Respublikası Qanunları" (rüblük), "Yeni kitablar" (rüblük) adlı elektron nəşrləri göstərmək olar.

Hal-hazırda Prezident Kitabxanasında İRBİS-64 AKİS-nin «Komplektləşdirici», «Kataloqlaşdırıcı», «Oxucu», «Kitab verilişi», «İnzibatçı» AİY-ləri tətbiq edilir. Kitabxanaya daxil olan hər bir çap məhsulu elektron kataloqa daxil edilir. Kitabxanada sistemin veb modulu da tətbiq edilir ki, bu da kitabxananın elektron kataloquna uzaq məsafədən daxil olmaq üçün proqram xidmətidir. Kitabxananın elektron kataloqunda axtarış aparmaq üçün axtarışın 3 növü vardır: standart, tam və genişləndirilmiş.

Standart axtarış növündə açar söz, müəllif və ya sərlövhə üzrə axtarış aparmaq olar. Tam axtarış növündə açar söz, müəllif, sərlövhə, nəşr növü, nəşr ili, nəşriyyat üzrə axtarış aparmaq olar. Genişləndirilmiş axtarış növün-

də açar söz, müəllif, sərlövhə, nəşr növü, nəşr ili, nəşriyyat, ISBN və s. üzrə axtarış aparmaq olar. Elektron kataloqun «Avtorizasiya» sahəsində kitabxanada qeydiyyatdan keçmiş oxucu öz soyadını, adını və parolunu (oxucu biletinin nömrəsini) daxil etməklə formulyarlarını yoxlaya və istədiyi sənədi sifariş edə bilər.

Müasir informasiya texnologiyalarının işlənməsi və tətbiqi özəl ali məktəb kitabxanalarının fəaliyyətində vacib yer tutur. Bu baxımdan Xəzər Universiteti Kitabxanasının fəaliyyəti diqqəti cəlb edir. Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi 1991-ci ildə yaradılmışdır. Kitabxananın «Elektron kataloqlaşdırma» və «Oxuculara elektron xidməti» şöbəsində avtomatlaşdırma prosesi həyata keçirilir. Kitabxananın fondu hal hazırda 85 minə yaxındır.

Son zamanlar Azərbaycanda kitabxanaların avtomatlaşdırılması ilə əlaqədar böyük hazırlıq işləri aparılır ki, bu da respublikada kifayət qədər professional kitabxana sistemlərinin mövcudluğuna şərait yaradır. Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi respublikada avtomatlaşdırılmış kitabxana-informasiya sisteminin işlənməsi və tətbiqi üzrə ilk təşəbbüskar hesab olunur. Elektron informasiya xidmətləri universitet, respublika beynəlxalq informasyia şəbəkəsinə, informasiya resurslarına girişi təmin edərək oxuculara daha effektiv xidməti həyata keçirməyi imkan verir. Elektron xidmətin inkişaf etdirilməsinin zəruriliyi müasir kitabxanalarda baş verən dəyişikliklərlə şərtlənir. Bura ilk növbədə aşağıdakıları daxil etmək olar:

- ənənəvi və virtual xidmətlər;
- istifadəçilərlə ünsiyyət İKT və e-poçt vasitəsilə həyata keçirilir;
- istifadəçilərin elektron vasitələrinin köməyi ilə məlumatlandırılması;
- fərdi kömək, təqdimatlar, seminarlar, təlim kursları.

Elektron informasiya xidmətlərinə aşağıdakılar daxildir:

- kitabxananın elektron kataloqu, internet resursları (axtarış sistemləri, e-jurnallar, e-kitablar, virtual kitabxanalar, məlumat bazaları);
- CD-ROM, DVD-ROM;
- yerli məlumat bazaları;
- ödənişli məlumat bazaları (biblioqrafik və tam mətnli).

Hazırda Xəzər Universitetinin veb səhifəsində yeni daxil olmuş kitabların və CD-ROM-ların virtual kiatbxanası (pulsuz elektron kitablarına isnadlar qeyd edilir) mövcuddur. Bu kitabxananın işçiləri tərəfindən hazırlanmış pulsuz internet resursları və virtual kitabxana istifadəçiyə müxtəlif tematik fənn

proqramlarından istifadəni asanlaşdırmağa imkan verir. Hər bir resurs işçilər tərəfindən seçilir, yoxlanılır, təhlil edilir. Hər bir informasiya uyğun olan resursun annotasiyası ilə təmin edilib.

Müasir kitabxanada dünya informasiya şəbəkəsinin tam mətnli resurslarına girişi təmin etmək mühüm məsələlərdən biridir. 2000-ci ildə respublika EBSCO məlumat bazasından istifadə etmək üçün ilk təşəbbüs göstərilmişdir. 2003-2004-cü illərdə Xəzər Universiteti Science Direct, AGORA, İngenta, Oxford Journals Online, Oxford Referenge Online kimi məlumat bazaların çıxışı təmin etmişdir.

Avtomatlaşdırma texnologiyalarının tətbiqi baxımından özəl universitetlər içərisində Qafqaz Universitetinin Kitabxanası qabaqcıl yer tutur. Kitabxanada avtomatlaşdırılma prosesi əsasən kataloqlaşdırma və məlumat bazalarının yaradılması istiqamətində aparılır. Bu universitet Kafkaz library (Qafqaz Kitabxanası) xüsusi proqramla işləyir. Sistem quruluşca 3 hissədən ibarətdir:

1.Kitab axtarışı: Əməliyyat sisteminin bu bölməsində mövcud kitablar haqqında məlumat verilir. Kitabın adı, dili, redaktoru, fiziki xüsusiyyətləri haqqında xüsusi yer ayrılmışdır. Həmçinin burada kitabın rəfdə və yaxud oxucuda olması haqqında məlumat verilir.

2. Kitab verilişi: Universitetin tələbə və işçilərinin vəsiqələrində olan xüsusi nömrə əsasında kitab verilişi həyata keçirilir. Bu bölmə iki sütundan ibarətdir:

3. Detallar. Əməliyyat sisteminin üçüncü bölməsində əvvəlki bölmələrədə qeyd olunan məlumatlar ümumiləşdirilmiş şəkildə verilir. Materiallar əvvəlki bölmələrdən silinsə də, burada qalır.

Nəticə olaraq qeyd edək ki, Azərbaycanın respublika səviyyəli bəzi kitabxanalarında elektron kataloqların yaradılması istiqamətində, xüsusilə də kitabxanaların kompleks avtomatlaşdırılması sahəsində xeyli nəticələr əldə edilmişdir. Respublikanın adları çəkilməyən bir çox iri kitabxanalarında və mərkəzləşdirilmiş kitabxana sistemlərində də elektron kataloqlarla internet xidməti bölmələri yaradılaraq bu işə başlanılmışdır.

ƏDƏBİYYAT:

1. İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti. Bakı, «Nurlar» nəşriyyat-poliqrafiya mərkəzi, 2009.- 312 səh.

2. Rüstəmov Ə., Mustafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2007.- №2.- s.15-27
3. Xələfov A.A. Kitabxanaların kompyuterləşdirilməsinin əsasları: Dərslik / A.Xələfov, A.Qurbanov.- Bakı, 2007.- 198 s.
4. Xələfov A.A., Hüseynova A.S.: Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri//Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası).- 2004.-№4.-s.288-290.
5. Xələfov A.A., Mehdiyeva N.D.: BDU-nun Elmi Kitabxanasının elektron kataloqu/Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası).- 2007.-№3.-s.198-201.
6. Xələfova S.A. Elektron kataloqlar informasiya axtarış sistemində // Metodik göstəriş.- 2011.- Bakı Universiteti Nəşriyyatı, 45 s.
7. Xələfova S.A.Kitabxana kataloqlarının inkişaf formaları // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2011.- №2.- s.14-20
8. Вершинин, М.И. Электронный каталог: проблемы и решения.- СПБ, 2006.-235 с
9. Вершинин, М.И. Создание нечетного тезауруса для электронного каталога / М.И. Вершинин // Информ. ресурсы б-к их кадровое обеспечение: сб. науч. тр. // www. qpntb.ru
10. Минеяров, З.М. Электронный каталог – особая поисковая среда // Науч. и техн. б-ки, 2005.- № 7.- с. 67-72
11. Azərbaycan Milli Elmlər Akademiyasının web-saytı: www.csl-az.com.
12. M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın web-saytı: www.anl.az.
13. BDU-nun Elmi Kitabxanasının web-saytı: www.bsu.edu.az
14. Prezident Kitabxanasının web-saytı: www.preslib.az

С.А. Халафова,
У.И.Манафова

СОЗДАНИЕ ЭЛЕКТРОННЫХ КАТАЛОГОВ В БИБЛИОТЕКАХ РЕСПУБЛИКИ В ГОДЫ НЕЗАВИСИМОСТИ

РЕЗЮМЕ

В статье комментируется влияние социально-политических и экономических факторов на компьютеризацию библиотечного дела, рассказывается об истории и современных проблемах компьютеризации библиотечного дела а именна создания электронный каталог в лице Национальной библиотеки имени М.Ф.Ахундова, Центральной научной библиотеки НАНА, Библиотеки президента и Научной библиотеки Бакинского государственного университета и др.

S.A. Xalafova
U.İ.Manafova

CREATION OF E-CATALOGS IN LIBRARIES OF REPUBLIC WITHIN YEARS OF INDEPENDENCE

SUMMARY

The influence of socio-political and economic factors on the computerization of libraries in Azerbaijan was underlined, the history and modern problems of the computerization of librarian work was researched in the example of M.F. Akhundov National Library, ANAS Central Scientific Library, President's Library and Baku State University's Scientific Library in the article.

Sənubər MUSTAFAYEVA
"Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi

Səfurə HACIYEVA
"Kitabxana fondu və kataloqları" laboratoriyasının müdiri

KİTABXANA TƏSNİFATI NƏZƏRİYYƏSİNİN İNKİŞAFI

Açar sözlər: *Təsnifat sistemləri, Xarici ölkələrdə kitabxana təsnifatının inkişafı, M.Dyunin təsnifatı, Rusiyada kitabxana təsnifatının yaranması, Coxaspektli təsnifat sistemləri.*

Ключевые слова: *Классификационные системы, Развитие библиотечной классификации за рубежом, Классификация М.Дьи, Развитие библиотечной классификации в России, Многоаспектные классификационные системы.*

Keywords: *Classification systems, development of library classification abroad Classification M.Di, development of library classification in Russia, Multidimensional classification systems.*

XIX əsrin birinci yarısında yaranan təsnifat sistemlərindən biri Elmlər Akademiyasının kitabxanasının direktoru, embriologiya elminin banisi, akademik Karl Maksimoviç Berin (1792-1876) təsnifatı daha çox diqqəti cəlb edir. Onun təsnifatı kitabxananın xarici ədəbiyyat şöbəsinin kataloqunu təşkil etmək və fondu sistemləşdirmək üçün nəzərdə tutulmuşdur. Təsnifat 1841, 1908-ci illərdə latın dilində, 1926-cı ildə rus dilində çap edilib. Təsnifatın şöbələrinin əsas bölmələri aşağıdakılardır: (1,s.97)

I. Biblioqrafiya və ümumi ədəbiyyat tarixi
II. Ümumi və elmi poliqrafiya kitabları
III. Dilçilik
IV. Riyaziyyat və astronomiya
V. Ümumi təbiətşünaslıq
VI. Geologiya və minerologiya
VII. Üzvi aləmin təbiətşünaslıq tarixi

VIII. Antropologiya. Ümumi fiziologiya
IX. Siyasət adlanan ümumdünya tarixi və coğrafiya
X. Ayrı-ayrı xarici ölkələrin tarixi və coğrafiyası
XI. Siyasət və hüquqşünaslıq
XII. İqtisadiyyat və texnologiya
XIII. İncəsənət və ümumi arxeologiya
XIV. Söz sənəti
XV. İlahiyyat
XVI. Fəlsəfə
XVII. Təbabət
XVIII. Hərbi və dəniz işi
XIX. Memarlıq və inşaat işləri
XX. Əlyazmaları və əllə bəzək işləri
XXI. Akademiya kitabxanasının bütün kataloqları

Əvvəlki təsnif sistemlərindən fərqli olaraq burada əsas şöbələrin ümumi ardıcıllığı elmi şəkildə əsaslandırılırdı. Başlıca prinsip cansız aləmdən canlı aləmə, insanın, cəmiyyətin və mənəvi fəaliyyətin inkişafında özünü göstərmişdir. Burada həmçinin tətbiqi elmlər də bir-birinə yaxınlaşdırılmışdır. Berin təsnifatında dilçilik bütün fənnlərin öyrənilməsinin bazası kimi verilmişdir.

Beləliklə Ber öz təsnifatında elmlər arasında məntiqi ardıcıllıq yaratmağa çalışmış və buna qismən də olsa nail ola bilmişdir. Onun təsnifatının başqa bir xüsusiyyəti odur ki, şöbələrin yarımşöbələrə ayrılması üçün imkan vardır. O, əsas şöbələri rum rəqəmi, yarımşöbələri latın hərfləri ilə, bölmələri yunan hərfləri ilə işarə etmişdir.

XIX əsrdə Moskva və Kazan Universitet kitabxanalarının fondunun və kataloqlarının sistemləşdirilməsini qaydaya salmaq məqsədilə bir sıra təsnifat sistemləri yaranmışdır.

Moskva Universitet kitabxanasının təsnifatı kimya üzrə professor, Rusiya Fizika-tibb cəmiyyətinin prezidenti Fyodor Fyodoroviç Reyss (1778-1852) tərəfindən hazırlanmışdır.(4,s137) 1812-ci ildə yanğın nəticəsində məhv olan kitabxananın direktoru Reyss, sonralar bu kitabxananı ən qabaqcıl kitabxanalardan birinə çevirmişdir. 1826-cı ildə o öz təsnifat sistemini yaratmışdır. Bu təsnifat həm kataloqun sistemli düzülüşü, həm də rəfdə kitabların düzülüşü üçün nəzərdə tutulmuşdur. Təsnifatın xətti sistemi 10 əsas şöbədən ibarət idi. Bu sistemdə həm də mürəkkəb terminologiyadan istifadə edilirdi.

Təsnifat quruluşundakı nöqsan cəhət bölmələrdə daha çox xırdalanmaların (2500) aparılmasıdır. Halbuki kitabxana fondunda 30.000 kitab var idi. Bəzən bir bölməyə bir neçə kitab düşürdü. Lakin təsnifatın bir sıra müsbət cəhətləri də vardı. Belə ki, nəşrlərin müxtəlif növü (lüğətlər, cədvəllər, dərsliklər) çoxlu miqdarda bölgülərə malik idi. Bu təsnifatın əsas şöbələri ərəb rəqəmləri ilə, yarımşöbələri isə latın hərfləri ilə işarələnirdi.

Təsnifatın digər üstün cəhətlərindən biri də odur ki, fondda ədəbiyyatın sistemləşdirilməsində şöbələr daxilində uyğunluq var idi və burada ədəbiyyat xronoloji qaydada düzülürdü. Reyssin təsnifat sahəsində fəaliyyəti "Universitet kitabxanalarının sistemli kataloqları" adlı 3 cildlik əsəri ilə başa çatır (1831-1836).

Kazan Universitet kitabxanasına 1835-ci ildən ona rəhbərlik edən Karl Karloviç Foyqt (1808-1873) öz təsnifatının orijinal sxemini hazırlamışdır. O, 1834-cü ildən Universitetin rektoru Lobaçevskinin nəzarəti ilə "Kitabxananın yerləşməsi planı"nı tərtib edir.

O, öz sxeminin əvvəlində ən mühüm xarici ölkə təsnifatlarının sistemini və tənqidi xülasəsini verərək belə bir nəticəyə gəlmişdir ki, bunların heç biri kitabxana təsnifatının tələblərinə cavab vermir. Onun təsnifatının əsas bölmələri aşağıdakılardır:

I. Sənaye
II. Hərbi elmlər
III. Hüquq və siyasət
IV. Təbabət
V. Təbii elmlər. Zoologiya, botanika
VI. Minerologiya, kimya , fizika
VII. Riyaziyyat elmləri
VIII. Fəlsəfə və pedaqogika
IX. İlahiyyat
X. Tarix elmləri
XI. Filologiya
XII. Söz sənəti
XIII. Zərif rəssamlıq
XIV. Ensiklopediya və biblioqrafiya

K.K.Foyqt sxeminin başlıca ideyası insan zəkasının bütövlüyüdür.

Göründüyü kimi onun sxeminin əsasını elmlərin insan tələbatına görə bölgüsü təşkil edir. Odur ki, sxemdə birinci yeri "ərzaq" tələbatı ilə bağlı olan "sənaye" elmləri tutur.

Qeyd etmək lazımdır ki, Foyqtın təsnifatı Reyssin təsnifatına nisbətən daha müvəffəqiyyətli olmuşdur, lakin nəşr edilməyinə görə bu təsnifat xeyli müddət naməlum olaraq qalmışdır.

XIX əsrin ortalarında yalnız biblioqrafik göstəricilərin tərtibində istifadə edilən biblioqrafiya təsnifatları da meydana gəlir. Bu cəhətdən görkəmli rus biblioqrafı, mütərəqqi ictimai xadim Vasiliy Qriqoriyeviç Anastasiyeviçin (1775-1845) təsnifatını göstərmək olar. Anastasiyeviçin təsnifatında bölmələr üzrə 3 obyekt (təbiət, cəmiyyət, dil) əsas götürülmüşdür. Bu cür bölgü şübhəsiz ki, məntiqi xarakter daşıyır.

Anastasiyeviç öz təsnifatında bölmələrdə xırdalanmaların əleyhinə çıxır. Reyss kimi bəzi hallarda o əlifba düzülüşünü tətbiq edirdi: tarixdə ayrı-ayrı ölkələr; ədəbiyyatda müəlliflər və s.

XIX əsrin II yarısında ən böyük biblioqraflardan biri Vasiliy İzmayloviç Mejov (1831-1894) öz biblioqrafik fəaliyyəti ilə xüsusi fərqlənmişdir.

Mejovun təsnifatı 16 şöbədən ibarətdir: (4,s.166)

I. İlahiyyat
II. Fəlsəfə
III. Pedaqogika
IV. Hüquqşünaslıq və siyasi elmlər
V. Texnologiya
VI. Kənd təsərrüfatı
VII. Tarix
VIII. Coğrafiya və etnoqrafiya
IX. Riyaziyyat elmləri
X. Hərbi və dəniz elmləri
XI. Təbiətşünaslıq
XII. Tibb elmləri
XIII. İncəsənət
XIV. Dilçilik
XV. Ədəbiyyat
XVI. Məlumat kitabları

Mejov öz təsnifatında sistemli düzülüşü müdafiə edərək onun bəzi üstün cəhətlərini göstərməyə çalışmışdır. 20 il ərzində (1869-1889) onun kitab şəklində sistemli kataloqları nəşr olunurdu. O, öz əsərlərində təkcə kitabları deyil həmçinin məqalələri də əks etdirirdi.

Mejovun əsərlərində onun müasirləri həm materialların düzülüşündə, həm də sistemləşdirilməsində bəzi nöqsanları da qeyd edirdilər.

Mejovun təsnifatı bəzi qüsurlarına görə Anastasiyeviçin təsnifatından geri qalmasına baxmayaraq o dövrdə Peterburq ümumi kitabxanasında geniş tətbiq edilirdi.

Kitabxana təsnifatı XIX əsrdə nəzəri və təcrübi cəhətlərinə görə əhəmiyyətli dərəcədə inkişaf etməyə başlayır. Kitabxanaların inkişafı və onların fondunun getdikcə zənginləşməsi fondun yeni qaydada təsnifləşdirilməsini tələb edirdi. Beləliklə, bu dövrdə bir sıra təsnifat sistemləri meydana gəlir. Bu təsnifatlardan Melvil Düinin (1851-1931) "Onluq Təsnifatı" diqqəti daha çox cəlb etmişdir.(4,s.181) Düi Amerikanın ən görkəmli ictimai xadimlərindən və məşhur kitabxanaşünaslarından biri olmuşdur. O, əvvəlcə Kolumb Universitetinin kitabxanaçısı olmuş, sonralar isə Nyu-York kütləvi kitabxanasına rəhbərlik etmişdir. O, həmçinin ABŞ Kitabxana Cəmiyyətinin prezidenti və "Qədim kitabxanaçılıq" jurnalının (ABŞ-da indi də çap edilir) redaktoru olmuşdur.

M.Düi AŞD-da ilk kitabxanaçılıq təhsili məktəbinin yaradıcısı və professoru kimi məşhurdur. Vahid kataloq kartoçkalarının, kitabxana avadanlığının hazırlanması və digər işlər Düinin adı ilə bağlıdır. Professor təsnifat sahəsində daha çox məşhurdur.

Düi onluq təsnifat üzərində hələ 21 yaşlarında kollecdə təhsil alarkən düşünmüşdü. O, onluq təsnifatın ilk variantını 1872-ci ildə tərtib etmişdi. Onun təsnifatı Kollecin kitabxanası tərəfindən 1873-cü ildə bəyənilmişdir. Bundan sonra Kollec kitabxanası bu yeni sistem üzərində işləməyə başlamışdır.

1876-cı ildə "Amerika Birləşmiş Ştatlarının Ümumi Kitabxanaları" adlı məcmuəsində də Düinin məqaləsi dərc edilir. Bu məqalədə onluq təsnifatın əsas prinsipləri izah olunur. Yenə həmin ildə onun "Kitabxana kataloqlarının sistemləşdirilməsi və yerləşdirilməsi üçün təsnifat və predmet göstəricisi" adlı kitabçası nəşr olunur. Kitabça cəmisi 42 səhifədən ibarət idi. Bunun 11 səhifəsi təsnifatdan, qalanı isə predmet göstəricisindən ibarət idi. Düinin təsnifatı nəşr olunduqdan üç il sonra kitabxanaların işində tətbiq olunmağa başlayır.

1885-ci ildə Düinin həmin əsəri "Onluq Təsnifat" adı ilə 2-ci dəfə 314 səhifədən ibarət nəşr olunur. Bu nəşr Düini tezliklə məşhurlaşdırır. Üç il sonra "Onluq Təsnifat"ın 3-cü nəşri 416 səhifədən ibarət, bir daha üç il sonra 4-cü nəşri çap olunur. Düinin əsərinin 14-cü nəşri 1942-ci ildə 1927 səhifədən ibarət nəşr olunmuşdur. Tam 18-ci nəşri isə 1971-ci ildə çap edilmişdir. Hazirda M.Düinin təsnifatının 21-ci nəşri çap edilmişdir. Təsnifat

30-dan artıq xarici dilə tərcümə edilmişdir. 135 ölkənin 200 mindən artıq kitabxanasında tətbiq edilir. M.Düinin təsnifatının 21-ci nəşri 4 cilddən ibarət rus dilinə tərcümə edilmişdir. Birinci cild girişdən, ikinci və üçüncü cildlər əsas cədvəllərdən, dördüncü cild isə əlifda-predmet göstəricisindən ibarətdir.

M.Düinin təsnifatında hər bir anlayışın və predmetin dəqiq və sabit yeri vardır, şöbələr, yarımşöbələr və bölmələrin hamısı ərəb rəqəmləri ilə işadə edilmişdir. Bu cəhət "Onluq Təsnifat"ın beynəlxalq xarakterini asanlaşdırır. M.Dyunin "Onluq təsnifat"ı əsasən ABŞ kütləvi kitabxanalarında tətbiq olunur. ABŞ Konqres kitabxanasının buraxdığı çap kartoçkalarında M.Düinin təsnifatının indeksi verilir. Beləliklə, M.Düinin "Onluq Təsnifat"ını ABŞ milli təsnifatı kimi adlandırmaq olar.

M.Düi "Onluq Təsnifat"ı hazırlamaq üçün kitabxana işinə dair yüzlərlə əsər oxumuş, 500-ə yaxın kitabxanada araşdırma aparmışdır. Onun təsnifatına görə bütün bilik sahələri 10 əsas şöbəyə, hər şöbə öz növbəsində 10 yarımşöbəyə, hər yarımşöbə isə 10 bölməyə ayrılmışdır.Təsnifat cədvəlinin "Onluq Təsnifat" adlanmasının səbəbi də məhz bununla izah edilmişdir. Düinin təsnifatı üç rəqəmlə işarələnərək aşağıdakı ardıcıllıqla verilmişdir.

000 ümumi xarakterli kitablar
100 fəlsəfə
200 din
300 sosiologiya
400 filologiya
500 təbii elmlər
600 faydalı incəsənət
700 incəsənət
800 ədəbiyyat
900 tarix

Hər şöbənin yarımşöbəsi və yarımbölməsi üçün isə 10 yer ayırmışdır ki, bunlar da həmçinin üç rəqəmli işarələrlə təsnifləşdirilir. Məsələn, 540 kimyanın əsas şöbəsidir, 541, 542, 543, 544 və s. onun yarımşöbələridir. Düi təsnifat cədvəlindən istifadəni asanlaşdırmaq məqsədilə ona xüsusi əlifba predmet göstəricisi əlavə etməyi vacib hesab edirdi. Yəni cədvəlin sonunda predmetlərin əlifba göstəricisini tərtib etmək nəzərdə tutulurdu. Əlifba üzrə verilən predmetlərin qarşısında isə əsas şöbənin işarəsi göstərilməli idi.

Köməkçi əlifba-predmet göstəricisi XIX əsrin 70-ci illəri üçün yeni bir məsələ hesab edilirdi. Belə ki, bu məsələ hələ Qesner və Xottinqer tərəfindən qabaqkı əsrlərdə irəli sürülmüşdü.

Sonrakı əsrlərdə bu fikir özünü tamamilə doğruldur və kitabxanalarda sistemli kataloqdan istifadəni asanlaşdırmaq üçün predmetlərin əlifba göstəricisi (kataloqu) bir açar rolunu oynayır.

Düinin "Onluq Təsnifat"ını düzgün qiymətləndirmək üçün hər şeydən əvvəl onun tarixi kökləri ilə tanış olmaq lazımdır. Təsnifatın müqəddiməsində Düi qeyd edir ki, "bu təsnifat kitabxanaşünaslığa dair yüzlərlə kitab üzərində və Amerikanın 50-dən çox müxtəlif kitabxanalarında uzun müddət və gərgin işləməyin nəticəsində yaradılmışdır."

Bu haqda Düi belə yazır: "Ayrı-ayrı elm sahələri üzrə professorların köməkliyi ilə və bir sıra kitabxana işçilərinin əməkdaşlığı sahəsində 1872-1876-cı illərdən mən təsnifat sahəsində hökm sürən bekonizmi devirərək "onluq" təsnifatı yaratmağa müvəffəq oldum, hansı ki, bu təsnifat 10 əsas şöbədən və 100 yarımşöbədən ibarətdir. Lakin mənim hazırladığım 1000 yarımşöbə təsnifat cədvəli qeyri-real hesab olunduğundan 1876-cı ilədək nəşr edilməmişdir.

Düi təsnifatının yaranmasında ona təsir edən mənbələrdən danışarkən göstərir ki, onun təsnifatının yaranmasına səbəb 1871-ci ildə çap olunmuş Natale Battezatinin "Ümumi biblioqrafiyanın yeni sistemi" adlı əsəri olmuşdur. Lakin o, həmin təsnifatın üzünü köçürməmişdir. Həqiqətən də məlum olur ki, hər iki təsnifat biri-birindən xeyli fərqlənirdi.

Lakin bəzi xarici kitabxanaşünaslıq ədəbiyyatında bir qayda olaraq təsdiq edilir ki, Düinin "Onluq Təsnifat"ı öz əsasını XVII əsr ingilis filosofu Bekonun elmlər təsnifatından götürmüşdür. Bu fikir Rusiya kitabxanaşünaslığı ədəbiyyatında da dəfələrə qeyd edilmişdir. Lakin görkəmli biblioqraf, nəzəriyyəçi və tarixçi Şamurin bu fikrin tamamilə əleyhinə çıxaraq Düinin "Onluq Təsnifat"ı ilə Bekonun elmlər təsnifatının heç bir əlaqəsi olmadığını elmi dəlillərlə sübut etməyə çalışmışdır.

Bekon bütün elmləri sistemləşdirilərək insan istedadının üç sahəsini hafizə, düşüncə və təsəvvürü əsas götürmüşdür. Bekonun təsnifatı onun fəlsəfi görüşlərinə əsasən nəzəriyyədən-təcrübəyə, oradan isə istehsalata prinsipini rəhbər tuturdu. Bekon elmlərin təsnifləşdirilməsini onların yaranması və tətqiqi ardıcıllığı ilə əlaqələndirirdi. Məsələn, Allah, təbiət və insan. Düinin təsnifatında isə əvvəl fəlsəfə (100), sonra din (200), daha sonra isə insan cəmiyyəti haqqında elm (300), dilçilik (400) və ən nəhayət təbiətşünaslıq

(500) verilirdi. Düinin təsnifatının Bekonun təsnifatı ilə əlaqəsini onunla izah etməyə çalışırlar ki, onluq təsnifatda filologiya (400) ədəbiyyatdan (800), ictimai elmlər isə (300) tarixdən (900) ayrı verilmişdir.

Bundan da belə qənaətə gəlirlər ki, Düinin onluq təsnifatının əsasında XVII əsr ingilis filosofu Frensis Bekonun təsnifatı durur. Düi Bekonun təsnifatını tərsinə çevirərək öz təsnifatını yaradır. Məsələn, Düinin təsnifatında olan fəlsəfə, din, ictimai elmlər, təbiət elmləri Bekonun təsnifatının III qrupuna (fəlsəfə), incəsənət, ədəbiyyat şöbələri II qrupuna (poeziya), tarix-coğrafiya I qrupuna (tarixə) uyğun gəlir. Lakin buna baxmayaraq onluq təsnifatın yaranması kitabxana işi sahəsində böyük bir hadisə idi.

Düinin onluq təsnifatı 3 böyük hissədən ibarətdir: 1) əsas anlayışlar cədvəli; 2) köməkçi cədvəllər; 3) əlifba-predmet göstəricisi.

Düinin təsnifatının əsas xüsusiyyətləri ondadır ki, o, müxtəlif şöbələrdə eyni cür yarımşöbələrdən istifadə etməyə çalışmışdır. Bu ondan irəli gəlir ki, Düi kitabxana təsnifatının elmi əsaslarına II dərəcəli əhəmiyyət verir, təcrübi məsələləri isə daha çox işıqlandırırdı.

Düi onluq təsnifatında standart formal bölgülərdən ardıcıl istifadə etmişdir.

01 – nəzəriyyə
02 – rəhbər vəsaitlər
03 – lüğətlər
04 - ocerklər
05 - dövri nəşrlər
06 – cəmiyyət
07 – təlim, təhsil
08 – qarışıq əsərlər
09 – elm tarixi

Bu bölmələr elmlərin və bilik sahələrinin ümumi yarımşöbəsində tətbiq edilir və çap əsərlərinin dəqiq bölgüsü aparılır. Məsələn: 5-ci şöbədə 531mexanika yarımşöbədir, ona 01 nəzəriyyə əlavə etməklə 531.01 mexanikanın nəzəriyyəsi yaradılır.

Beləliklə, Düinin "Onluq Təsnifatı"nın Bekonun elmlər təsnifatı ilə əlaqəsi kitabxanaşünaslıq ədəbiyyatında mübahisəli bir məsələ kimi izah olunur. Lakin belə bir nəticəyə də gəlmək olar ki, onluq təsnifatın Bekonun elmlər təsnifatı ilə ciddi əlaqəsi yoxdursa da hər halda Düinin onluq təsnifatına özündən əvvəlki bir sıra elmlər təsnifatı kimi Bekonun elmlər təsnifatının da müəyyən təsiri olmuşdur.

Qeyd etmək lazımdır ki, Diünin "Onluq Təsnifatı" öz dövrü üçün son dərəcə mütərəqqi rol oynamışdır. Lakin bununla delə bu təsnifat bir sıra ciddi nöqsanlardan da uzaq deyildir. Təsnifatın praktiki cəhətlərinə daha çox fikir verən Düi onun sistemləşdirilməsində elmi cəhətləri unutmuş, möhkəm məntiqi ardıcıllıq və əlaqə yarada bilməmişdir.

Bir sıra alimlər Düinin təsnifatının elmi cəhətdən zəifliyini onun kitabxana sahəsində təcrübəsinin azlığı ilə izah edirlər. Həmçinin qeyd edirlər ki, o, hələ gənc olduğu üçün özündən əvvəlki təsnifat sistemlərinə tənqidi yanaşa bilməmişdir. Ona görə də Düinin təsnifatında bir sıra nöqsanlar mövcuddur:

1. Elmlər arasında məntiqi ardıcıllıq yoxdur. Qohum elmlər biribirindən ayrı düşmüşdür. Məsələn: filologiya ədəbiyyatdan, tarix ictimai elmlərdən ayrı verilmişdir.

2. Bəzi iri bölmələr 10 şöbə daxilində özünə yer tuta bilməmişdir. Bunlara tibb, kənd təsərrüfatı və texnika aiddir ki, onlar 6-cı şöbədə verilmişdir; siyasət, hüquq, pedaqoqika 3-cü şöbədə verilmişdir; hərbi iş yarım şöbədə deyil, yarım bölmədə özünə yer tara bilmişdir – 335. Bu onunla əlaqələndirilir ki, Düi 10 şöbə daxilindən kənara çıxa bilməmişdir.

3. Təsnifatın 10 şöbə daxilində verilməsi bəzi şöbələrin həddən artıq yüklənməsinə səbəb olurdu ki, bunun nəticəsində qeyri-bərabərllik əmələ gəlirdi.

XIX əsrin məşhur Amerika təsnifatçılarından biri də Çarlz Ketterdir (1837-1903). (4,191) Əlifba, sistemli və predmet kataloqlarının tərtibi metodikasına əsaslanan, onların prinsiplərini müəyyənləşdirən Ç.Ketter öz təsnifatı üzərində xeyli çalışmışdır. O, Boston Ateneumu kitabxanasında uzun müddət kitabxanaçı işləmiş, 1877-ci ildə fondun yenidən təşklində iştirak etmişdir. Ketter fondun təhkimli düzülüşündən sistemli düzülüşə keçmək üçün M.Dyünin "Onluq təsnifat"ından istifadə etmək qərarına gəlir. Lakin sonradan o özünün bu fikrindən əl çəkir və göstərir ki, onluq təsnifat heç də bütün fondun istər məzmun və istərsə də bölmələrini əhatə edə bilməz. Bu məqsədlə o, 1879-cu ildə bir məqalə çap etdirir. Burada Ketter öz yeni genişləndirilmiş təsnifatının əsas sxemini verir. 1882-ci ildə çap olunan "Boston Ateneumu" kitabçasında o yenidən bu məsəyə qayıdır. Ketterin təsnifatı bir neçə dəfə təkrar çap olunmüşdur (1891, 1893 və s.). Onun sxemində əsas şöbələriin yerləşdirilməsi ardıcıllığı daha məntiqidir. Məsələn, "Tarix", "İctimai elmlər","Dilçilik və ədəbiyyat" və digər şöbələr biribirinə yaxınlaşdırılmıdır. Təsnifat müxtəlif miqyaslı kitabxanalar üçün nəzərdə tutulmuşdu.

Təsniffatın ilk variantı 1000 cild kitabı olan kitabxana üçün, 2-ci variantı 2000 cild kitabı olan kitabxana üçün və nəhayət 7-ci variantı 10 milyon fondu olan kitabxana üçün nəzərdə tutulmuşdu. Ketter təsnifatını cəmi bir səhifədə yerləşdirərək cəmi 11 bölgüdən ibarət olmuşdur. Yeddinci variant isə 800 səhifəlik bir əsər idi. Onun birinci sxemində 8, ikincidə 15, üçüncüdə 22, yeddincidə 26 şöbə verilmişdir.

Həmin təsnifatın tərtibində Ketterin məqsədi müxtəlif ədəbiyyat fonduna malik olan Amerikanın bütün kütləvi kitabxanaları üçün vahid təsnifat cədvəli yaratmaq idi. Tərtibat cəhətdən bütün cxemlər nümunəvi idi. 6-cı cxem üçün əlifba-predmet göstəricisi də tərtib edilmişdir.Əsas şöbələr latın hərhləri ilə işarə edilmişdir. Ketterin təsnifatının 3-cü cxeminin əsas bölmələri bunlardır:

A Ümumi şöbə Q Tibb
B Fəlsəfə R Tətbiqi elmlər və texnika bütünlükdə
E Tərvümeyi-halS Mühəndis işi. İnşaat. Nəqliyyat
F Tarix T İstehsalat və sənətkarlıq
G Coğrafiya və səyahət U Hərbi incəsənət
H İctimai elmlər bütünlükdə V Əyləncəli incəsənət
W Zərif incəsənət
İ Sosiologiya X Dilçilik
J Siyasət V Ədəbiyyat
K Hüquq VF Bədii ədəbiyyat
L Dəqiq elmlər Z Kitabxanaşünslıq
M Təbiətşünaslıq tarixi

Təsnifatın ümumi qruplaşdırılması, şöbələrin ardıcıllığı öz müsbət cəhətləri ilə fərqlənirdi. Məsələn, tarix, coğrafiya bir qədər irəli çəkilmiş və digər ictimai elmlərə yaxınlaşdırılmışdır. Dilçilik geri çəkilərək ədəbiyyata yaxınlaşdırılmışdı. Hərbi iş ictimai elmlərdən ayrılaraq tətbiqi elmlərə gətirilmişdi. Ümumiyyətlə, texnika şöbəsinə dağ işi və metallurgiya, energetika, kimyəvi texnologiya və s. aiddir.

Kitabxanaşünaslıq bölməsi diqqəti çox cəlb edir. Burada kitab istehsalına aid nə varsa hamısı bir yerdə toplanmışdır. Məsələn: nəşriyyat işi və kitab ticarəti, kitabxana işi və biblioqrafiya.

Düinin təsnifatından fərqli olaraq Ketterin təsnifatında müvafiq hərflər artırılmaqla daha kiçik yarımbölmələr yaradıla bilərdi. Bundan başqa

genişləndirilmiş təsnifatda standart forma bölgüləri kimi qəbul edilmiş müəyyən rəqəmlər, standart coğrafi bölgüsünü ifadə edən rəqəmlər, müəllif işarəsi təsnifatın onun üstün cəhətlərini və müsbət xüsusiyyətlərini göstərir.

Ketter özündən əvvəlki müəlliflərdən fərqli olaraq ilk dəfə öz təsnifatında standart forma bölgülərdən istifadə etmişdir. Ketterin təsnifatından forma (tipik) bölgüləri aşağıdakılardır:

1. Nəzəriyyə
2. Öyrənmə
3. Biblioqrafiya
4. Tarix
5. Lüğətlər. Ensiklopediyalar
6. Rəhbərlik. Cədvəllər
7. Dövrü nəşrlər
8. Cəmiyyətlər
9. Kolleksiyalar

Ketterin təsnifata gətirdiyi yeniliklərdən biri də rəqəm indeksləri ilə işarə edilən coğrafi cədvəl idi. Coğrafi cədvəl təsnifatın əsas hissəsindən birini təşkil edirdi. Bu cədvəl ayrıca sxemdə verilərək sistemi ağırlaşdırmırdı. Cədvəldə hərf və rəqəmlərdəm istifadə edilirdi. Burada ümumi anlayışlar – hərflə, coğrafi anlayışlar rəqəmlə işarələnirdi. Məsələn: Ğ-tarix, 45 İngiltərə, yəni Ğ 45-İngiltərənin tarixi; O-coğrafiya olduqda, O 45-İngiltərənin coğrafiyası olacaqdır və s.

Ketterin cədvəlində əsas şöbələr hərf, forma və coğrafi bölgülər isə rəqəmlə işarələnirdi.

Düinin təsnifatından fərqli olaraq Ketterin təsnifatında ardıcıllıq gözlənilmirdi ki, bu da onun daha xırda şöbələrə bölünməsinə imkan verirdi.

Təsnifləşdirmə və indeksləşdirmə məsələsinə gəldikdə Ketter qeyd edirdi ki, nəzəri cəhətdən bunlar ayrı-ayrılıqda başa düşülürsə də praktiki cəhətdən bunların arasında möhkəm əlaqə vardır. Ona görə də o öz sistemi üçün işarələri sadə, qısa və elastik adlandırıdı.

Onluq metodu ən sadə metod adlandıraraq Ketter qeyd edirdi ki, kitabxana təsnifatı üçün həmin metod ayağa geyilməmiş ayaqqabıya bənzəyir. Bəziləri belə qeyd edirdilər ki, rəqəmlər hərflərdən daha yaxşı yadda qalır. Ketter bunların əleyhinə çıxaraq qeyd edirdi ki, dostların insialları onların ünvanlarından daha yaxşı yadda qalır.

Ketterin təsnifatının köhnəlməsinə baxmayaraq o öz dövründə böyük şöhrət qazanmışdır. Düi və Ketterin təsnifatları bir dövrə təsadüf edir.

Bunların hər ikisinin öz dövrü üçün əhəmiyyəti vardır. Düinin təsnifatı süni cəhətdən tərtib olunmuş təsnifat idi. Ketterin təsnifatı isə məhz elmlərin təsnifləşdirilməsinə əsaslanan təsnifat idi.

Qeyd etmək lazımdır ki, hər iki təsnifat həm Düinin, həm də Ç.Ketterin təsnifatları yeni bir yolun, vahid beynəlxalq təsnifatın yaranması yolunun əsasını qoymuşdur. Məhz buna görə də XIX əsrin sonralarından başlayaraq dünyanın hər yerində olduğu kimi, Qərbi Avropada da vahid təsnifat sisteminin yaradılması məsələsinin zəruriliyi açıq-aşkar özünü göstərirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaranan böyük təsnifat sxemlərindən biri ABŞ-ın Konqres kitabxanasının təsnifatıdır.(5,s.119) 1800-ci ildə əsası qoyulan bu kitabxananın fondu qısa müddət ərzində zənginləşir. Buna görə də Konqres kitabxanasında ədəbiyyatın sistemləşdirilməsi ciddi bir məsələ kimi qarşıda durur. Bu məqsədlə təşkil olunun kitabxana təsnifatı komissiyasına Çarlz Martel rəhbərlik edir.

Çarlz Katterin tamamlanmış 7-ci təsnifatı əsasında yaranan ABŞ-ın Konqress kitabxanasının təsnifatı 1901-ci ildən başlayaraq ayrı-ayrı bilik sahələri üzrə nəşr olunurdu. Ümumiyyətlə, təsnifat 28 cilddən və 6000 səhifədən ibarət olmuşdur.

Konqress kitabxanası sxemində əsas şöbələr latın əlifbasının böyük hərfləri ilə işarə edilmişdir. Bu sxemdə də şöbə indeksinə latın əlifbasının ikinci bölmə hərflərini, habelə müxtəlif rəqəmlər əlavə etməklə şöbələr daxilində bölmə və yarımbölmələr əmələ gətirilmişdir. Məsələn, T – texnika, TE – yol işi, TH.123 – inşaatın bölmə daxilində yer sırası və s.

Konqress kitabxanasının təsnifatının əsas şöbələri bunlardır.

A Ümumi şöbə. Poliqrafiya M Musiqi
B Fəlsəfə N İncəsənət
C Tarix. Köməkçi fənnlər P Dilçilik
D Tarix və ölkəşünaslıq Q Dəqiq elmlər
E Amerika və ABŞ R Tibb
F ABŞ (ölkəşünaslıq) S Aqrar mədəniyyət
G Coğrafiya. Antropologiya T Texnologiya
H Coğrafi elmlər və iqtisadi U Hərbi iş
elmlər
Y Dənizçilik işi
J Siyasi elmlər Z Biblioqrafiya və
K Hüquq. Xalq maarifi kitabxanaşünaslıq

Gələcəkdə cədvəli genişləndirmək məqsədi ilə beş hərf (İ, O, W, X, Y) rezerv saxlanılmışdır.

Burada ümumi şöbə, ictimai elmlər, tətbiqi elmlər (tibb, kənd təsərrüfatı, texnika, hərbi iş və dənizçilik işi) əsas cərgədə verilmişdir. Biblioqrafiya və kitabxanaşünaslıq isə Ketterin cədvəlində olduğu kimi ümumi şöbədən çıxarılaraq cərgənin axırında verilmişdir. Tarix və coğrafiya digər ictimai elmlərlə birləşdirilmiş, dilçilik ədəbiyyatla bir yerdə verilmişdir. Özündən əvvəlki sistemlərdən fərqli olaraq psixologiya fəlsəfədə deyil, təbii elmlərə daxil edilmişdir. Bu təsnifatda şöbələr arasında bərabərliyə daha çox yer verilmişdir. Kitabxananın ədəbiyyat fonduna uyğun olaraq ictimai elmlərə daha çox yer verilmişdir, təbii elmlər isə 1-ci şöbədə öz əksini tapmışdır

Cədvəlin üstün cəhətlərindən biri odur ki, burada coğrafi və forma təyinedicileri cədvəldə ayrıca deyil, məhz bu bölmələr daxilində verilmişdir.

Burada əsas şöbələr latın, yarımşöbələr isə qarışıq latın əlifbası ilə işarələnirdi. Məsələn, Q – elm, QA – riyaziyyat, QB – astronomiya, QC – fizika və s. Sonrakı rubrikalar üçün isə rəqəm işarələrindən istifadə olunurdu (0001-9999 qədər).

Şöbələr daxilində ədəbiyyat xronoloji prinsipə əsasən əlifba sırası ilə düzülürdü.

Cədvəlin xarakterik xüsusiyyətlərindən biri də odur ki, kitablar bir çox hallarda bilik sahələri üzrə deyil ölkəşünaslıq əlamətlərinə görə qruplaşdırılırdı. Məsələn: Yapon dili haqqında və ya onun tarixi haqqında ədəbiyyat dilçilik və yaxud tarix şöbəsində əks etdirilməyərək ümumiyyətlə bu ölkə haqqında olan ədəbiyyat kompleksində əks etdirilir.

Qeyd etmək lazımdır ki, Konqress kitabxanasının təsnifatı Martenin dövründə və sonra da həmin ktabxanada müvəffəqiyyətlə tətbiq olunsa da universal onluq təsnifat yarandıqdan sonra o yavaş-yavaş aradan çıxarılır.

Bu dövrdə yaranan təsnifatlardan biri də ingilis kitabxanaşünası Ceyms Braunun (1862-1914) təsnifatıdır.(5,s.123) Onun "Predmet" təsnifatı 1906-cı ildə nəşr edilmişdir. Bu təsnifat Braundan əvvəlki (Düi, Ketter) və ondan sonrakı (Bliss, Ranqanatan) təsnifat sxemləri arasında özünə layiqli bir yer tuta bilmişdir. Onun sxemində elmi öyrənmə obyekti 4 böyük şöbədə qruplaşdırılır.

1. Materiya və qüvvə
2. Həyat
3. İdrak
4. Yaddaş

Burada qeyri-üzvi təbiətdən insana və cəmiyyətə doğru təkamül nəzərdə tutulur. O qeyri-üzvi təbiət haqqında elmlərə "materiya" haqqında elmlər kimi baxır, insan və cəmiyyət haqqında elmləri isə insan idrakı ilə əlaqələndirirdi.

Bu təsnifatın əsas xüsusiyyətlərindən biri odur ki, burada nəzəri elmlərlə tətbiqi elmlər arasında boşluq aradan götürülmüşdü. Braun bir predmet haqqında bütün məlumatı bir kompleks altında cəmləşdirməyə çalışırdı. Məsələn, işıq fizikası şöbəsindən sonra işıqlandırma texnikası gəlir və beləliklə bu iş davam etdirilir. Bunun nəticəsində "predmet kompleksi" yaradılmışdır. Heç təsadüfi deyildir ki, onun təsnifatı da "predmet" təsnifatı adlandırılmışdır.

Lakin qeyd etmək lazımdır ki, elmlərin belə qruplaşdırılması bəzən mexaniki birləşmələr nəticəsində bir sıra elmlər ayrı-ayrı şöbələrdə yerləşdirilirdi. Məsələn, texnika şöbəsini müstəqillikdən çıxarıb təbiəşünaslığın ayrı-ayrı bölmələrinə aid edərək Braun texniki fənnlərin eyni zamanda nəzəri elmlərdən asılılığını unudurdu.

Braunun təsnifatında bəzi şöbələrin daha uğurlu olduğunu qeyd etmək olar. Məsələn: onun təsnifatında dilçiliklə ədəbiyyatşünaslıq birləşdirilmişdir, bədən tərbiyəsi və idman əvvəllər incəsənətə aid olduğu halda Braunun təsnifatında tibbə yaxınlaşdırılmışdır, kitabxanaşünaslıq və biblioqrafiya ümumi şöbədən çıxarılmışdır.

Braunun təsnifatının əsas şöbələri latın hərfləri ilə işarələnirdi, daxildə 3 rəqəmli işarələrdən istifadə edilirdi. Onun təsnifatının əsas şöbələri aşağıdakılardır:

A Ümumi
B-D Fizika elmləri
E-F Biologiya elmləri
G-H Etnologiya və tibb
İ - İqtisadi biologiya
J-K Fəlsəfə və din
L- İctimai və siyasi elmlər
M - Dilçilik
N - Bədii ədəbiyyat
O - W Tarix, coğrafiya
X Tərcümeyi-hal

Şöbə daxilində isə ədəbiyyat belə qruplaşdırılırdı. Məsələn, -A 100 Tərbiyə, -A 300 Məntiq, -A 400 Riyaziyyat və s.

Hər şöbənin daxilində onluq prinsipi deyil, müstəqil nömrələnmə prinsipi irəli sürülürdü. Əlifbaya uyğun olaraq 24 hərf işarəsindən istifadə olunurdu ki, bunlara əsasən lazım gəldikdə 24 min indeksdən istifadə etmək olardı.

Braun öz təsnifatına köməkçi cədvəllər (müəllif, əlifba) tərtib etmişdir. O öz cədvəlində həmçinin əlifba-predmet göstəricisi də tərtib etmişdir.

Qeyd etmək lazımdır ki, bu təsnifat kitabların rəfdə bir yerdə düzülüşündə böyük əhəmiyyətə malik olmuş və İngiltərənin kitabxanasında uzun müddət tətbiq edilmişdir.

XIX əsrdə kitabların sistemləşdirilməsinə Nyu-York şəhər kollecinin kitabxanaçısı, ilk elmşünaslardan biri Q.Blissin (1870-1955) yeni çoxaspektli təsnifatının böyük əhəmiyyəti olmuşdur.(1,s.107) Onun trelogiyası Ketter təsnifatının davamı kimi fundamental tədqiqat əsəri hesab olunur. Blissin təsnifatı elmi, tarixi və tətbiqi xarakter daşıyır. Onun təsnifatının əsasını alternativ prinsip təşkl edir. Belə ki, Bliss müəyyən kitabxana şəraitində nəzərdən keçirilmiş bir neçə sxemdən ən əlverişlilərindən birini şöbə üçün seçməyə tövsiyə edirdi. Məsələn, psixologiya şöbəsi ya fəlsəfə, ya da antropologiya ilə ictimai elmlər arasından müstəqil şöbə kimi verilə bilər, yaxud texnika şöbəsi fizika bölgüləri sırasında, habelə tətbiqi elmlər şöbəsində yerləşdirilə bilər.

Blissin təsnifatının ümumi qruluşu belədir:

A Fəlsəfə və ümumi elmlər. Məntiq və riyaziyyat. Statistika
B Fizika
C Kimya
D Astronomiya
E Biologiya
F Botanika
G Zoologiya
H Ümumi və fiziki antropologiya (tibb və idman daxil olmaqla)
İ Psixologiya
J Pedaqoqika
K Sosiologiya. Etnologiya və antropo-coğrafiya.
L Ümumi tarix
M Avropa, amerikanın tarixi, coğrafiyası, etnoqrafiyası
N Amerika
O Avstraliya, Asiya, Afrika
P Din. İlahiyyat. Etika

Q Tətbiqi sosial elmlər
R Siyasi elmlər (beynəlxalq əlaqələr, siyasi partiyalar da daxil olmaqla)
S Hüquq və qanunçuluq
T İqtisadiyyat (maliyyə, ticarət, nəqliyyat da daxil olmaqla)
Ü Tətbiqi elmlər. Sənaye. Kənd təsərrüfatı. Nəqliyyat. İnşaat
V İncəsənət. Musiqi. Balet. Oyunlar
W Ümumi filologiya
X Hind-Avropa filologiyası. Dil və ədəbiyyat (ingilis dili istisna olmaqla)
Y İngilis dili və ədəbiyyat
Z Kitabxanaşünaslıq

Göründüyü kimi, Blissin təsnifatı 26 şöbədən ibarətdir. Bu təsnifat öz elastikliyi ilə fərqlənir. Burada hər şöbənin əvvəlində ədəbiyyatın formasına görə rəqəm işarələri verilmişdir. Məsələn:

1. Oxu zalının əsərləri
2. Kitabşünaslıq və biblioqrafiya
3. Xüsusi kolleksiyalar
4. Şöbə və filialların fondu
5. İdarə sənədləri və arxivlər
6. Dövrü nəşrlər
7. Qarışıq materiallar
8. Yerli əhəmiyyətli fond
9. Köhnəlmiş kitablar

Məsələn: əgər fizika B, dövrü nəşrlər 6 indeksi ilə işarələnirdisə, onda fizikaya dair dövrü nəşrlər B 6 indeksini alırdı.

Bliss öz təsnifatı üçün bir sıra köməkçi cədvəllər tərtib etmişdir: ümumi bölgülər (hər şöbə üçün), coğrafi və analitik bölgülər müəyyən şöbələr nəzərdə tutulmuşdur.

Cədvəlin indeksləşməsi diqqəti xüsusilə cəlb edir. Burada 25 hərf və 9 rəqəmdən istifadə edilirdi.

Blissin təsnifatının əsas xüsusiyyətlərindən biri o idi ki, o təsnifata elmi cəhətdən yanaşır və formalizmin əleyhinə çıxırdı.

Xarici ölkə kitabxanaşünaslarından təsnifat sahəsində fəaliyyət göstərən müəlliflərdən biri də Hindistan kitabxanaşünası və riyaziyyatçısı Ranqanatandır (1892-1972).(4,310) Bir sıra universitet kitabxanalarının direktoru olmuş Ranqanatan eyni zamanda özünün təşkil etdiyi kitabxanaçılıq məktəbinə və kitabxanaçılıq jurnalına rəhbərlik etmişdir. O, həmçinin Hindistan Kitabxanacılıq Cəmiyyətinin Prezidenti olmuşdur. Ranqanatan özü-

nün fəaliyyəti və elmi əsərləri ilə də məşhur olmuşdur. O, kitabxana və biblioqrafiya, sənədləşdirməyə dair 50-dən çox kitabın, 1500 məqalənin müəllifidir. Onun "Kitabxana aləmində 5 qanun" (1931) əsəri daha məşhurdur. Burada kitabxanaşünaslığın elmi fənn kimi əsas prinsipləri, kitabxanaların ictimai rolu, təsnifatın nəzəri məsələləri geniş şərh olunur. Onun 5 qanunu bunlardır:

1. Kitab istifadə üçündür
2. Hər oxucuya öz kitabı
3. Kitabı öz oxucusuna
4. Oxucu vaxtının qorunması
5. Kitabxana inkişafda olan orqanizmdir

Onun çoxsahəli "İki nöqtə vasitəsilə təsnifat" əsəri ilk dəfə 1933-cü ildə çap olunmuşdur. Ranqanatan UOT-da istifadə edilən indekslərin kombinasiyalı qurulması metodunu daha da inkişaf etdirir.

Təsnifləşdirmə üçün başlıca obyekt kitabın məzmunu sonra isə onu dəqiqləşdirən digər əlamətlər götürülür. Anlayışlar arasında əlaqə və fərqləri bildirmək üçün iki nöqtədən (:) istifadə edilir.

Təsnifat təkcə kitabları təsnifləşdirmək üçün deyil, həmçinin məqalə və digər nəşrlərin təsnifləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

Ranqanatanın qurduğu cədvəllər birinci nəşrdə xarakteristika, sonralar "fasetlər" adlandırılır. Məsələn, bitkiçilik şöbəsində fasetlər bitkinin növü, əlaməti, tərkib hissəsi, kənd təsərrüfatı bitkilərinin becərilməsi, coğrafi əlaməti üzrə müəyyənləşdirilir. Kimya şöbəsində kimyanın əsas problemləri, maddənin əlamətləri, elementlərin birləşdirilməsi və s. əsas götürülür.

Fasetlərin (yəni predmetə, yaxud məsələyə müəyyən bir cəhətdən baxmaq) bölgüləri hərf və rəqəm işarələrinə malikdir. Məsələn: -təbabət L, 45 ağ ciyər, 42 infeksiya xəstəliyi. İndeks belə qurulur. L 45 : 42 Yəni ağ ciyərin infeksion xəstəliyi.

Ranqanatanın təsnifat sxemi istifadə üçün mürəkkəb olduğundan geniş yayıla bilməmişdir. O sonralar da faset təsnifatı sahəsindəki fəaliyyətini daha da inkişaf etdirmişdir. Onun faset formuluna görə hər bir əsər 5 aspektdən gözdən keçirilməlidir. Konkret anlayış (bilik ahəsi, predmet, sual), maddə (maretial), enerji (proses, hərəkət), sahə (coğrafi aspekt), vaxt (dövr il)

Faset təsnifatı kitabxana fondunun məzmununu açmağa kömək edir, təsnifat sxemini qanunauyğun qurulmasına imkan yardır.

Beləliklə, aydın olur ki, M.Dyünin onluq təsnifatında 10 şöbə, Ç.Ketterin təsnifatında 26 şöbə, ABŞ konqress kitabxanasının təsnifatında 34 şöbə,

C.Braunun təsnifatında 11 şöbə, H.Blissin təsnifatında 26 şöbə, Ş.Ranqanatananın faset təsnifatında isə 36 şöbə olmuşdur.

ƏDƏBİYYAT:

1.Kitabxanaşünaslıq :(Kitabxana kataloqları): Dəs vəsaiti /A.Xələfovun red ilə.- B.: BDU nəşr-tı, 1996.-210 s.
2.Mustafayeva, S.M. Müasir təsnitat sistemləri və onların tətbiqi //Kitabxanaşünaslıq və biblioqrafiya.- 2012.- N2.- S.30-41.
3.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.-Т.1. -400 с.
4.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.- Т.2.1959.-563 с.
5.Эйдельман, Б.Ю. Библиотечная классификация и систематический каталог: Учебник/ Б.Ю. Эйдельман.-М.: Книга, 1977.-312 с.

С.М.Мустафаева,
С.Гаджиева

РАЗВИТИЕ ТЕОРИИ БИБЛИОТЕЧНОЙ КЛАССИФИКАЦИИ

Р Е З Ю МЕ

В статье освещаются развитие теории библиотечной классификации. Широко характеризуются классифации книг за рубежом от первых библиотек до XIX века, классификационные системы крупнейших библиотек, системы университетских библиотек. В данной статье также говорится о классификации книг в России, характеризуются классификации различных библиотечных систем.

S.M.Mustafayeva,
S.Hajiyeva

DEVELOPMENT OF THE THEORY OF LIBRARY CLASSIFICATION

SUMMARY

The paper highlights the development of the theory of library classification. Widely characterized classification of books abroad from the first libraries to the XIX century, the classification systems of the largest libraries of university libraries. This article also describes the classification of books in Russia, characterized by the classification of different library systems.

Nadir İSMAYILOV
dosent, "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri

Tünzalə NƏSİBOVA
"Biblioqrafiyaşünaslıq" kafedrasının magistrantı

KİTABXANADA OXUCULARA SORAQ-BİBLİOQRAFİYA XİDMƏTİNİN TƏŞKİLİNDƏ İKT-NİN YERİ

Açar sözlər: *Kitabxana, SBX, İKT, elektron, biblioqrafik xidmət, kitab, elektron kitabxana, metodik xidmət, dissertasiya, cəmiyyət, elektron kataloq, proqram*

Ключевые слова: *Библиотека, СБО, ИКТ, электронные, библиографические услуги, книги, электронная библиотека, сервисные руководства, тезис, общество, электронный каталог, программное обеспечение*

Keywords: *Library, SBO, ICT,electronic, bibliographic services, books, electronic library, service manuals, thesis, society, electronic catalog, the software*

Son onillikdə informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilməsi, informasiya texnologiyalarının sürətli inkişafı yeni şəraitin yaranmasına səbəb oldu.

İnformasiya və telekommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir mərhələdə çoxları kitabxanaların gələcəkdə daha mövcud olmayacağını proqnozlaşdırırlar. Lakin onlar səhv edirlər, çünki dünya təcrübəsi təsdiq etmişdir ki, kitabxanalarda yeni xidmət formalarına keçmək üçün yeganə və real baza – yüksək telekommunikasiya və informasiya texnologiyalarıdır. Buna görə də müasir kitabxanalar, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; AMEA-nın Mərkəzi Elmi Kitabxanası və burada çalışan mütəxəssislər cəmiyyətdə gedən bu dəyişikliklərə nəinki biganə qalmır, həmin proseslərdə fəal iştirak etməklə yüksək nailiyyətlər əldə edirlər. [3.s.24]

Bu baxımdan M.F.Axundov adına Milli Kitabxananın "Elektron informasiya xidməti" şöbəsinin fəaliyyəti olduqca diqqətə layiqdir.

Fəaliyyətə başladığı 2006-cı ildə şöbə ölkə və dünya oxucularına qlobal şəbəkə vasitəsilə kitabxananın fondu haqqında məlumatların çatdırması üçün elektron kataloqun hazırlanması işinə başlamışdır. Bunun üçün Avrasiya Fondu, Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu və Kitabxanaçıların İnformasiya Resurslarının Təlim Mərkəzinin xüsusi layihəsi çərçivəsində ABŞ-ın VTLS VİRTUA proqramı alınmış və bu proqram MARC 21 formatında tərtib edilməyə başlamışdır. Azərbaycanda kitabxana proseslərini dolğun şəkildə realizə edən və İnternet vasitəsilə ölkəyə və dünyaya yayımlanan bu proqram oxucularını kitabxananın elektron resurslarına uzaq məsafədən girişini korporativ şəbəkə ilə həyata keçirir.[5.s 20]

Bu gün elektron kitabxanaların əhəmiyyəti olduqca artmaqdadır. Əsası 2002-ci ildə qoyulmuş Milli Kitabxanamızın elektron kitabxanası da 2006-cı ilin fevral ayından operativ fəaliyyətə başlamışdır. Elektron kitabxana müəllif hüquqlarını qoruyub saxlamaqla, milli ədəbiyyat nümunələrini elektron daşıyıcılara köçürməklə zənginləşir. Eyni zamanda elektron kitabxanaya müəllifin öz arzusu ilə onun təqdim etdiyi əsərin elektron versiyası da daxil edilir. Saytda kitablar həm əlifba sırası üzrə, həm də kitabın aid olduğu elm sahəsi üzrə yerləşdirilir. Elektron kitabxananın yaradılması və genişləndirilməsi işi ilə kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində əsaslı dəyişikliklər edilir. [4.s.12]

M.F.Axundov adına Milli Kitabxanada da biblioqrafik xidmət prosesinin modernləşdirilməsi, bütün işlərin Avropa standartlarına uyğun olaraq yenidən qurulması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, elektron kataloq və elektron kitabxananın məlumat bazasının genişləndirilməsi sahəsində öz fəaliyyətini dövrün tələbləri səviyyəsində qurur.

2008-ci ilin mart ayından etibarən kitabxananın saytında "virtual metodik xidmət" bölməsi yaradılmışdır və ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi müxtəlif sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və bir saat, yaxud yarım saat, yarım gün ərzində öz sorğularına cavab ala bilirlər.

Saytda Elektron kitabxana sahəsində "metodik xidmət" bölməsi yaradılmışdır ki, kitabxana işçiləri, oxucular kitabxananın elektron poçt ünvanına (metodanl@yahoo.com) onları maraqlandıran suallarla müraciət edir və kitabxananın əməkdaşı tərəfindən cavablandırılır. 2008-ci ilin sentyabr ayında Milli Kitabxana oxucularını növbəti dəfə sevindirdi. Belə ki, kitabxanada Rusiya Dövlət Kitabxanasının elektron dissertasiya fondunun vitual oxu zalının açılışı olmuşdur ki, bununla da oxucular Rusiyada müdafiə olunmuş dissertasiyaların elektron versiyası ilə tanış olub, ondan istifadə etmək imkanı əldə edirlər. Bu böyük bir nailiyyətdir. Belə ki, gənc tədqiqatçılarımız artıq təkcə Azərbaycanda deyil, Rusiyada da müdafiə olunmuş dissertasiyalarla tanış olur, gələcək fəaliyyətlərində dünya təcrübəsindən istifadə etməyə nail olurlar. Beləliklə, gənclərimizin elmi və təcrübi biliklərinin artmasına, dünya standartlarına uyğun mütəxəssislər kimi yetişməsinə zəmin yaranır. Hazırda Azərbaycanda müdafiə olunmuş dissertasiyaların elektron variantının yaradılması işi həyata keçirilir. Digər tərəfdən kitabxana 2009-cu ilin fevral ayından "Açıq Cəmiyyət İnstitutu" və EBSCO Publishing kompaniyasının müştərək layihəsi olan "EİFL Direkt" layihəsinə qoşularaq müxtəlif elm sahələrinə aid ingilis dilində jurnal, qəzet və xəbərlər toplusunun 7000-ə qədər tammətnli variantını İnternet vasitəsilə onlayn rejimində əldə etmək imkanına malik olmuşdur ki, bu da oxuculara xidmət işində böyük bir nailiyyətdir [7].

AMEA-nın Mərkəzi Elmi Kitabxanası da son illər bu mühüm problemə–kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması məsələlərinə ciddi diqqət yetirmiş, Azərbaycanda və respublikadan kənarda keçirilmiş elmi konfrans, seminar və müşavirələrdə iştirak etməklə, Qərb ölkələrinin, Rusiya və MDB ölkələrinin kitabxanalarının qabaqcıl iş təcrübələrini öyrənmiş və onlara əsaslanaraq yüksək texnologiyaların tətbiq olunmasında müəyyən işlər görmüşdür.

Kitabxana-biblioqrafiya proseslərinin avomatlaşdırılmasında yeni texnologiyaları tətbiq etmiş kitabxanada ənənəvi kataloq və kartotekaların elektron formaya keçirilməsinə imkan yaradılmış və nəticədə biblioqrafların apardığı axtarış zamanı aksent ənənəvi informasiya mənbələri və texnologiyalardan tədricən elektron mənbəyə keçirilmişdir. Həm lokal , həm inteqrasiyalı kompüter şəbəkələrinin, həm də qlobal İnternet şəbəkəsinin informasiya ehtiyatlarından, həmçinin öz ehtiyatlarından (məlumat bazalarından) istifadə etməklə oxuculara operativ və yüksək keyfiyyətli biblioqrafik xidmət göstərilməsində onlar üçün geniş imkanlar yaradılmışdır. Bütövlükdə demək olar ki, kitabxanalarda kompüter texnologiyalarının tətbiqi soraq-biblioqrafik xidmətinin səviyyəsini artırmaq və operativliyini təmin etməklə yanaşı, mövcud texnologiyaları dərindən dəyişmiş, digər əməliyyatların çoxunu aradan qaldırmış və sonda demək olar ki, «oxucu- kitabxanaçı», «oxucu-biblioqraf» münasibətləri sistemini tam mənada dəyişmişdir [1.s.15]

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasını tətbiq edən kitabxanalar ilk növbədə Elektron kataloqun (EK) yaradılmasından işə

başlayırlar, biblioqrafların və oxucuların ondan istifadəsini təşkil edirlər. Qeyd olunduğu kimi, bu işdə kitabxanalar dünya təcrübələrini öyrənərək və onlara əsaslanaraq, elektron kataloqun yaradılmasının mövcud olan muxtəlif yolların ən optimal və əlverişlisini seçib, sənədlərin EK daxil etmək qaydalarını muəyyən edirlər və ümumi metodikasını işləyib hazırlayırlar. Bundan sonra kitabxanaçıların və biblioqrafların avtomatlaşdırılmış işçi yerləri (AİY) müəyyən edilir: «Komplektləşdirici», «Kataloqlaşdırıcı», «Abonoment», «Biblioqraf», «Oxucular», «Bazalar», «İnzibatçı», «Mühafizə», «Axtarış» və s. Ən murəkkəb, məsuliyyətli və gərgin əmək tələb edən «Biblioqraf» AİY-dir ki, burada yüksək səviyyəli ixtisasçılardan ibarət qrup işləyir. Onlar elektron kataloqun formalaşdırılması üçün qəbul edilmiş standartlara uygun biblioqrafik təsvirlər hazırlayır, yeni ədəbiyyatın təsvirini təmin edir, elektron kataloqu redaktə edir və retrokonversiyanı həyata keçirirlər. Bunlarla yanaşı həmin mutəxəssislər oxuculara EK-un məlumat bazalarının və qeyd etdiyimiz müxtəlif informasiya mənbələrinin əsasında biblioqrafik xidmət də göstərirlər [1.s.17]

AMEA-nın kitabxanalar şəbəkəsinin biblioqrafik informasiya mərkəzi sayılan Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin əsas isiqamətlərindan biri də qeyd olunduğu kimi soraq-biblioqrafiya xidmətidir. İllərlə toplanılmış ənənəvi iş təcrübəsi kitabxanada bu sahənin formalaşdırılmasına geniş imkan yaratmışdır. Bu xidmətin əsas bazaları kitabxananın elmi əsaslarla təşkil edilmiş soraq-biblioqrafiya aparatı AMEA-nın kitabxanalar şəbəkəsinin zəngin ədəbiyyat fondları olmuşdur.

2003-cü ilin əvvəlində «Mərkəzi Elmi Kitabxanada kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planı»nı hazırlamışdır və hazırda bu planın əsasında bir neçə istiqamətdə iş aparır və müəyyən nəticələr əldə edir [2.s.7]

Bunlardan:

-Elektron kataloqun yaradılması istiqamətində- «Gələcək naminə» təşkilatı ilə MEK-nın birgə layihə çərçivəsində nəzərdə tutulmuş Kitabxananın azərbaycan dilində ədəbiyyatının elektron kataloqunun yaradılması üzrə işə bişlanmışdır. Kitabxana dünyanın irihəcimli EBSCO, İNTAS, İOP, (İnstitute of Physics- Fizika İnstitutu), APS(American Physical Society-America Fizika Cəmiyyəti)informasiya bazalarından, WEB of knowledge (Bilik şöbəsi), ASPB (Alberta Society of Professional Biologists- professional bioloqların Albert cəmiyyəti) bazalarının resurslarından istifadə etmək imkanını da əldə etmişdir. Beləliklə, internet vastəsilə 570 mindən artıq elektron nəşrlər, elmi jurnallar1112 oxucuya təqdim edib. Internetdən istifadə edərək, müvafik mövzular üzrə axtarış aparmaqda, elmi mənbələri araşdırmaqda, dünya kitabxanaları ilə kommunikasiyalar yaratmaqda 435 oxucuya yardım edilib.



-Oxuculara kitabxana xidməti istiqamətində- Xüsusi proqram vasitəsilə oxucuların elektron kartotekasının hazırlanması üzrə iş başlanmışdır. Bu proqram abonentlərin (Kitabxanalararası abonoment daxil olmaqla) qeydiyyatını, uçotunu, müxtəlif parametrlərlə axtarışını, verilən və qaytarılan ədəbiyyatın qeydiyyatını, borclu olan oxucuların avtomatlaşdırılmış nəzarətini və s. həyata keçirilməsini təmin edir. Kitabxanalararası abonoment vasitəsilə, Ümumi oxu zalı, Dövrü mətbuat zalı, Şərq ədəbiyyatının oxu zalı, "Heydər Əliyev irsinin təbliği" şöbəsini oxu zalı, nadir nəşrlər zalı, doktorantlar evinin oxu zalında oxuculara ənənəvi xidmətlə yanaşı, elektron xidmət də göstərilmişdir [6.s.23]

Yekunda qeyd etmək lazımdır ki, müasir kitabxananın uğurlu fəaliyyəti onun idarə edilməsinin təkmilləşdirilməsi məsələlərinə yeni keyfiyyətlə yanaşmaqdan asılıdır. Kitabxananın inkişafını müəyyən edən yeni üsullar idarə etmə sisteminə daxil edilməli və bu üsullar dünyada baş verən dəyişikliklərə uyğunlaşmalıdır. Bu kitabxanalırın yeni şəraitdə inkişafının əsas tendensiyasıdır.

ƏDƏBİYYAT:

1. A.Əliyeva-Kəngərli. Ənənəvi kitabxanadan avtomatlaşdırılmış kitabxanaya doğru. AMEA MEK. Elmi əsərlər.-2003.-IV buraxılış.
2. A.Əliyeva-Kəngərli. İnformasiya cəmiyyətində online xidmətlər. Respublika qəzeti.-2004.-№ 211

3. F.Hüseynova. Kompüter texnologiyalarının tətbiqi mərhələsində AMEA Mərkəzi Elmi Kitabxanasında biblioqrafik-informasiya xidmətinin təşkili ənənə və perspektivlər. AMEA MEK. Elmi əsərlər.-2007.-IV buraxılış.
4. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2002-ci il hesabatı.
5. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2006-cı il hesabatı
6. Azərbaycan Milli Elmlər Akademiyası MEK-nın 2011-cı il hesabatı
7. www.anl.az
8. www.csl.az

Н.Исмаилов,
Т.Насибова

МЕСТО ИКТ В ОРГАНИЗАЦИЯ СПРАВОЧНО-БИБЛИОГРАФИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ В БИБЛИОТЕКЕ

Р Е З Ю М Е

Статье посвящено исследования место и роль ИКТ в организация справочно-библиографического обслуживания в библиотеке.

Основные внимание уделено деятельности Национальная Библиотека имени М.Ф. Ахундзаде и УСБ НАН Азербайджане.

N.Ismailov,
T.Nasibova

POSITION OF ICT IN THE ORGANIZATION OF BIBLIOGRAPHIC SERVICES IN THE LIBRARY

SUMMARY

The article investigates the place and role of ICT in the organization of bibliographic services in the library.

Main attention is paid activities National Library after named M.F. Akhundzade and Azerbaijan National Academy of Sciences.

Yusif QAZIYEV
276 saylı orta məktəbin müəllimi
əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru

ŞƏHƏR MƏKTƏBLƏRİNİN KİTABXANALARI (Azərbaycanda məktəb kitabxanalarının inkişafı tarixindən)

Açar sözlər: *Azərbaycan, məktəb kitabxanaları, şəhər kitabxanaları, kitab fondu, şagird, müəllim, valideyn, kitab, bacarıq*

Ключевые слова: *Азербайджан, школьные библиотеки, городские библиотеки, книги, студенты, учителя, родители, книги, умения*

Keywords: *Azerbaijan, school libraries, city libraries, books, students, teachers, parents, books, skills*

XIX əsrin 70-ci illərindən başlayaraq 31 may 1872-ci il əsasnaməsinə əsasən Azərbaycanda qəza məktəbləri əsasında Şuşada (01.06.1875), Nuxada (01.07.1877), Şamaxıda (1874-1877), Naxçıvanda (06. 07. 1879), Gəncədə (01.09.1884), Zaqatala (01.07.1886), Bakıda 2 dənə (biri 01.09.1889, ikincisi 31.05.1898) və Ordubadda (01.07.1897) yeni tip məktəblər-şəhər məktəbləri təşkil edildi(1). Bu məktəblərin nəzdində əsaslı və şagird kitabxanaları fəaliyyət göstərirdi. Kitabxanaların kitab fondu haqqında arxiv sənədləri dəqiq məlumatlar verir.

Şəhər məktəb kitabxanalarının kitab fonduna dair dəqiq məlumatlar vardır. Əsaslı kitabxana Naxçıvan və Nuxada, şagird kitabxanası isə Şamaxı və Şuşada daha zəngin idi (4).

1881-ci il məlumatına görə kitab fondu cəhətdən Naxçıvan şəhər məktəb kitabxanası həmişə zəngin olmuşdur. Burada 1880-ci ildə əsaslı kitabxanada 3325 cilddə kitab olmuşdur. Həmin ildə Şuşada 1589 manat, Şamaxıda 736 manat dəyərində dərsliklər mövcud idi. Bütün QTD-ə daxil olan şəhər məktəb kitabxanaları içərisində Şuşa və Şamaxı məktəb kitabxanaları dərsliklərin sayına görə ikinci yeri tuturdu (2).

Bütün dövrlərdə Naxçıvan şəhər məktəb kitabxanası həmişə zəngin olmuşdur. 1889-cu ildə Naxçıvan şəhər məktəbində olan knyaz Dondukov-

Kaçakov məktəbin emalatxanasını gəzib şagirdlərin əl işləri ilə, həmçinin kitabxanası və fizika kabineti ilə tanış olduqdan sonra rəy kitabında yazmışdır: "Mayın 20-də Naxçıvan şəhər məktəbində oldum. Tamamı ilə qaydasında olan bu məktəb məndə böyük təəssürat oyatdı. Şəhər üçün faydalı olan bu məktəbin gələcəkdə çiçəklənməsini ürəkdən arzu edirəm..."(3)

Şuşa və Şamaxı şəhər məktəblərinin şagird kitabxanası 1880-ci ildə dərsliklərin sayına görə bütün QTD-ə daxil olan məktəb kitabxanaları içərisində ikinci yeri tuturdu. Həmin ildə Şuşada 1589 manat, Şamaxıda 736 manat dəyərində dərsliklər mövcud idi(2a)

Şəhər məktəblərinin kitabxanalarının kitab fondu ilbəil artmışdır. 1884-cü ildə fəaliyyətdə olan 5 şəhər məktəb kitabxanalarında (əsaslı və şagird kitabxanaları birlikdə) cəmi 13054 manat dəyərində 3874 adda, 9758 nüsxə, 1900-cu ildə fəaliyyətdə olan 9 kitabxanada cəmi 28481 manat dəyərində, 12016 adda, 16151 nüsxə, nəhayət 1913-cü ildə 11 kitabxanada 43895 manat dəyərində, 25105 adda, 54277 nüsxə kitab olmuşdur(4).

Ancaq kitabxanalarda olan kitabların və şagirdlərin sayını nəzərə alsaq heç də normal vəziyyət hesab etmək olmaz. Belə ki, 1884-cü ildə Nuxa məktəbinin şagird kitabxanasında bir şagirdə təqribən 1.2 adda 2 nüsxə, 1913-cü ildə 1.7 adda 4.9 nüsxə, ümumiyyətlə həmin illərdə Azərbaycanda şəhər məktəblərinin şagird kitabxanalarında bir şagirdə orta hesabla təqribən 0.9 adda 1.3 nüsxə əsaslı kitabxanada isə -3.4 adda 5.4 nüsxə kitab düşürdü (4).

Dərsliklər köhnə və azlıq təşkil edirdi. Şuşa şəhər məktəbinin açılışından (1875) 1881-ci ilə qədər olan dövrdə yalnız 4 dərslik dəyişdirilmişdir: Qeddanın "geniş mineralogiya" dərsliyi müəllifin yeni qısa dərsliyi ilə; Lixaçevin "Botanika" dərsliyi Raevskinin "Botanika" dərsliyi ilə; Polevoyun "Müntəxabatı" I hissə, Uşinskinin "Uşaq aləmi", I hissə dərslikləri dəyişdirilmişdir(2b).

Şəhər məktəb kitabxanalarının da vəzifəsi təlim işinə yaxından kömək etmək, müəllimləri pedaqoji və metodiki ədəbiyyatla, şagirdləri elmi, bədii və dərslik kitabları ilə təmin etmək, şagirdlərin təlim prosesində aldıqları bilik, bacarıq və vərdişləri, eləcə də əqli, əxlaqi və estetik tərbiyələrini bir daha zənginləşdirmək, valideynləri şagirdlərin mütaliəsi işinə cəlb etmək, kitabın və mətbuatın valideynlər arasında mütaliəni yaymaq, məktəb və kitabxana ilə valideynlərin sıxı əlaqəsini təmin etmək idi.(2c) Tulupov və P. M. Şeztakov, Учителбская библиотека, их значение организации и

список книг, Moskva, 1905, səh.9-10; V.N.Marakuyeva, О школных библиотеках, Moskva, 1884, səh.5).

Qeyd edilən vəzifənin həyata keçirilməsində məktəb kollektivi və kitabxananın təşəbbüsü ilə valideynlərlə sıxı əlaqə şəraitində ədəbi-bədii gecələr, səhərciklər və teatr tamaşaları təşkil edilirdi. Müəllim və şagirdlər tərəfindən birgə hazırlanmış bu tədbirlərin həyata keçməsi üçün lazım olan ləvazimatlar ictimaiyyətin köməyi ilə əldə edilirdi ki, bununla da valideynləri məktəbə yaxınlaşdırırdı, həmçinin tədbirlər nümayiş etdirilərkən valideynlər məmnuniyyətlə məktəbə gəlib, baxıb, dinləyirdilər, şagirdlərin yaradıcılıq işləri ilə tanış olurdular. Valideynlərin arzu və təklifləri ilə tədbirlər formalaşıb məzmunlaşırdı. Mənbələrin birində deyilirdi: "Məktəbin ictimaiyyətlə yaxınlaşması bəzi tədris müəssisələrində müəllim və şagirdlər tərəfindən ədəbi-musiqili səhərcik və gecələrin təşkilinə təsir göstərmişdir. Bununla belə ifaçıların əksəriyyəti şagirdlər idi. Mütaliəyə müəllimlər tərəfindən seçilmiş ədəbi əsərlərin buraxılması şərti ilə, onların şüurlu, aydın, ucadan və həm də münasib avazla oxunması, həmçinin ifa edilməyə buraxılan yaxşı mahnıların, musiqi və vokal əsərlərin alətlərdə düzgün və aydın çalınması tələb olunurdu... Ədəbi-musiqili səhərciklər...bəzi şəhər və eləcə də ibtidai məktəblərdə də baş verirdi. Bu yığıncaqlara bina tutana qədər valideynlər buraxılırdı və hər yerdə onlar dinləyicilərə olduqca yaxşı təsir bağışlayırdı (2ç).

Şəhər məktəb kitabxanalarının da vəzifəsi təlim işində yaxından kömək etmək, dərsdən əldə edilən bilik, bacarıq və vərdişlərin möhkəmlənməsinə və dərinləşməsinə kömək etmək, valideynləri şagirdlərin mütaliəsi işinə cəlb etmək, kitabı və mətbuatı valideynlər arasında yaymaq, məktəb və kitabxana ilə valideynlərin sıx əlaqəsini təmin etmək idi. Kitabxananın təşəbbüsü ilə valideynlərlə sıxı əlaqə şəraitində ədəbi-bədii gecələr, səhərciklər və teatr tamaşaları təşkil edilirdi. Müəllim və şagirdlər tərəfindən birgə hazırlanmış bu tədbirlərin həyata keçirilməsi üçün lazım olan ləvazimatlar ictimaiyyətin köməyi ilə əldə edilirdi ki, bununla da valideynlər məktəbə yaxınlaşdırılırdı. Həmçinin tədbirlər nümayiş etdirilərkən valideynlər məmnuniyyətlə məktəbə gəlib, baxıb dinləyirdilər, şagirdlərin yaradıcılıq işləri ilə tanış olurdular. Valideynlərin arzu və təklifləri ilə tədbirlər yeni forma və məzmun alırdı(2d).

Şagirdlər müəllimlərim rəhbərliyi altında tədbirlərə ciddi və mükəmməl hazırlaşırdılar. Şagirdlər bədii ədəbiyyatın mütaliəsinə ciddi həvəs göstərib, proqram materialından əlavə bədii əsərlər və şeirlər öyrənir, musiqi

və incəsənət aləmi ilə tanış olub müəyyən bacarıq və vərdişlərə yiyələnirdilər. Məktəblərlə valideynlər arasında əlaqə genişlənirdi. Bu münasibətlə QTD (Qafqaz Tədris Dairəsi) popeçitelinin 1882-ci il hesabatında deyilirdi: " ... il ərzində bəzi tədris müəssisələrində valideynlərin iştirakı ilə ədəbi-musiqili şagird yığıncaqları düzəldilmişdir. Belə yığıncaqlar nəinki ictimaiyyət və məktəb arasında əlaqəyə təsir göstərir, eləcə də şagirdlər arasında ən yaxşı ədəbi əsərlərin öyrənilməsinə, musiqi və nəğmə məşğələlərinə həvəsin inkişafına kömək edir ki, bu şagirdlərin olduqca düzgün tərbiyəsinin əldə edilməsi məqsədi üçün əhəmiyyətlədir(5)

Apardığı işlərin məzmun və formasına görə şəhər məktəb kitabxanaları qəza və ibtidai məktəb kitabxanalarında daha irəli gedərək şagirdlərə proqram materialından əlavə yeni bilik, bacarıq və vərdişlərin aşılanmasında, onların estetik tərbiyəsinin formalaşmasında və eləcə də Azərbaycanda mədəni həyatın inkişafında müsbət və böyük rol oynamışdır. Onu demək kifayətdir ki, şagirdlərin nümayiş etdirdikləri teatr tamaşaları Azərbaycanda teatr verilişləri atmosferi yaratmış və teatr verilişləri ənənəyə çevrilmiş, bir daha teatr tarixi zənginləşmişdir.

Nəticə olaraq qeyd etmək olar ki, şəhər məktəb kitabxanalarının kitab fondu ilbəil artmış, şagirdləri dərslik və digər elmi, bədii ədəbiyyatla təmin etməklə qəza və ibtidai məktəb kitabxanalarından irəli getmişdir. Ancaq bu tip məktəblərdə də dərslik və bədii ədəbiyyat şagirdlərin sayına görə azlıq təşkil edirdi. Dərsliklər köhnəlmişdir. Şuşa şəhər məktəbinin açılışından 6 il keçdiyinə (1875-1881-ci illər) baxmayaraq bu müddət ərzində 4 dərslik dəyişdirilmişdir: Qeldanın "Geniş mineraloqiya" dərsliyi müəllifin yeni qısa dərsliyi ilə; Lixaçevin "Botanika" dərsliyi Raevskinin "Botanika" dərsliyi ilə; Poevoyun "Müntəxəbatı" 1 hissə və Uşinskinin "Uşaq aləmi" I hissə dərslikləri dəyişdirilmişdir (2e).

ƏDƏBİYYAT:

1.QTD (Qafqaz Tədris Dairəsi) popeçitelinin 1874-cü il sərəncamı

2.QTD popeçitelinin 1880-ci il sərəncamı, Tiflis (T) 1881, səhifə (səh080-81.

2[a]. QTD popeçitelinin 1880-ci il hesabatı, T. 1881, səh.81.

2[b]. QTD popeçitelinin 1880-ci il hesabatı, T.1881, səh.81-82.

2[c]. QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883, səh.191.

2[c]. QTD popeçitelinin 1880-ci il hesabatı, T.1881, səh.160.

2[d]. Yenə orada.

2[e]. QTD popeçitelinin 1880-ci il hesabatı, T. 1881, səh.81-82.

3. QTD popeçitelinin 1883-cü il sərəncamı, T. 1883, №5, səh.188; №12, səh 121, əlavə cədvəllər 16, 17.

4. QTD popeçitelinin 1884-cü il hesabatı, T. 1885, səh.121, Əlavə cədvəllər: 16, 17; QTD popeçitelinin 1913-cü il hesabatı, T. 1914, cədvəl № 16.

5. QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883-cü il. Səh.191.

Ю.Газиев

"ГОРОДСКИЕ ШКОЛЬНЫЕ БИБЛИОТЕКИ" В АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Статья называется "Городские школьные библиотеки" в Азербайджане. В статье говорится, что начиная с 70-Х годах XIX века били созданы в 9-Х городских школах библиотеки в Азербайджане.

В этой статье отмечаются ценные информации о книжных фондах и обязанностях библиотек. Также обширно говорится о режиме, методах, правилах обмен книг. Самая заметная служба в том, что они служили не только ученикам и учителям, так же для широкой массе народа- молодежи и родителям.

Y.Qaziyev

"THE CITY SCHOOL LIBRARIES" IN AZERBAIJAN

SUMMARY

In the article is named " The city school libraries" in Azerbaijan. In the article is spoken that there formed libraries in city schools in Azerbaijan at the end of the 70th XIX century.

The valuable information about the book fund and libraries duty is noted in the article. About the regime of work, methods and rules if book exchange is given in the article too. The most important service of the city school libraries was that they served not only students and teachers but also the wide mass population-young people and parents.

Nigar BABAXANOVA
AMEA Mərkəzi Elmi Kitabxanası "Azərbaycan-Fransa elmi mədəni əlaqələr bölməsi"nin müdiri, doktorant

MÜSTƏQİLLİK DÖVRÜNÜN İNFORMASİYA MÜHİTİ VƏ AZƏRBAYCAN KİTABXANALARININ BEYNƏLXALQ TƏŞKILATLARLA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ (1991-1995-ci illər)

Açar sözlər: *Müstəqillik dövrü, Azərbaycan kitabxanaları, Azərbaycan MEA, Mərkəzi Elmi Kitabxana, beynəlxalq kitab mübadiləsi, xarici əlaqələr*

Ключевые слова: *Период независимости, библиотеки Азербайджана, НАН Азербайджана, Центральная Научная библиотека, международный книгообмен, международные отношения*

Key words: *Period of independence, Azerbaijani libraries, NAS of Azerbaijan, Central Scientific Library, international book exchange, international relations*

1980-ci illərin sonu 90-cı illərin əvvəlləri Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiyası, Ermənistanın Azərbaycana ərazi iddialarını əməli müstəviyə keçməsi, Dağlıq Qarabağın erməni qəsbkarları tərəfindən işğalı və Azərbaycanın öz müstəqilliyini qazanması ilə yadda qaldı. Ağır itkilər hesabına əldə edilmiş müstəqilliyin ilk illəri mədəniyyət tariximizin səhifələrində silinməz izlər buraxdı: 1000-ə qədər kitabxana, mədəniyyət evi, məktəb və s. erməni işğalçıları tərəfindən yağmalandı, məhv edildi, informasiya infrastrukturuna külli miqdarda ziyan vuruldu.

O illərdə beynəlxalq kitab mübadiləsi sahəsində aparıcı kitabxanalar-AMEA-nın Mərkəzi Elmi Kitabxanası və M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası (indiki Milli Kitabxana) oxucuların xarici ədəbiyyatla təminatında çox böyük çətinliklərlə üzləşmişdilər. Belə ki, əvvəlki illərdə olduğu kimi, xarici ədəbiyyatın ittifaq daxilində kitabxanalararası abonement yolu ilə hərəkəti dayanmış, valyuta ehtiyatları xeyli azalmışdı. 1991-ci ilin oktyabr-noyabr aylarında Moskva şəhərində keçirilən "Beynəlxalq kitab mübadiləsinin müasir vəziyyəti və əsas istiqamətləri" adlı IV Ümumittifaq müşavirəsi də post-sovet məkanındakı kitabxanaların bu sahədəki fəaliyyətini normallaşdırmaq baxımından əhəmiyyətli olmadı.

1991-ci ilin dekabrından etibarən Mərkəzi Elmi Kitabxana beynəlxalq aləmdə yaranmış qeyri-stabil vəziyyət və maliyyə çətinliyi üzündən xarici tərəfdaşlarla əlaqələrini kəsmək məcburiyyətində qaldı. Bir-birinin ardınca Çexoslovakiya Şərqşünaslıq İnstitutu, Polşanın "Orpan", Hollandiyanın "Scientia" nəşriyyatları, Əfqanıstan Mərkəzi Kitabxanası, İordaniya Kütləvi Kitabxanası, Təbriz Universiteti və s. kimi müəssisələrlə kitab mübadiləsi və ədəbiyyat sifarişi dayandırıldı. Bunun ardınca yerli qəzetlərin ABŞ-ın Kolumbiya Universitetinə göndərilməsi təxirə salındı. Həm Qərb, həm də Şərq ədəbiyyatı fonduna daxilolmalar 5 dəfə azaldı. Bütün bunlar azmış kimi, Mərkəzi Elmi Kitabxananın Akademiya binasının zirzəmisində yerləşən xarici ədəbiyyat fondu binanın nasazlığı ucbatından dəfələrlə yağış sularında islanmış və yararsız hala düşmüşdü. Kitabxana rəhbərliyinin bu məsələləri Akademiya rəhbərliyi qarşısında bir neçə dəfə qaldırması da fayda vermə-miş, vəziyyətin yaxşılaşdırılması ilə bağlı nəsə etmək mümkün olmamışd. Onu da nəzərə almalıyıq ki, o illərdə nəinki Mərkəzi Elmi Kitabxananın, ümumiyyətlə Azərbaycan Elmlər Akademiyasının gələcək taleyi sual altında idi. Hakimiyyət təmsilçilərinə görə, akademiya bağlanmalı, onun tarixi binası isə başqa məqsədlər üçün istifadə olunmalı idi.

Eyni aqibətlə M.F.Axundov adına Milli Kitabxana da üzləşmişdi. Mərkəzi Elmi Kitabxana kimi, buraya da SSRİ məkanından ədəbiyyatın daxil olması tamamilə dayanmış və kitabxana yalnız yerli nəşriyyatlar hesabına komplektləşməyə başlamışdı. Lakin yerli nəşriyyatlar çox az miqdarda ədəbiyyat çap etdiklərindən fondu komplektləşdirmək mümkün olmurdu. Bütün bunlar 90-cı illərinin əvvəllərində respublikada kitab nəşri işinə və kitabxanaların kitabla təchizatı prosesinə biganə münasibətin acı nəticələri idi və bu göstəricilər getdikcə pisləşirdi. Baş verənlərin fonunda kitabxanaların binaları əllərindən alınır, qiymətli kitab fondları küçələrə tökülür, özəlləşdirmə adı altında qanunsuz işlər görülürdü

Elmlər Akademiyasının binası kimi, Milli Kitabxananın da binasına müştəri gözü ilə baxanlar, onun zəngin fondunun bir hissəsinin həyətə tökülərək yandırılmasını israrla tələb edənlər də var idi [2].

Bütün bu xoşagəlməz hadisələr və itkilər onunla kompensasiya olunurdu ki, ölkə müstəqillik əldə etmiş və mərkəzdən asılılıq ləğv olunmuşdu.

1991-ci ildə Mərkəzi Elmi Kitabxananın direktoru M.Həsənovanın Türkiyə Mədəniyyət Nazirliyinin dəvəti ilə bu ölkəyə səfəri, Türkiyə Milli Kitabxanası və Ankara Universitetinin Kitabxanası ilə əməkdaşlıq müqaviləsi bağlaması o dövr üçün olduqca mütərəqqi addım idi. Çünki, o vaxtadək

Azərbaycan kitabxanaçıları heç bir kapitalist ölkəsinə səfər etməmiş və Mərkəzi Elmi Kitabxananın, eləcə də digər iri kitabxanaların Qərb kitabxana və nəşriyyatları ilə müqavilələri bir qayda olaraq, ancaq Bakıda imzalanmışdı.

90-cı illərin əvvəllərində Mərkəzi Elmi Kitabxananın beynəlxalq kitab mübadiləsini yaxşılaşdırmaq səyləri gözlənilən nəticələr vermədi. İqtisadi çətinliklər ucbatından itirilən partnyorların sayı günü-gündən çoxalır, xarici ədəbiyyat fondlarını yeniləmək, yerli nəşrləri isə xaricə göndərmək çətinləşirdi. 1989-1991-ci illər ərzində Kitabxananın itirdiyi tərəfdaşların sayı 100-ü ötmüşdü. Təkcə 1992-ci ildə Mərkəzi Elmi Kitabxana 40 xarici elm və təhsil müəssisəsi ilə əlaqələrini kəsməli olmuşdu. Onların arasında Kabil Universitetinin Kitabxanası, Əlcəzair Universitetinin Kitabxanası, İraq Mədəniyyət Nazirliyi, "Qardaşlıq" nəşriyyatı və b. vardı.

1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Elmi Tədqiqat İnstitutlarının kitabxanalarının fəaliyyətini əlaqələndirmək məqsədilə yaradılmış Akademiya Kitabxanalarının Mərkəzləşdirilmiş Sistemi həmin ildə, maliyyə çatışmazlığından və uzun sürən fəaliyyətsizlikdən sonra ləğv edildi.

1990-1992-ci illər ərzində Mərkəzi Elmi Kitabxananın maddi-texniki bazası o qədər zəifləmişdi ki, artıq oxuculara ənənəvi xidmətləri göstərmək ağır zəhmət bahasına başa gəlirdi. 1991-ci ilin son aylarından etibarən Kitabxana bir sıra xidmətləri ödənişli əsasda həyata keçirmək məcburiyyətində qalmışdı: xüsusi biblioqrafik xidmətlərin göstərilməsindən, surətçıxarma və cildləmədən əldə olunan xırda gəlirlər yeni çıxan kitabların əldə olunmasına sərf olunurdu. Xarici ədəbiyyatın əldə olunması üçün əlavə vəsaitə ehtiyacı olan Kitabxana dublet və profilə uyğun olmayan kitabları əvvəlki illərdən fərqli olaraq pulla satmağa başlamışdı. Təkcə 1993-cü ildə Mərkəzi Elmi Kitabxana MDB kitabxanalarına 93 dublet xarici ədəbiyyat satmışdı.

1993-cu ilin iyununda ulu öndər Heydər Əliyevin ikinci dəfə respublikada hakimiyyətə gəlməsi bütün kitabxana və mədəniyyət müəssisələrinin fəaliyyətində dönüş yaratdı. Azərbaycan kitabxanalarının gələcək inkişafını təmin etmək məqsədilə Ulu öndər 1994-cu ildə Mədəniyyət Nazirliyinə "Kitabxana işi haqqında" və digər qanunların işlənib hazırlanması barədə xüsusi göstəriş verdi. Bununla əlaqədar ilkin layihələr Nazirlər Kabinetinin iclasında ulu öndər Heydər Əliyevin tapşırığı ilə 1996-cı ildə kitabxana işçilərinin respublika müşavirəsində geniş müzakirəyə çıxarıldı və bu tədbirin yekunu olaraq Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı qəbul olundu.

1995-1997-ci illərdə Ümummilli lider Heydər Əliyev Milli Kitabxanaya 4 dəfə səfər etməklə kitabxana işinə olan hörmət və qayğısını bir daha sübut etdi.

1993-cü ildən etibarən ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, Azərbaycanın uğurlu xarici siyasət yürütməyə başlaması, nüfuzlu beynəlxalq qurum və təşkilatlarla ikitərəfli münasibətlərin formalaşması fonunda kitabxana və mədəniyyət müəssisələrinin beynəlxalq əlaqələri yenidən dirçəlməyə başladı. Həmin il Mərkəzi Elmi Kitabxana 28 ölkənin 115 təşkilatı ilə kitab və informasiya mübadiləsini bərpa etdi, Çilinin Santa-Mariya Universiteti, Koreya Elmlər Akademiyası, Çin Milli Təbiət Elmləri Fondu, İtaliya Botanika Elmləri İnstitutu, Fransa Kənd Təsərrüfatı İnstitutu, Yaponiya Beynəlxalq Buddizm İnstitutu ilə ilk dəfə olaraq əməkdaşlıq əlaqələri quruldu.

1993-cü ildə Qafqazda ilk dəfə Mərkəzi Elmi Kitabxana Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasına (IFLA) üzv seçildi. 1995-ci ildə Milli Kitabxana, 2009-cu ildə isə Prezident Kitabxanası IFLA-nın üzvlüyünə qəbul olundular. Burada haşiyə çıxaraq qeyd etmək yerinə düşər ki, istər Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda, istərsə də "Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinin inkişafı və kitabxana xidmətlərinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramının (2015-2020-ci illər) Layihəsi"ndə Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyası, Avropa Milli Kitabxanaları İttifaqı, ABŞ Kitabxana Assosiasiyası, Elektron Kitabxana istifadəçilərinin Beynəlxalq Assosiasiyası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi kitabxanalar qarşısında duran vacib məsələlər kimi səciyyələndirilmişdir.

Mövzuya qayıdaraq bildirək ki, dünya kitabxanalarının fəaliyyətinin əlaqələndirilməsi üzrə ali qurum hesab olunan IFLA-nın əsası 1927-ci ildə Şotlandiyanın paytaxtı Edinburq şəhərində qoyulub. 1971-ci ildə Niderland Krallığında qeydiyyatdan keçən IFLA-nın mənzil qərargahı bu ölkənin milli kitabxanası hesab edilən Haaqa şəhər Kral Kitabxanasıdır. Hazırda 160 ölkədən 1800-dən artıq kitabxana qurumun üzvüdür. IFLA-nın əsas vəzifəsi kitabxana və informasiya xidməti üzrə standartları formalaşdırmaq, dünya kitabxanalarının fəaliyyətini yaxşılaşdırmaq və əlaqələndirmək üçün səmərəli tövsiyələr vermək, dünya kitabxanalarının yeni inkişaf istiqamətlərini müəyyənləşdirmək və onların ortaq problemlərini həll etmək üçün müxtəlif tədbirlər keçirməkdən ibarətdir. Qeyd etmək yerinə düşər ki, IFLA

YUNESKO, BMT, Elmi İttifaqların Beynəlxalq Şurası, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO), Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Naşirlər Assosiasiyası, Beynəlxalq Arxiv Şurası (BAŞ), Beynəlxalq Muzeylər Şurası ilə sıx əməkdaşlıq edir və bu təşkilatların bir çoxunda müşahidəçi statusu daşıyır.

1993-cü ildə Mərkəzi Elmi Kitabxananın, 1995-ci ildən isə Milli Kitabxananın IFLA-da təmsil olunmasına baxmayaraq, kitabxanalara bu təşkilatın fəaliyyətində yaxından iştirak etmək 2000-ci ildən sonra müyəssər olmuşdur (Mərkəzi Elmi Kitabxana, Milli Kitabxana, Prezident kitabxanası, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası məhz 2000-ci ildən etibarən IFLA-nın illik iclasına qatılırlar). Eyni sözləri MDB ölkələrinin kitabxanalarına da şamil etmək olar. Doğrudur, keçmiş sovet kitabxanaları 1959-cu ildən IFLA-nın tədbirlərində iştirak edirdilər. Lakin bu əlaqələr SSRİ Mədəniyyət Nazirliyi nəzdindəki Dövlət Kitabxanalararası Komissiyanın Kitabxanaçılıq şurası tərəfindən həyata keçirildiyindən, kitabxanaların bu sferadakı kompetentliyini artırmamışdır.

1994-cü ili Mərkəzi Elmi Kitabxananın beynəlxalq əlaqələrinin bərpası və yenilənməsi baxımından daha uğurlu il kimi səciyyələndirmək olar. Müqayisə üçün qeyd etməliyik ki, 1993-cü ildə Kitabxananın fonduna cəmi 3840 nüsxə xarici ədəbiyyat daxil olmuşdusa, 1994-cü ildə bu say 9150 nüsxəyə çatmışdı. Həmin il Kitabxananın fondundakı xarici ədəbiyyatdan istifadə səviyyəsi də artmış, oxuculara rus dilində 2140390 nüsxə, xarici dillərdə isə 815441 nüsxə ədəbiyyat verilmişdi. Kitabxana İsveçrə Beynəlxalq Əmək Cəmiyyəti və İsveçrə Nobel Fondunun timsalında yeni partnyorlar qazanmış, il ərzində "ABŞ kitabxanaları və nəşriyyatlarından alınan ədəbiyyat", "Azərbaycan-Misir Dostluq Cəmiyyəti tərəfindən hədiyyə edilmiş ədəbiyyat" adlı uzunmüddətli kitab sərgiləri keçirilmişdi.

Məhz həmin ildən etibarən Mərkəzi Elmi Kitabxana beynəlxalq informasiya mühitinə inteqrasiya imkanlarını genişləndirmək məqsədilə xarici ölkələrin Azərbaycandakı səfirlikləri ilə sıx elmi-mədəni əlaqələr yaratmaq və bu vasitə ilə öz fəaliyyəti çərçivəsində mədəniyyətlərarası dialoqda iştirak etmək ənənəsinin əsasını qoymuşdur.

1994-cü ilin ilk aylarında Rusiya, ABŞ, Fransa, Misir səfirlikləri və BMT-nin Azərbaycan nümayəndəliyi ilə sıx əməkdaşlıq prosesinə start verildi; Fransa səfirinin mədəniyyət işləri üzrə müşaviri Gi dö Şövalyenin müşayəti ilə Paris Milli Kitabxanasının direktor müavini Fransuaz Farnyenin

Mərkəzi Elmi Kitabxananı ziyarət etməsi ikitərəfli əməkdaşlıq üçün real zəmin yaratdı.

1994-cü ildən etibarən Mərkəzi Elmi Kitabxana Rusiya Dövlət Kitabxanası, Rusiya Milli Kitabxanası, M.Y.Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kitabxanası, Rusiya Elmlər Akademiyasının kitabxanası, Rusiya Dövlət Ümumi Elmi-Texniki kitabxanası ilə beynəlxalq kitabxanalararası abonement (BKAA) yolu ilə kitab mübadiləsini intensivləşdirdi. Rusiya Dövlət Ümumi Elmi-Texniki kitabxanasının o illərdə hazırladığı toplu kataloqa Mərkəzi Elmi Kitabxananın il ərzində əldə etdiyi elmi jurnallar barədə məlumatların göndərilməsi prosesi bərpa olundu.

1994-cü il sentyabr ayının 20-də Ulu öndər Heydər Əliyevin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış Əsrin müqaviləsi dünyaya bir daha sübut etdi ki, artıq Azərbaycanın güclü lideri, sabit ictimai-siyasi və sosial vəziyyəti, dünya ilə inteqrasiyaya hesablanmış uzunmüddətli proqramları var. Bu ictimai-siyasi sabitlik və inkişaf Azərbaycana xaricdən olan marağı dəfələrlə artırdı. Ölkəmizə gələn əcnəbi tədqiqatçıların və elm adamlarının çoxalması, burada elmi tədqiqat aparmaq istəyənlərin günü-gündən artması bunu bir daha təsdiq etdi. AMEA-nın müxtəlif elmi tədqiqat institutlarında araşdırma aparan əcnəbi tədqiqatçıların çoxalması fonunda Mərkəzi Elmi Kitabxana oxuculara xidmət sahəsində çalışan əməkdaşların sayını artırmalı oldu.

O illərdə, öz növbəsində Azərbaycan alimləri də xarici elm və təhsil müəssisələrindən əvvəlki illərlə müqayisədə daha çox dəvət almağa və burs *(fr. Bourse)* qazanmağa başlamışdılar. Statistik məlumatlara görə [1], 1993 və 1994-cü illərdə elmi tədqiqat məqsədilə xarici ölkələrə getmiş Azərbaycan alimlərinin sayı 1976-cı ildən 1990-cı ilə qədər gedənlərin sayından çox idi. 1994-cü ildə isə bu rəqəm artıq 350 nəfərə çatmışdır

90-cı illərin əvvəllərində keçmiş sovet ölkələrində informasiya mühiti təqribən eyni cür formalaşırdı. Müstəqillik əldə etdikdən sonra yeni iqtisadi-siyasi, sosial şəraitə uyğunlaşma dövrünə qədəm qoymuş həmin dövlətlərdə kitab və kitabxana mədəniyyətinə daha çox diqqət ayrılmağa başlamış, kitabxanalararası münasibətlərin bərpası və dirçəlməsi naminə, bu dəfə artıq MDB formatı çərçivəsində əməkdaşlıq üçün real addımlar atılmışdı.

Məsələn, 1994-cü ildə Avrasiya Kitabxanalar Assambleyasının (AKA) "Kitabxanalar mədəniyyət və incəsənət üzrə informasiya mərkəzləri kimi" adlı layihəsi çərçivəsində "1995-2000-ci illərdə mədəniyyət və incəsənət üzrə informasiyaya ümumi çıxışın təşkilində MDB ölkələrinin kitabxanalarının qarşılıqlı əlaqə Proqramı" hazırlanmışdı [5, s.14]. Layihənin məqsədi Avrasiyada vahid mədəni-informasiya məkanının yaradılmasına kömək etmək idi. Qoyulmuş vəzifələrin həlli üçün metodik sənədlərin mübadiləsinin təşkil edilməsi; mədəniyyət və incəsənət sahəsində elektron və texniki vasitələrin köməyi ilə kitabxanalar arasında informasiya mübadiləsinin təmin edilməsi; informasiya mübadiləsinin ödənişsiz əsasda bərpa edilməsi; mübadilənin informasiya ekvivalentinin müəyyən edilməsi; ödənişli və müqavilə xidmətlərinə görə hesablaşmanın rubl və ya dollar nominalında aparılması; informasiya mübadiləsi zamanı rus dilinin işlək dil kimi qəbul edilməsi və mütəxəssis mübadiləsinin təşkil edilməsi təklif olunmuşdu.

Müstəqillik illərində post-sovet məkanında vahid və yaxud maneəsiz informasiya mühitinin yaradılması təşəbbüslərinə başqa bir misal da göstərmək olar: 1995-ci ilin may ayında Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Parlamentlərarası Assambleyası tərəfindən "Sənədlərin zəruri nüsxəsi haqqında" Rusiya Federasiyasının Federal Qanunu əsasında "Sənədlərin zəruri nüsxəsi sahəsində vahid siyasət haqqında" adlı tövsiyə xarakterli Akt qəbul edilmişdir [4, s. 6]. Qanunvericilik aktına əlavə kimi "MDB ölkələri arasında sənədlərin zəruri nüsxələrinin mübadiləsi haqqında Saziş" qəbul edilmişdi. Bu sazişə əsasən Birlik ölkələrində buraxılan çap məhsulunun zəruri nüsxələri ödənişsiz şəkildə mübadilə edilməlidir. Sənədə görə Rusiya Federasiyasının zəruri mübadilə nüsxəsinin bir komplekti Ukraynanın 6, Belarus və Özbəkistanın 9, Qazaxıstan və Gürcüstanın 10, Moldovanın 11, Azərbaycanın 12, Ermənistan və Qırğızıstanın 14, Tacikistan və Türkmənistanın15 zəruri nüsxə dəstinə bərabər tutulur. Bu sənədin bəzi müddəaları dəyişsə də (məs. Azərbaycan artıq digər MDB ölkələri ilə ədəbiyyat nüsxələrini "birə-bir" prinsipi üzrə mübadilə edir) MDB ölkələri arasında beynəlxalq kitab mübadiləsini tənzimləmək baxımından olduqca vacib əhəmiyyət daşıyır.

Müstəqillik illərinin ilk dövründə informasiya mühitinin formalaşması məsələlərindən bəhs edərkən əlbəttə ki, respublikada 1994-cü ildən etibarən başlamış informasiya cəmiyyəti quruculuğu işlərini də unutmaq olmaz. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bir sıra sahələrdə olduğu kimi informasiya və kommunikasiya sahəsində də dirçəliş

başladı. Bunu nəticəsi olaraq tezliklə Azərbaycanda İnternetin tətbiqi təşəkkül tapdı. 1993-cü ilin avqustunda ".az" domeni rəsmi olaraq Azərbaycanın yüksək domen adı kimi İCANN-da (İnternetdə domen adların və ünvanların verilməsi üzrə Təşkilat) qeydiyyata alındı, 1994-cü ildə Azərbaycan Elmlər Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri (AİS) şöbəsində İnternetin ilk qovşağı yaradıldı və "Türksat" süni peyki vasitəsilə Türkiyənin Orta Doğu Texniki Universitetinin İnternet mərkəzi ilə əlaqə kanalı qurularaq Azərbaycanın İnternetə çıxışı təmin olundu. 1995-ci ildə isə Azərbaycanda ilk veb sayt – AMEA-nın www.ab.az (www.science.gov.az saytının ilkin versiyası) saytı yaradıldı. 1996-cı ildən başlayaraq "AzEvroTel" və "Ultel" birgə müəssisələri lokal telekommunikasiya şəbəkəsi üzrə xidmət göstərməyə başladı. 1995-ci il dekabrın 9-da Bakı şəhərində Azərbaycanda ilk beynəlxalq telefon stansiyasının, habelə yenidən qurulmuş Şəhərlərarası Telefon Stansiyasının açılışı oldu. Azərbaycanda yeni texnologiyaların tətbiqinə, telekommunikasiya infrastrukturunun modernləşdirilməsinə start verildi, ilk elektron ATS-lər quruldu [3].

Bütün bunlar əlbəttə ki, kitabxanaların fəaliyyətinə müsbət təsir göstərdi, elektron poçt xidməti vasitəsilə beynəlxalq informasiya mübadiləsi üçün yeni üfüqlər açıldı. Azərbaycan Elmlər Akademiyasının alim və mütəxəssislərinə biblioqrafik informasiya xidmətini daha da təkmilləşdirmək məqsədilə Kitabxanada kompyuterlərdən, daha dəqiq, o dövrün terminologiyası ilə ifadə etsək, fərdi elektron hesablayıcı maşınlardan istifadə olunmağa başlandı. Kitabxananın "Xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi şöbəsi" ilə "Şərq ədəbiyyatı" şöbəsi xarici ədəbiyyatın tematik komplektləşdirilməsinin planını qurmaq üçün diferensial xidmətin o dövr üçün mütərəqqi hesab olunan "Məlumatın seçilib paylanması" sistemindən istifadə etməyə başladılar. Bu sistem daim fəaliyyətdə olan əks əlaqəni müəyyən etməklə, abonentə hər bir biblioqrafik məlumata rəy bildirmək imkanı verirdi. Həmin proses AMEA Mərkəzi Elmi Kitabxanasında 70-ci illərdən etibarən başlanan bibliometrik araşdırmaların davam etdirilməsi üçün real zəmin yaratmışdı. Belə ki, xarici ədəbiyyata olan münasibəti sual-cavab, sorğu-təminat mexanizmi vasitəsilə təftiş edən Kitabxana komplektləşdirmə zamanı daha dəqiq seçim edə bilirdi. Artıq 1995-ci ildə Kitabxananın "Məlumatın seçilib paylanması" avtomatlaşdırılmış sistemində 24618 xarici ədəbiyyatın biblioqrafik yazısı mövcud idi. Bu baza imkan verirdi ki, fərdi elektron hesablayıcı maşınların oxuduğu maqnit lentlərdə "Mərkəzi Elmi kitabxanaya daxil olan xarici ədəbiyyat" adlı illik kataloqlar yaradılmağa başlamışdı.

1995-ci ildə Mərkəzi Elmi Kitabxana 42 ölkənin 480 təşkilatı ilə əməkdaşlıq edirdi. Həmin il Kitabxana ilə beynəlxalq kitab mübadiləsində iştirak edən qurular arasına Fransa Mədəniyyət Nazirliyi, Yaponiya Vaseda Universitetinin kitabxanası, İsveçrə Botanika Muzeyi də əlavə olunmuşdu.

1995-1996-cı illərdə ABŞ Konqres Kitabxanası Mərkəzi Elmi Kitabxana ilə Xüsusi Kitabxanalar Assosiasiyası arasında əməkdaşlıq əlaqəsi yaratmışdır. O vaxt bu əlaqə nəticəsində Mərkəzi Elmi Kitabxanaya ABŞ universitetlərindən 915 nüsxə ədəbiyyat göndərilmişdi.

Xüsusi Kitabxanalar Assosiasiyası sahəvi, elmi, ixtisaslaşmış kitabxanaları özündə birləşdirən nüfuzlu qurumlardan biridir. 75 ölkədə 9000-dən artıq üzvi olan bu beynəlxalq təşkilatın əsası 1909-cu ildə Birləşmiş Ştatlarda qoyulub. Assosiasiya ildə səkkiz dəfə "Information Outlook" adlı bülleten nəşr edir və üzv kitabxanalara göndərir.

90-cı illərdə Mərkəzi Elmi Kitabxana ilə yanaşı bir sıra universitet kitabxanaları və Milli Arxiv Fondu da öz istiqamətlərinə uyğun olaraq beynəlxalq təşkilatlarla əməkdaşlıq edirdilər. Məhz həmin dövrdən etibarən Azərbaycan Texniki Universitetinin kitabxanası Elmi-Texniki Universitet Kitabxanalarının Beynəlxalq Assosiasiyası ilə sıx əməkdaşlıq etməyə başlamışdı. Elmi-Texniki Universitet Kitabxanalarının Beynəlxalq Assosiasiyasının (IATUL) əsası 1955-ci ildə Almaniyanın Düsseldorf şəhərində qoyulub. Assosiasiyanın əsas məqsədi texniki universitet kitabxanalarının fəaliyyətini əlaqələndirmək və bu kitabxanalarla müştərək layihələr həyata keçirməkdən ibarətdir.

Azərbaycan Milli Arxiv İdarəsinin sıx əməkdaşlıq etdiyi qurum isə Arxivlərin Beynəlxalq Şurasıdır. Arxivlərin Beynəlxalq Şurası arxivlər üzrə beynəlxalq əməkdaşlığın inkişafını təmin edən beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1948-ci ildə Parisdə yaradılan Şuranın 190 ölkədən 1400-dən çox üzvü var. Şuranın əsas missiyası arxivlərin toplanması, mühafizəsi, bərpası və təkrar nüsxələrinin yaradılması üzrə beynəlxalq standartları müəyyən etməkdən və dünya arxiv idarələri arasında əlaqə yaratmaqdan ibarətdir.

1993-cü ildə Şura "Arxiv sənədlərinin beynəlxalq təsvir qaydaları"nı (ISAD- International Standard Archival Description) hazırlamışdır.

Mərkəzi Elmi Kitabxana Yaxın Şərq Kitabxanaçılarının Avropa Assosiasiyası, Xüsusi Kitabxanalar və İnformasiya Bürosu Assosiasiyası (ASLIB), Avropa Elmi Kitabxanalar Konsorsiumu (CERL), Avropa Kitabxana-

İnformasiya və Sənəd Assosiasiyaları Bürosu (EBLIDA) ilə də uzun illərdən bəri əməkdaşlıq edir.

2000-ci ildən etibarən Mərkəzi Elmi Kitabxana Amerika Kitabxana Assosiasiyasının (ALA) üzvüdür. Amerika Kitabxana Assosiasiyası dünyanın ən qədim kitabxana qurumudur. 2012-ci ildən Kitabxananın direktoru, filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərli Assosiasiyaya fərdi şəkildə üzv seçilib.

Amerika Kitabxana Assosiasiyası (ALA) beynəlxalq səviyyədə kitabxana işini və kitabxanaçılıq təhsilini təşviq edən, mərkəzi qərargahı Amerika Birləşmiş Ştatlarında yerləşən qeyri-kommersiya təşkilatıdır. 1876-cı ildə Filadelfiyada yaradılan qurumun fərdi üzvlərinin sayı 62000-i ötüb. 2011-ci ildən Mərkəzi Elmi Kitabxana Assosiasiyanın "American libraries" adlı aylıq elmi-kütləvi jurnalını alır. Mərkəzi Elmi Kitabxana eyni zamanda, Amerika Kitabxana Assosiasiyasının bir bölməsi olan Kitabxana və İnformasiya Texnologiyaları Assosiasiyasında da təmsil olunur (LITA).

Beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində Mərkəzi Elmi Kitabxana ilə yanaşı Azərbaycan Milli Kitabxanası və Prezident kitabxanası da son 10 il ərzində kifayət qədər uğurlu nəticələr əldə ediblər.

Milli Kitabxana 2001-ci ildən Avrasiya Kitabxanalar Assambleyasının (BAE), 2003-cü ildən Avropa Milli Kitabxanaları Konfransı təşkilatının (CENL), 2007-ci ildən Türkdilli ölkələrin Milli Kitabxanalar Şurasının və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Kitabxana Direktorları Şurasının üzvüdür. Kitabxana həmin təşkilatların bütün tədbirlərində fəal iştirak etməklə yanaşı, onların həyata keçirdikləri bir sıra layihələrdə də yaxından iştirak edir. Belə layihələrdən Dünya Elektron Kitabxanasını, Avropa Elektron Kitabxanasını, "Europeana" layihəsini, "FUMAQABA" layihəsini, Türkdilli ölkələrin milli kitabxanalarında mühafizə olunan əlyazmaların vahid məlumat bazasının yaradılması kimi irimiqyaslı layihələri misal göstərmək olar [2]. Milli Kitabxananın xüsusən Avropa Milli Kitabxanaları Konfransı təşkilatı ilə əlaqələrini yüksək qiymətləndirmək lazımdır.

Təsadüfi deyil ki, Azərbaycanda kitabxana işi tarixində ilk dəfə olaraq məhz Milli Kitabxananın 90 illik yubileyinə 45-dən artıq xarici ölkənin 60 nümayəndəsi, o cümlədən 4 beynəlxalq kitabxana təşkilatının prezidenti və üzvləri (Avropa Milli Kitabxanalar Konfransı (CENL), Avrasiya Kitabxanalar Assambleyası (BAE), Avropa kitabxanası və Avrasiya Kitabxanaçılar Birliyi) iştirak etmiş, yubiley tədbirləri çərçivəsində III Beynəlxalq Bakı Sərgi yarmarkası, Avropa Milli Kitabxanaları Konfransının (CENL) 27-ci

illik görüşü, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) XV ümumi iclası keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Avropa Milli Kitabxanaları Konfransının (CENL) prezidenti Bruno Rasinini, vitse-prezidentlər Kristina Mari Doffi və Yanna Andressonu, Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidenti Qulisa Balabekovanı qəbul etmiş və onlarla Azərbaycan kitabxanalarının beynəlxalq aləmdəki mövqeyi barədə söhbət etmişdir.

Qeyd edildiyi kimi, son illərdə Prezident Kitabxanasının da beynəlxalq əlaqələri artan xətt üzrə inkişaf etmişdir.

Ayrı-ayrı vaxtlarda IFLA-nın prezidenti xanım Ellen Tise, Çexiya Milli Kitabxanasının baş direktoru Tomaş Böhm, Çexiya Milli Muzeyinin direktoru Mixail Lukeş, OCLC (Onlayn Kompyuter Kitabxana Mərkəzi) təşkilatının MDB ölkələri üzrə əlaqələndiricisi Reyn van Haldropi, Rusiya Dövlət Kitabxanasının baş direktoru Aleksandr Vislıy, M. İ. Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Yekaterina Geniyeva, Yunanıstan Milli Kitabxanasının direktor müavini Antonia Arahova, Avrasiya Kitabxanaçılar Birliyinin başqanı Suna Gercik və başqan yardımçısı Ekrem İşıq, Boris Yeltsin adına Rusiya Federasiyası Prezident Kitabxanasının baş direktoru Aleksandr Verşinin, Litva Respublikasının Martinas Majvidas adına Milli Kitabxanasının baş direktoru Renaldas Qudauskas, "Amerika kitabxanaları" jurnalının keçmiş baş redaktoru Leonard Kriffel və başqaları Prezident Kitabxanasında olmuşlar.

Mərkəzi Elmi Kitabxananın beynəlxalq əlaqələrinin tarixi araşdırmağa davam edərkən, qeyd olunmalıdır ki, 1995-1996-cı illərdə bu sahədə görülən işlər əvvəlki illərlə müqayisədə xeyli artmışdı. Xüsusən, Avropa ölkələrinin elm və təhsil müəssisələri ilə əlaqələr bərpa olunmağa başlamışdı.

Hələ 1990-cı illərin əvvəllərində Azərbaycanda olduğu kimi, bir çox kapitalist ölkələrində də maliyyə çətinlikləri vardı. 1990-cı illərdən Şərqi Avropa ölkələrindən mübadilə üzrə daxilolmaların sürətli azalma dövrü başlamışdı ki, bu da həmin ölkələrdəki siyasi vəziyyətin dəyişməsi ilə bağlı idi.

Bu ölkələr qrupunda qabaqcıl mövqe həmişə Polşaya məxsus olmuşdur. 1991-ci ildə Polşa EA-nın yenidən təşkil edilməsi nəticəsində bu təşkilatdan alınan sənədlərin sayı kəskin azalmışdı. 1980-ci illərin sonunda Polşa EA Elmi Nəşrlərin Yayım Mərkəzindən Mərkəzi Elmi Kitabxanaya 980 nüsxə kitab və jurnal daxil olduğu halda, 1990-cı illərin əvvəllərində 50-dən də az nüsxə daxil olmuşdu.

O dövrdə beynəlxalq kitab mübadiləsi üzrə ədəbiyyat daxilolmalarının sürətlə azalmasına imkan verməmək üçün köhnə müqavilələrin bərpası və kitab mübadiləsi üzrə yeni potensial partnyorların axtarış imkanları tədqiq edilirdi.

1990-1995-ci illər ərzində Respublikada kitab, xüsusilə də elmi nəşrlərin buraxılışı kifayət qədər azalmışdı. Akademik jurnalların buraxılışındakı gecikmələr xarici partnyorlardan gələn reklamasiyaların sayının artmasına gətirib çıxarmış, sifarişlərin yerinə yetirilməsini və ekvivalent mübadilə prosesini xeyli ləngitmişdi. 1996-cı ildən etibarən AMEA Elmi tədqiqat institutlarının maddi-texniki təminatında yaranan dəyişikliklər, həmçinin ölkəyə qabaqcıl çap texnologiyalarının gətirilməsi nəticəsində, tədricən respublikada çap məhsulunun həcmi, o cümlədən elmi nəşrlərin sayı artmağa başladı. Bu da öz növbəsində xaricə ədəbiyyat göndərişlərinin səviyyəsinin nisbətən yüksəlməsinə səbəb oldu.

ƏDƏBİYYAT:

1. Azərbayacan Milli Elmlər Akademiyasının saytı: www.elm.az
2. Azərbaycan Milli Kitabxanası-90: məqalələr məcmuəsi /baş red. və burax. məsul K.Tahirov; red. A.Abdullayeva.- Azərbaycan Milli Kitabxanası.- Bakı, 2013.- 152 s.
3. Əli Abbasov. Rabitə və informasiya texnologiyaları müstəqillik illərində: nailiyyətlər və perspektivlər. Yeni Azərbaycan qəzeti, noyabr, 2012. s. 4
4. О единой политике в области обязательного экземпляра документов: Рекомендательный законодательный акт Межпарламентской Ассамблеи СНГ // Библиотечная Ассамблея Евразии. Информационный бюллетень, - Вып. 4.- М., 1995.- С. 5-17. 111
5. Программа взаимодействия национальных (государственных) библиотек стран СНГ в организации всеобщего доступа к информации по культуре и искусству на 1995 - 2000гг.: Проект // Библиотечная Ассамблея Евразии. Информационный бюллетень.- Вып. 3,- М., 1994.- С. 13-17. 126

Н.Бабаханова

ИНФОРМАЦИОННАЯ СРЕДА В ГОДЫ НЕЗАВИСИМОСТИ И СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНСКИХ БИБЛИОТЕК С МЕЖДУНАРОДНЫМИ ОРГАНИЗАЦИЯМИ (1991-1995 годы)

РЕЗЮМЕ

В статье изложены вопросы развития информационной среды в Азербайджан в 1991-1995-годах. Также освещена история международных отношений Азербайджанских библиотек в данный период.

N.Babakhanova

INFORMATION SOCIETY IN THE YEARS OF INDEPENDENCE AND COOPERATION OF AZERBAIJANI LIBRARIES WITH INTERNATIONAL ORGANIZATIONS (1991-1995 years)

SUMMARY

The article describes the development of the information society in Azerbaijan, in 1991-1995. Also, covered the history of international relations of Azerbaijani libraries in that period.

Əfsunə AĞAVERDİYEVA
"Biblioqrafiyaşünaslıq" kafedrasının magistrantı

AZƏRBAYCAN KİTABXANALARI BEYNƏLXALQ BİBLİOQRAFİK ƏMƏKDAŞLIQ KONTEKSTİNDƏ

Açar sözlər: *biblioqrafik əməkdaşlıq, beynəlxalq biblioqrafik təşkilatlar, beynəlxalq biblioqrafik proqramlar, YUNESKO, Azərbaycan kitabxanaları*

Ключевые слова: *библиографическая сотрудничества, международный библиографических организации, международный библиографических программы, ЮНЕСКО, Азербайджанские библиотеки*

Keywords: *bibliographic cooperation, international bibliographic organizations, international bibliographic programs, UNESCO, Azerbaijan libraries*

Biblioqrafiya sahəsində beynəlxalq biblioqrafik əməkdaşlıq XIX əsrin ikinci yarısında yaranmışdır. Beynəlxalq biblioqrafik əməkdaşlığın inkişafında London Kral Cəmiyyətinin özünəməxsus yeri var. Belə ki, sözü gedən cəmiyyət 1867-ci ildə "Elmi məqalələrin kataloqu" adlı göstəricini nəşr etdirdi. Kataloqa yüz il ərzində bir çox ölkələrin 1,5 min elmi-təbii jurnallarından məqalələrin təsviri daxil edilmişdir. Əgər "Elmi məqalələrin kataloqu" yalnız London Kral Cəmiyyəti tərəfindən nəşr olunmuşdursa, onun davamı olan "Elmi ədəbiyyatın beynəlxalq kataloqu" (1902-1919) bir çox ölkələrin alimlərinin kollektiv əməyinin nəticəsi hesab olunur. Kataloq 1901-1914-cü illər ərzində 34 ölkənin jurnallarındakı məqalələrin və 17 sahə üzrə seriyalı kitabların təsvirini əhatə etmişdir.

XIX əsrin ikinci yarısında bir çox ölkələrdə milli biblioqrafik cəmiyyətlər yaranmağa başladı (2,s.408). Bu cəmiyyətlərin əsas məqsədi müşavirələr keçirməkdən ibarət idi. Fransız biblioqrafik cəmiyyəti 1878, 1888 və 1889-cu illərdə bir çox xarici dövlətlərin nümayəndələrinin iştirak etdiyi beynəlxalq biblioqrafik müşavirələr təşkil etmişdir. Beynəlxalq xarakterli ilk müşavirə P.Otle və A.Lafontenin adı ilə bağlıdır. Məhz onların təşəbbüsü ilə 1895-ci ildə Brüsseldə biblioqrafiya üzrə konfrans keçirildi. Elə həmin ildə Beynəlxalq Biblioqrafiya Bürosu yaradıldı. Bu büro Belçikanın dövlət vəsaiti hasabına yaradılmışdı. Eyni zamanda təsnifat probleminin elmi cəhətdən öyrənilməsi üçün Beynəlxalq Biblioqrafik İnstitut da yaradıldı. P.Otle bu institutun baş katibi və Beynəlxalq Biblioqrafiya Bürosu şürasının üzvü oldu. Sonradan hər iki təşkilat Beynəlxalq Biblioqrafiya İnstitututuna birləşdirildi. 1931-ci ildən isə ismi dəyişdirilərək Beynəlxalq Sənəd İnstitutu oldu. 1938-ci ildə (bəzi qaynaqlarda isə 1937-ci ildə) o, sənədlər üzrə Beynəlxalq Federasiyaya çevrilərək, Brüsseldən Haaqaya köçürüldü.(5,s.108) Beynəlxalq Biblioqrafiya İnstitutunun əsas işi "Dünya biblioqrafik repertuarı" adlanan biblioqrafik kartotekanın yaradılması idi.

Beynəlxalq Biblioqrafiya İnstitutunun əsas şöbələri Parisdə, Londonda və Sürixdə yerləşirdi. Onların əsas işinə "Dünya biblioqrafik repertuarı" üçün tətbiqi elmlər üzrə milli nəşrlərin mükəmməl biblioqrafiyasının tərtibi daxil idi. Dünya repertuarının yaradılmasında əsas mənbələr: ilk növbədə institutun dünyanın bütün ölkələrinin kitabxanalarından və elmi cəmiyyətlərindən hədiyyə kimi aldıqları nəşrlərin özləri və ikincisi də milli və mümkün olan digər biblioqrafiyalar, həmçinin kitabxanaların çap kataloqları idi. İnstitut tərəfindən alınan nəşrlər və sənədlərin qorunması üçün böyük bir kitabxana yaradılmışdı. Hətta institutun nəzdnində sənədlər muzeyi də təşkil olunmuşdu.

1910-cu ildə P.Otlenin başçılığı ilə Brüsseldə III Beynəlxalq Biblioqrafik Konqres keçirildi. Konqres bütünlükdə Brüssel dünya elmi və texniki nailiyyətlər sərgisinə həsr olunmuşdu.

Konqresdən sonra Beynəlxalq Biblioqrafik İnstitutun işi I Dünya müharibəsinin başlanmasına qədər P.Otlenin rəhbərliyi ilə bütün maddi çətinliklərə baxmayaraq davam etdirilirdi. Müharibə dövründə isə institutun fəaliyyəti çox təəssüf ki, dayandırıldı. Lakin bu heç də uzun çəkmədi. Belə ki, 1924-cü ildə institutun tərkibində təsnifat üzrə işi davam etdirmək məqsədi ilə UOT üzrə Beynəlxalq komissiya təşkil edildi. 1927-ci ildə "Universal Onluq Təsnifat " adı alan yenidən işlənilmiş təsnifat sisteminin nəşrinə başlanıldı. Bu nəşr fransız, alman, ingilis, yapon, ispan, portuqal və başqa dillərdə çıxan bir çox nəşrlər üçün əsas oldu. 1933-cü ildən institut P.Otlenin təklifi ilə təsnifat sistemini yenidən işlədi.

Göründüyü kimi, beynəlxalq biblioqrafik əməkdaşlığın və beynəlxalq biblioqrafiyanın yaradılmasında Beynəlxalq Biblioqrafik İnstitutun və onun yaradıcıları olan P.Otle və A.Lafontenin xidmətləri əvəz olunmazdır.

II Dünya müharibəsindən sonra biblioqrafiya sahəsində beynəlxalq əməkdaşlıq xeyli inkişaf etdi. Çünki, dünya miqyasında çıxan çap məhsulları haqqında informasiyaya tələbat durmadan artırdı. Əgər əvvəllər kitab və

jurnalların çox hissəsi yalnız Avropanın və ABŞ-ın böyük ölkələrində nəşr olunurdusa, elm və texnikanın inkişafı ilə əlaqədar olaraq müstəqil dövlətlər, hətta dünyanın geridə qalmış ölkələrində belə nəşrlərin sayı artmağa başladı. Artıq beynəlxalq kitabxana-biblioqrafiya cəmiyyətləri öz qüvvələrini daha qlobal informasiya sistemlərinin yaradılmasına sərf etməyə başladılar. Bu sistemlərin hazırlanmasında YUNESKO-nun rolu kifayət qədər böyük olmuşdur. YUNESKO fəaliyyətinin ilk dövrlərindən başlayaraq əsas diqqəti bütün ölkələrdə cari milli biblioqrafiyanın inkişafına yönəltmişdi. Bundan əlavə YUNESKO bir çox beynəlxalq təşkilatlara, onların işlərinin maliyyələşdirilməsinə də köməklik göstərirdi. Bunların içərisində Kitabxanaçılıq Assosiasiyalarının və İdarələrinin Beynəlxalq Federasiyası (İFLA), Sənədşünaslıq üzrə Beynəlxalq Federasiya (FİD), Elmi İttifaqların Beynəlxalq Şurası (MSNS), Arxivlərin Beynəlxalq Şurası (MSA) və s. YUNESKO bu təşkilatlara bir-birilə bağlı olan bir çox böyük beynəlxalq biblioqrafik proqramların həyata keçirilməsində köməklik göstərir ki, bunların içərisində 1970-ci ildə YUNESKO-nun təşəbbüsü ilə İFLA tərəfindən işlənib reallaşdırılan Beynəlxalq Biblioqrafik Uçot (UBU) proqramı; 1971-ci ildən FİD-in aktiv iştirakı, YUNESKO və MSNS təşəbbüsü ilə həyata keçirilən elmi və texniki informasiya sahəsində əməkdaşlığın beynəlxalq proqramı (YUNİSİST); 1974-cü ildən YUNESKO, FİD, İFLA və MSA tərəfindən yaradılan "Milli İnformasiya Sistemi" (NATİS) proqramı əsas yeri tutur.

UBU proqramı öz qarşısına ölkələr arasında müxtəlif tipli sənədlər, o cümlədən kitablar, dövri nəşrlər, çap olunmayan, audiovizual və maşınla oxunan sənədlər haqqında ümumdünya biblioqrafik informasiya sistemi yaratmaq kimi mühüm vəzifə qoyub. YUNİSİST-in əsas məqsədi sahəvi xarakterli ümumdünya elmi-texniki informasiya sistemi yaratmaqdır. NATİS proqramı isə əslində UBU və YUNİSİST proqramlarının milli elmi-texniki, kitabxana və biblioqrafiya (birinci növbədə universal və sahəvi milli biblioqrafiya) xidmətlərinin inkişafı əsasında həyata keçirilməsində bir vasitə rolunu oynayır. Bütün bu proqramlar informasiyanın işlənməsinin, mühafizəsinin və onun maşınla oxunan daşıyıcılarla mübadiləsinin vahid milli avtomatlaşdırılmış sistemdə birləşdirilməsi ideyasına əsaslanır. (4,s.34)

Müasir dövrdə dünya ölkələri arasında fikir ayrılığı aradan qaldırıldığına görə biblioqrafik fəaliyyət sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsinə böyük imkan yaranmışdır. Müstəqil Azərbaycan Respublikası ilə dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələr getdikcə artır və möhkəmlənir. Mədəni əlaqələrin genişlənməsində kitabxanaların

beynəlxalq əlaqələri mühüm əhəmiyyət kəsb edir. Kitabxanaların beynəlxalq əlaqələri dünya kitabxana-informasiya xidmətidir. Bu əlaqələr XIX əsrin axırlarında meydana gəlmiş və dünya kitabxanaları ilə qarşılıqlı sənəd-informasiya əlaqələrin təşkilində mühüm əhəmiyyət kəsb etmişdir. Müntəzəm olmasa da, müxtəlif dövrlərdə beynəlxalq əlaqələr qurulmuşdur. Belə ki, Azərbaycan Dövlət Kitab Palatası fəaliyyətinin ilk illərində başqa dövlətlərin dövlət kitab palataları ilə əlaqə saxlamışdır. Lakin kitab palatasının bütün cəhdlərinə baxmayaraq 30-cu illərdə bu əlaqələr kəsilmişdir. SSRİ dövründə isə kitabxanaların beynəlxalq əlaqələrinin təşkili faktiki olaraq nəzarət altına alınmış, beynəlxalq əlaqələri ancaq icazə verilən kitabxanalar apara bilmişlər (3,s.139).

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1992-ci il iyunun 3-dən BMT-nin iri ixtisaslaşdırılmış təşkilatı olan YUNESKO-nun üzvüdür. Bunlardan əlavə 2000-ci il avqustun 13-19-da İsrailin paytaxtı Yerusəlimdə dünyanın 140-dan çox ölkəsinin təmsil olunduğu İFLA-nın 66-cı Baş konfransında Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası bu təşkilatın üzvlüyünə rəsmi şəkildə qəbul olunmuşdur. Beynəlxalq təşkilatlara əhəmiyyətli üzvlük beynəlxalq əməkdaşlıq sahəsində geniş perspektivlər yaradır. Belə ki, çox əhəmiyyətli bu məsələ Azərbaycan Respublikasının qanunvericiliyində də öz əksini tapıb. 1998-ci ildə qəbul olunmuş "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nun 33-cü maddəsi "Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq" adlanır. Qanunda deyilir : kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr əsasında həyata keçirilir. Bundan başqa bildirilir ki, kitabxanalar və kitabxana işi sahəsində ictimai birliklər beynəlxalq kitabxana təşkilatları, xarici ölkələrin kitabxanaları və kitabxana işi sahəsində ictimai birlikləri ilə əməkdaşlıq edə bilərlər. (1,s.16)

Bu gün Azərbaycanda beynəlxalq biblioqrafik əməkdaşlıq durmadan inkişafdadır. Ölkəmizdə görkəmli alimlər tərəfindən bu sahə üzrə müxtəlif səpkili məqalələr yazılır. Bu məqalələrin yazılmasının əsas səbəbi isə həmin şəxslərin bilavasitə iştirakçısı olduğu simpoziumlar və konfranslardır.

Respublikamızda beynəlxalq biblioqrafik əməkdaşlığın inkişafında yerli kitabxanaların da əvəzedilməz rolu vardır. Məlumdur ki, respublikamızda ən böyük kitabxana sistemi Mədəniyyət və Turizm Nazirliyinə məxsusdur. Nazirliyin kitabxana şəbəkəsi dövlət kitabxana şəbəkəsi hesab edilir. Onun qarşısında duran əsas vəzifələrdən biri kitabxanalar arasında qarşılıqlı və beynəlxalq əlaqələrin yaradılmasıdır. Milli kitabxananın bu

istiqamət üzrə fəaliyyəti xüsusilə diqqətə layiqdir. Belə ki, M.F.Axundov adına Milli Kitabxana 1995-ci ildən Beynəlxalq Kitabxanalar Təşkilatının (İFLA), 2001-ci ildən Avrasiya Kitabxanalar Assambleyasının (BAE), 2003-cü ildən Avropa Milli Kitabxanalar Konfransı təşkilatını (CENL), 2007-ci ildən Türkdilli ölkələrin milli kitabxanaları Şurasının və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Kitabxanaları Direktorlar Şurasının üzvüdür. Kitabxana bu beynəlxalq təşkilatların keçirdiyi tədbirlərdə, onların keçirdiyi layihələrdə yaxından iştirak edir. Bu layihələrə Dünya Elektron Kitabxanasını (WDL), Avropa Elektron Kitabxanasını (The European Library), "FUMAQABA" layihəsini nümunə göstərmək olar. Kitabxana həmçinin ikitərəfli qarşılıqlı əməkdaşlıqda da iştirak edir. Belə ki, kitabxana əməkdaşlıq etdiyi kitabxanalarla bir sıra müqavilələr imzalayır. İlk belə müqavilələr 90-cı illərə təsadüf edir. Kitabxana ilk müqavilələrini 1994-cü ildə Türkiyə Milli Kitabxanası ilə, 1999-cü ildə isə Misir Ərəb Respublikasının "İskəndəriyyə" Kitabxanası ilə imzalamışdır. Milli Kitabxana hazırda dünyanın 20 ölkəsinin milli kitabxanaları ilə əməkdaşlıq etməkdədir. 2009-cu ildə Bakı şəhərində YUNESKO və İSESKO tərəfindən İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar bu tədbir çərçivəsində "İslam mədəniyyəti kitab səhifələrində" adlı möhtəşəm kitab sərgisi də təşkil olunmuşdu.(6,s.36) Milli Kitabxananın xüsusi önəm verdiyi məsələlərdən biri də beynəlxalq miqyasda kitabxana işçilərinin təcrübə mübadiləsidir. 2009-cu ilin sentyabrında təcrübə mübadiləsi məqsədilə Milli Kitabxananın mütəxəssisləri İsveçrə Milli Kitabxanasında olmuşlar. 2010-cu ilin iyununda isə Milli Kitabxananın əməkdaşları Estoniyaya səfər etmişlər. Məqsəd yenə də təcrübə mübadiləsi olub. Bu səfər daxilində Estoniya Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır. O, həmçinin Beynəlxalq kitab mübadiləsini həyata keçirir. Beynəlxalq kitab mübadiləsi "kitabı-kitaba dəyişmək" yolu ilə həyata keçirilir. Bu gün M.F.Axundov adına Milli kitabxana 60-dan artıq ölkənin milli kitabxanaları ilə xarici ədəbiyyat mübadiləsini həyata keçirir. Mədəniyyət və Turizm Nazirliyi sistemində fəaliyyət göstərən F.B.Köçərli Respublika Uşaq Kitabxanası Volqoqrad Vilayət Uşaq Kitabxanası ilə 18 mart 2011-ci il tarixində internet vasitəsilə telekörpü yaratmış və bu yolla qarşılıqlı iş təcrübəsinin aparılması planlaşdırılmışdır. Həmçinin, Nazirliyin təşkilati və maliyyə dəstəyi ilə Azərbaycan nümayəndə heyəti "Krım-2011" Beynəlxalq kitabxana konfranslarının işində iştirak etmişlər. Azərbaycan kitabxana mütəxəssisləri İ.Qaspirinski adına Krım-tatar kitabxanasının türk

dünyasının aşıq poeziyasının nümayəndəsi Aşıq Ömərin anadan olmasının 390 illik yubileyi ilə əlaqədar "Şair doğulmuşam mən..." mövzusunda keçirilən tədbirdə iştirak etmiş və burada məruzə ilə çıxış etmişlər. 2012-ci ilin 12-16 noyabr tarixində Nazirliyin dəstəyi ilə Azərbaycan kitabxanaları "LİBKOM – 2012" beynəlxalq konfransında iştirak etmişlər. Konfrans zamanı kitabxana-informasiya sahəsinin prioritet istiqamətlərinə dair maraqlı seminar və dəyirmi masalar keçirilmiş, debatlarda sözügedən sahə üzrə respublikamızda aparılan islahatlar, dövlət siyasəti və kitabxanaların avtomatlaşdırılması məsələləri müzakirə olunmuşdur. (8)

Respublikamızda əhaliyə kitabxana xidmətinin təşkili sistemində Təhsil Nazirliyinin kitabxana sisteminin də özünəməxsus mövqeyi vardır. Nazirliyin kitabxana sistemində 5 minə yaxın kitabxana fəaliyyət göstərir. Təhsil kitabxanaları içərisində ali məktəb kitabxana şəbəkəsinin rolu da bir başqadır. Azərbaycanın müstəqilliyi illərində ali məktəb elmi kitabxanalarının inkişaf səviyyəsi artmışdır. Gəlin razılaşaq ki, ali məktəb elmi kitabxanaları içərisində BDU-nun Elmi kitabxanası qocamanlığı, nəhəngliyi, qabaqcıl elm təcrübəsi və inkişaf sürətinə görə digərlərindən köklü şəkildə fərqlənir. Elmi kitabxana təkcə inkişaf səviyyəsi ilə deyil, həmçinin beynəlxalq əlaqələrin çoxşaxəliliyi ilə də fərqlənir. Belə ki, BDU-nun Elmi kitabxanasının direktoru Sara İbrahimova 1991-ci ildə İFLA-nın iclasında iştirak etmişdir. Elmi kitabxananın beynəlxalq əlaqələrinin inkişafı BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsilə də bağlıdır. 1999-cu ildə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası təsis edilmişdi. Qeyd etmək lazımdır ki, ölkəmizi İFLA-da məhz Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası təmsil edir. Avrasiya fondunun dəstəyi ilə gerçəkləşmiş "Qafqaz" Treninq layihəsi və Avropa Şurasının Tasis proqramı çərçivəsində həyata keçirilən "Universitetlərin modernləşməsi" proqramı BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq əlaqələrinin inkişafında mühüm əhəmiyyət kəsb edir.

AMEA-nın MEK-sı fəaliyyətinin bütün dövrlərində beynəlxalq elmi əlaqələrin yaradılmasına və daha da genişləndirilməsinə böyük əhəmiyyət vermişdir. Beynəlxalq kitab mübadiləsinə daha çox önəm verən kitabxana məhz bu yolla fondunu zəngin xarici ədəbiyyatla zənginləşdirir.(7) Bu sahədə "Qərbi Avropa Ədəbiyyat" (1967) və "Şərq Ədəbiyyatı " (1971) şöbələri aparıcı rol oynayırlar. "Qərbi Avropa Ədəbiyyat" şöbəsi dünyanın 40-dan çox ölkəsi ilə əməkdaşlıq edir. Bu ölkələr içərisində isə ABŞ birinci yeri tutur. Bir müddət öncə Alman Tədqiqat Cəmiyyəti ilə xüsusi proqram

çərçivəsində əməkdaşlıq nəticəsində kitabxananın fondu dəyərli bir nəşrlə-Qmelinin 734 cildlik "Kimya məlumat kitabı" ilə daha da zənginləşmişdir.

AMEA MEK-nın fondunun zənginləşməsinə xidmət edən digər bir şöbə "Şərq Ədəbiyyatı Şöbəsi"dir. Şöbə ABŞ, İraq, Küveyt və başqa ölkələrlə beynəlxalq kitab mübadiləsini həyata keçirir. Gördüyümüz kimi, AMEA MEK-sı sözün əsl mənasında respublikada beynəlxalq kitab mübadiləsi mərkəzidir. Kitabxana beynəlxalq əlaqələrini günü-gündən genişləndirir və beynəlxalq təşkilatlarda respublikamızı layiqincə təmsil edir.

Apardığımız araşdırmalar göstərdi ki, dünya kitabxanaları arasında beynəlxalq və mədəni əlaqələrin formalaşmasında beynəlxalq biblioqrafik əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Əməkdaşlığın formalaşmasında və zənginləşməsində tarixən formalaşmış beynəlxalq səviyyəli təşkilatlar həmişə mühüm rol oynamışlar. Beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan kitabxanaları da mühüm işlər görür, bir sıra xarici ölkələrin kitabxanaları ilə əməkdaşlıq edirlər. Bu baxımdan Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan kitabxanaların, M.F.Axundov adına Milli Kitabxananın, BDU-nun Elmi Kitabxanasının və AMEA-nın MEK-nın fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

ƏDƏBİYYAT

1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal. -1999.- №.1.-S.3-16
2. Aslan.K. Dünya kitabxanalarının tarixi. Dərs vəsaiti.- Təkmilləşdirilmiş 2-ci nəşr. -Bakı:BUN,2010.-448 s.
3. Əliyev Z. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik.-B.:BUN,2007.-185s.
4. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.-B.:BUN, 2001.-145s.
5. Mütəllibova S. Beynəlxalq biblioqrafik əməkdaşlığın yaranması tarixindən //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal.-2002.- №.1.-S.107-112
6. Tahirov K. M.F.Axundov adına Milli Kitabxananın Beynəlxalq Əlaqələri //Kitabxanaşünaslıq və informasiya:elmi-nəzəri və praktiki jurnal.-2011.-№1(4).-S.32-39

7. www.csl-az.com
8. mct.gov.az

А.Агавердиева

АЗЕРБАЙДЖАНСКИЕ БИБЛИОТЕКИ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫМ БИБЛИОГРАФИЧЕСКИМ СОТРУДНИЧЕСТВЕ

РЕЗЮМЕ

В статье рассказывается об развитии и современная состаяание международного сотрудничества в области библиографии.

Также рассказывается о развитии и расширении международных связей, развитии книгообмена,о новых взаимосвязях Азербайджанской Национальной Библиотеки им. М.Ф.Ахундов. И анализируется международный обмен ЦНБ НАНА.

A.Agaverdieva

AZERBAIJAN LIBRARIES IN THE CONTEXT OF INTERNATIONAL BIBLIOGRAPHIC COOPERATION

SUMMARY

İn article is talking about development of the international bibliographic cooperation and present situation in the bibliograhy area.

Also, talking about extension and development of international relations, promotion of book exchange, and establishment of new mutual relations of Azerbaijan National Library. And analyzed the international book exchange of the central scientific library of the academy of sciences of Azerbaijan.

Tahirə BAĞIROVA
filologiya üzrə fəlsəfə doktoru

KLASSİK AZƏRBAYCAN ŞAİRİ HÜSEYN CAVİDİN ƏDƏBİ İRSİNİN NƏŞR TİPLƏRİ

Açar sözlər: *Azərbaycan, H.Cavid, əsər, nəşriyyat, şairin əsərləri, çap edilmiş, oxucu kütləsi, mədəni, xalq, nəşr, nəşr tipləri*

Ключевые слова: *Азербайджан, Г. Джавида, статьи, публикации, произведения поэта, была опубликована, читатели, культурной, общественной, опубликованные, виды издательской*

Key words: *Azerbaijan, H. Javid, articles, publishing, the poet's works, was published, readers, cultural, public, published, broadcast types*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mənzum dram janrının banisi H.Cavid XX əsr Azərbaycan romantizminin nəhəng simasıdır. Şair-dramaturq mürəkkəb bir həyat və yaradıcılıq yolu keçmiş, xalqımıza misilsiz bir irs qoyub getmişdir. Ömrü boyu həqiqəti vəsf edən və daim həqiqət axtaran, öz doğma xalqını xoşbəxt, yüksək görmək arzusu ilə yaşayan bu humanist ruhlu şairin yaradıcılıq qayəsi və ideyaları bu gün də aktualdır.

Azərbaycan klassik ədəbiyyatının tipologiyasında klassik yazıçıların əsərlərinin tipologiyasının yerini müəyyənləşdirməkdə H.Cavidin əsərlərinin tipologiyasının aydınlaşdırılmasının da böyük kitabçılıq işi əhəmiyyəti vardır.

H.Cavidin əsərlərinin tipoloji cəhətdən nəşrinin araşdırılması göstərdi ki, şairin əsərlərinin nəşri ədəbi-bədii kitabın tipologiyasının qanunauyğunluğuna, prinsipinə uyğun şəkildə həyata keçirilib.

Ümumiyyətlə, şairin əsərləri 1904-cü ildən müxtəlif qəzet, jurnal və məcmuələrdə: "Şərqi-Rus", "İrşad", "Füyuzat", "Həqiqət", "İttifaq", "Tərəqqi", "Məktəb", "Yeni irşad" və s. dərc edilmişdi.

H.Cavidin 1904-1920-ci illərdə dövri mətbuat və məcmuələrdə 55-dən çox şeiri dərc olunmuşdu .

Şairin əsərləri əsasən "Füyuzat", "Məktəb", "Molla Nəsrəddin", "Qurtuluş", "Maarif və mədəniyyət", "Şərq qadını", "İnqilab və mədəniyyət", "Ulduz" və s. jurnallarda və məcmuələrdə 1907-ci ildən dərc edilməyə başladı. 1919-1920-ci illərdən şarin ayrı-ayrı əsərləri dərsliklərdə, müntəxəbatlarda dərc edilmişdir. Ayrı-ayrı dərsliklərdə, müntəxəbatlarda dərc edilən əsərləri Hüseyn Cavidin ədəbi irsinin daha dərindən mənimsənilməsinə, təbliğinə və yayılmasına imkan vermişdir. Hüseyn Cavidin əsərləri A.Şaiq və M.Mahmudbəyovun "Müntəxəbat"ında (1919), "Bir qız" adlı şeiri, A.Ş.Talıbzadənin "Milli qiraət" dərsliyində "Öksüz", "Ənvər" şeirləri (1922-ci illərdə), Abdulla Şaiqin "Türk ədəbiyyatı" (1924) kitabında şairin "Bakıda" şeiri, A.Şaiqin "Qiraət kitabı"nda (1924), "Çiçək sevgisi" şeiri, yenə A.Şaiqin "Türk ədəbiyyatı" kitabında "Hərb və fəlakət" şeirindən bir parça, F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları (I C., I hissə)" kitabında 1925-ci ildə "Bakıda", "Hərb və fəlakət" adlı şeirləri, "Ədəbiyyatdan iş kitabı"nda "Şeyda" pyesindən bir parça" 1932-ci ildə, M.Arif və Ə.Sultanlının "Ədəbiyyat müntəxəbatı"nda 1933-cü ildə "Azər"dən parçalar, "İblis" pyesindən bir hissə, "Məsud və Şəfiqə" adlı şeir, "Şeyda" pyesindən bir hissə və s. dərc edilmişdir.

Hüseyn Cavidin ayrı-ayrı əsərləri Türkiyə mətbuatında (1906-cı ildən, "Elmi-bəşər" adlı şeirilə), Litva mətbuatında da və s. dərc edilmişdir.

Fevral ayında Tiflis gürcü şirkəti mətbəəsində onun 1910 – cu ildə yazdığı "Ana" pyesi, may ayında isə "Şərq" mətbəəsində "Keçmiş günlər" adlı ilk şeir məcmuəsi nəşr olunur. Burada şairin həqiqətən keçmişdə, 1905-1909-cu illərdə yazdığı bəzi şeirləri toplanmışdı.

"Ana" və "Keçmiş günlər"i Cavid 1911-ci ildə Tiflisə gələrkən nəşriyyata vermiş, ancaq əsərlər sonra 1913-cü ildə nəşr edilmişdir. Bu müəllifin ilk şeirlər kitabıdır.

H.Cavidin 1905-1916-cı illərdə yazmış olduğu şeirlərini özündə təmsil edən "Bahar şəbnəmləri" məcmuəsi və "Maral", "Şeyx Sənan", "Şeyda" adlı dram əsərləri 1917-ci ildə Bakıda "Açıq söz" qəzetinin mətbəəsində çapdan çıxmışdır.

H.Cavid 1912-ci ildə Tiflisdə ikən başladığı "Şeyx Sənan" faciəsi üzərində həvəslə işləyirmiş. 1914-cü ilin birinci yarısında da şair "Şeyx Sənan" üzərində çalışmışdır. Bu faciənin bir çox variantı olmuşdur. Son variant 1914-cü ilin axırlarında yazılıb qurtarmışdır.

1917-ci ildə may ayında "Qardaş köməyi" məcmuəsində Cavidin yanvar ayında yazdığı "Hərb və Fəlakət" şeiri çıxır. Həmin ildə şair "Uçurum" faciəsini bitirir.

H. Cavid 1918-1920-ci illəedə "İblis" faciəsi üzərində işləmiş, öz sənətini sevmiş və mövcud olan çox sayda mövzulardan ruhuna və sənətinə

ən çox uyğun gələni səssiz – səmirsiz yazır, əsəri kamil şəkildə bitirdikdən sonra nəşr olunmasına səy göstərirdi.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra yeni dövr başlanır. 1920-1925-ci illərdə Cavid Azərbaycan Dövlət darülfünunda müəllimlik edir. Azərbaycanda yeni, azad həyat Cavid yaradıcılığına çox müsbət təsir göstərmişdir.

1926-cı ildən başlayaraq yaradıcılığında və görüşlərində ciddi dönüş əmələ gəlir. Bu zaman H.Cavid həyatda və şüurunda əmələ gələn yenilikləri xalqın mədəni inqilab uğrunda mübarizəsini əks etdirən "Azər" poemasından parçalar nəşr etdirir.

1930-cu ildə H.Cavid Cənubi azərbaycanlılırın azadlıq uğrunda mübarizəsindən bəhs edən "Telli saz" dramını yazır. Ümumiyyətlə, 1929-1937-ci illər Cavid yaradıcılığının ən məhsuldar dövrü olur. Şair bir-birinin ardınca "Səyavuş" (1933), "Şəhla" (1934), "Xəyyam" (1935), "İblisin intiqamı" (1936) və başqa əsərlərini yaradır.

Məlum olduğu kimi, Böyük Oktyabr Sosialist inqilabından əvvəl Cavidin əsərlərinin cüzi bir hissəsi çap olunmuş, dramlarından heç biri səhnə üzü görməmişdi.

Azərbaycanda sovet hakimiyətinin ilk illərindən başlayaraq dramaturqun əsərləri böyük tirajlarda nəşr olunaraq oxuculara təqdim edilmişdir.

Sovet hakimiyyəti illərində şair – dramaturqun "Peyğəmbər" (1923, 1926), "İblis" (1924, 1927), "Şeyda" (1925), "Şeyx Sənan" (1926), "Uçurum" (1926), "Topal Teymur" (1926) dram əsərləri ayrıca kitab halında çap edilmişdir.

Dramaturqun nəsrlə yazdığı dörd pərdəli "Afət" pyesi ilk dəfə "Maarif və mədəniyyət" jurnalının 1925-ci il 3-cü və 1926-vı il 1,2,3,4-cü nömrələrində hissə-hissə dərc edilmişdir.

Istedadlı sənətkarın 1926-cı ildən başlayaraq müxtəlif adlarda cıxan dövri mətbuatda "Maarif və mədəniyyət", "Şərq qadını", "İnqilab və mədəniyyət" və s. dərc edilən "Azər" dastanı onun yaradıcılığındakı böyük dönüş idi. Əsər 1926-1936-cı illər arasında yazılmış, lakin tamamlanmamışdır. "Azər"dən parçalar 1933-cü ildə çıxan "Ədəbi almanax" məcmuəsinə, 1933 və 1936-cı illərin ədəbiyyat müntəxəbatı dərsliklərinə daxil edilmişdir.

H.Cavid yaradıcılığının ən məhsuldar dövrü olan 1930-1937-ci illərdə şair "Azər"dən başqa "Telli saz", "Knyaz", "Səyavuş", "Şəhla", "Xəyyam" və "İblisin intiqamı" dramlarını və bir sıra yeni şeirlərini yazmışdır.

H.Cavidin 1958-ci ildə nəşr olunmuş "Seçilmiş əsərlər"ə akad. M.C.Cəfərov "Hüseyn Cavid" adlı iri həcmli giriş (S.3-27) məqaləsi yazmışdır.

Alim öz giriş məqaləsində şairin əsərlərinin nəşri tarixinə, dil və üslub xüsusiyyətlərinə çox cüzi yer vermişdir. M.Cəfər yazır ki, 1920-ci ildə Cavid 15 il müddətində yazdığı əsərlərdən ancaq iki kiçik şeir məcmuəsi, "Ana", bir də "Maral" dramını ayrıca kitab şəklində nəşr etdirə bilmişdir.

Sovet hakimiyyəti illərində isə təkcə 4 il müddətində (1926-1930) şairin səkkiz kitabı nəşr edilmişdi.

H.Cavid görkəmli bədii söz ustadı Ə.Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazdığı beş pərdəli mənzum "Səyavuş" faciəsini Firdovsinin anadan olmasının 1000 illik yubileyinə ithaf etmişdir.

H.Cavidin əsərləri 1957-ci ilə qədər nəşr edilməmişdir. Bunun səbəbi şairin əsassız həbs edilməsidir. Belə ki, 1937-ci il iyunun 3-də Azərbaycan K (b) P-nin XIII qurultayında Cavidə "Gizli millətçi əksinqilabi təşkilat"da iştirakına görə ittiham irəli sürülmüşdür. 1956-cı il mart ayının 6-da Azərbaycan SSR Ali Məhkəməsinin hökmünə görə Cavidə bəraət verilmişdir. Mənəvi repressiyanın qurbanı olan H.Cavidin əsərləri bəraət aldıqdan sonra nəşr olunmağa başlayır.

Beləliklə də, 1957-ci ildə H.Cavidin "Ana" dramı çap edildi. 1958-ci ildə "Azərnəşr" tərəfindən H.Cavidin "Seçilmiş əsərlər"inin nəşri də diqqətəlayiqdir.

H.Cavidin 1958-ci ildə çap edilmiş "Seçilmiş əsərlər"inin tirajı 20.000 nüsxə olmuşdur.

Şairin "Seçilmiş əsərlər"inin çap edilməsində məqsəd H.Cavidin ən yaxşı əsərlərini geniş oxucu kütləsinə çatdırmaq olmuşdur.

ƏDƏBİYYAT

1. Cəfər M. "Hüseyn Cavid" Bakı, Azərnəşr, 1960, 263 s.
2. Şərif Ə. "Keçmiş günlərdən xatirələr" (Xatirələr) Bakı, Azərnəşr, 1977, 302s.
3. "Hüseyn Cavid: Həyat və sənət yolu" (Biblioqrafik göstərici). Tərtib edənlər: N.Əfəndiyeva, A İsmayılova, Z. Teyyubova. Bakı, Elm, 2005, 240s.
4. Cavid H. "Keçmiş günlər" , şeirlər məcmuəsi, Tiflis, Şərq mətbəəsi, 1913, 24s.

5.. Nəcəfova M.H. "Cavid əsərlərinin nəşri və səhnə tarixinə dair" "Qobustan" toplusu, 1983, № 2, s.13-17
6. Cəfər M. "Hüseyn Cavid" Bakı, Azərnəşr, 1960, 263 s.
7. Cavid H. "Seçilmiş əsərləri" Bakı, Azərnəşr, 1958, 66s.

Т.А.Багирова

ИСТОРИЯ ИЗДАНИЙ ПРОИЗВЕДЕНИЕ ГУСЕЙНА ДЖАВИДА (1904 - 1958)

РЕЗЮМЕ

В статье обобщаются особенности развитие издательских произведений классика азербайджанской литература Г.Джавида. В резюме дается также ряд рекомендаций и предложений в деле повышения уровня изданий произведений выдающихся азербайджанской поэта Г.Джавида сообразно современным требованиям.

T.A.Baghirova

HISTORY OF WORK PUBLICATIONS OF HUSEYN JAVID (1904 - 1958)

SUMMARY

The article summarizes the development of the publishing features of works of classic of Azerbaijani literature H. Javid. In summary, it is given a number of recommendations and suggestions in improving the standard of editions of works by prominent Azerbaijani poet H.Javid according to modern requirements.

Aygün HACIYEVA
AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı,
Azərbaycan Milli Kitabxanası "Nadir kitablar və kitabxana muzeyi" şöbəsinin böyük elmi işçisi

BİBLİOMETRİK TƏDQİQAT İSTİQAMƏTLƏRİ, BİBLİOMETRİK ÜSULLAR

Açar sözlər: *Bibliometriya, bibliometrik tədqiqat, bibliometrik üsullar, bibliometrik yanaşma, sadə bibliometriya, struktur bibliometriya*

Ключевые слова: *Библиометрии, bibliometrik исследования, bibliometrik методы, bibliometrik подход прост, библиографическими, Библио структура*

Key words: *bibliometrics, bibliometric investigation, bibliometric methods, bibliometric approach, simple bibliometrics, structural bibliometrics*

Alim və mütəxəssislərin yaradıcılığının obyektiv qiymətləndirilməsində müasir üsulların tətbiqi elm üçün xüsusi əhəmiyyətə malikdir. Bu gün elmi müəssisələr üçün effektiv funksiyalaşdırma məqsədilə xüsusi tədqiqatlara əsaslanmaq lazımdır. Gələcəkdə toplanmış nailiyyətlərin təhlili, bu əsasda əsas istiqamətlərin, tendensiyaların və inkişaf perspektivlərinin proqnozlaşdırılmasını, elmi potensialın qiymətləndirilməsini həyata keçirmək vacibdir.

Elmi informasiyanın proqressiv inkişafı şəraitində yeni mexanizmlərin işlənməsi, istifadəsi onun quruluşunun təhlili və qiymətləndirilməsi üçün daha aktualdır. Dünya elmində bu və ya digər elmi istiqamətin inkişafı və miqdar şəklinin alınmasına, elmi tədqiqatların effektiv öyrənilməsinə istiqamətlənmiş müxtəlif üsul, yanaşma və texnologiyaların xeyli ehtiyatı toplanmışdır. Mövcud olan bu ehtiyatı həmin problemin tədqiqinə müxtəlif elm sahələrinin nümayəndələri (elmşünaslar, sosioloqlar, kitabxanaşünaslar və s.) gətirdilər.

Elmin öyrənilməsində son 10 ildə fəal şəkildə genişləndirilmiş yanaşmalardan, bəzi sənəd axını elementlərinin hesablanması, əlaqələndirilməsi, izah edilməsi və müqayisəsində əsas mahiyyət kəsb edən bibliometrik üsul-

lardan nisbətən çox istifadə olunur. Onlar ölkələr, regionlar, şəhərlər və ya institutlar miqyasında alimlərin nəşr fəallığı haqqında miqdari informasiya əldə etməyə imkan yaradır, elmi məhsuldarlığın müqayisəli təhlili üçün istifadə edilir.

Bibliometrik tədqiqatların köməyi ilə əldə olunan məlumatlar müxtəlif qiymətləndirmə proseslərində effektli şəkildə tətbiq edilir, bu və ya digər elmi istiqamətin inkişafı və ya tənəzzülünü təyin etməyə imkan verir. Halhazırda onların tətbiqi imkanları böyükdür. Müxtəlif informasiya resurslarından istifadə etməklə kifayət qədər operativ təhlil aparmaq və dəqiq kəmiyyət göstəricilərini əldə etmək mümkündür (5,s.77).

Xarici ədəbiyyatda kəmiyyət tədqiqatları və ya onların ayrı-ayrı istiqamətləri bəzən bibliometrik tədqiqatlar adlanır. Biblioqrafik statistikann ifadə edilməsi üçün təklif olunan "bibliometriya" termini kitabxanaşünaslıq və informatikada gniş istifadə olunur (4,s.20).

Elmin metodologiyasına dair işlərdə kəmiyyət metodları bəzən "metrik, say" və s. kimi ifadə olunur (6,s.234).

Yeni elmi istiqamətin – bibliometriyanın əsaslarının formalaşması XX əsrə təsadüf edir və sənəd axınının kəmiyyət göstəricilərinin öyrənilməsi ilə bağlıdır. Bununla yanaşı, inkişaf dövrü müddətinin çatışmamasına, saysızhesabsız tədqiqatlara baxmayaraq, bibliometriyaya dair nəzəri sualların müzakirəsi maraqlı iş kimi qalır.

Bibliometriya haqqında çətin bir şey haqqında danışırmış kimi danışmaq XX əsrin 90-cı illərinin I yarısına təsadüf edir. Hazırda isə bibliometrik üsullar biblioqrafik olmayan genetikasına baxmayaraq, biblioqrafiyaşünaslığın strukturunda xüsusi yer tutur.

Bibliometrik üsulların köməyi ilə tədqiqat işinin intensivliyi və xarakteri kəmiyyətə, səpələnməsinə və cəmləşdirilməsinə görə müəyyənləşdirilir.

Elmin təhlilinin bu istiqamətində 2 tərəfi qeyd etmək lazımdır:

1. Bibliometrik yanaşmada, müxtəlif məlumat bazalarında, hər şeydən əvvəl isə Elmi İnformasiya İstitutunun – İSİ (İnstitute of Science İnformation) məlumat bazalarında təqdim olunan II növ, təkrar informasiyanın asan əldə olunan nəhəng sahəsi istifadə oluna bilər;
2. Bibliometriya özündə problemlər haqqında dəqiq məlumatın əldə olunmasına istiqamətlənmiş miqdar, kəmiyyət araşdırmalarını deyil, elmin inkişafının əhəmiyyətli monitorinqi ilə bağlı olan tendensiyaların, fikir və ideyaların, xüsusən uzunmüddətli fikirlərin aşkara çıxarılmasını ifadə edir.

Elmin tədqiqinə bibliometrik yanaşma, elmin vəziyyətinin bütünlükdə və onun ayrı-ayrı sahələrinin tədqiqində informasiyanın sənəd axınının kəmiyyət göstəricilərini istinad kimi tələb edir.

İnformasiya axınının kvantifikasiyasına 2 yol, yanaşma mümkündür:

1. I yol - "sadə bibliometriya, ayrı-ayrı tədqiqat obyektlərinin(nəşrlərin, müəlliflərin, nəşrlərdəki açar sözlərin, onların ölkələr üzrə, elmi jurnalların rubrikaları üzrə bölüşdürülməsi və s.) dinamikası izlənilən, öyrənilən vaxt;
2. II yol – "struktur bibliometriya", obyektlər arasında əlaqələrin aşkara çıxarıldığı, onların müqayisəsi və təsnifləşdirilməsi vaxtı.

Elmin bibliometrik tədqiqatlarında I yanaşma (XX əsrin 60-70-ci illəri) nəşr massivlərinin kvantifikasiyası məsələsinin birbaşa həlli ilə bağlı idi: biliyin müxtəlif sahələrinin tədqiqatçıları, xüsusən elmşünaslar biblioqrafik materialların ölkələr, jurnalların rubrikaları, müəlliflər və s. üzrə statistikasını öyrənməklə tədqiq olunan obyektin əhəmiyyəti haqqında nəticə əldə etməyə çalışmışlar: alimin məhsuldarlığı, bu və ya digər nəşrlərin elmi effektivliyi, ölkənin elmi potensialı və s. Bu üsulla bibliometrik tədqiqatlarda I yanaşma elmdə bu və ya başqa təzahürün, şərhin, hadisənin qiymətləndirilməsi üçün miqdar xüsusiyyətlərinin alınması, əldə olunması ilə bağlıdır.

İnformasiya axınının kvantifikasiyasına I yanaşma çərçivəsində alınmış bibliometrik tədqiqatlardakı vacib nəticələr bir qayda olaraq gələcək, sonrakı öyrənilməyə ehtiyac duyur. Bibliometrik təhlil ilə məşğul olan tədqiqatçılarda tədqiqat obyektlərinin kəmiyyət qiymətləndirilməsi yarandıqca (adətən əksər elmin bibliometrik tədqiqatları bununla məhdudlaşır) tez-tez əldə olunan nəticələrin semantik, bəzən isə sosial izahı, interpretasiyası vacib olur. Əgər nəşrlərin rubrikalara görə bölünməsinin öyrənilməsi onların hər hansı sahədə miqdarının genişlənməsi ilə müşahidə olunursa, onda tamamilə ədalətli nəticə əldə olunur: bu sahələr məşhurdur. Əslində isə bu işlənmiş mövzunun (məsələn, enerjinin yeni növlərinin axtarışı, dərman vasitələrinin və s.) sosial sifarişi və ya vacibliyi deməkdir, ya da nəşrlərin miqdarının genişlənməsi keçmiş mərhələdəki elmi dağılma, yayılmanı təklif etmişdir (məsələn, vacib elm açılış-stimullaşdırılmış yayılmanın, şüanın əmələ gəlməsi-təcrübi işlərin seriyasını yaratdı: müxtəlif tiplərin lazerləri), ya da bu dəbdir? (xüsusən humanitar elmlərdə)

Qeyd etmək lazımdır ki, bibliometrik obyektin tədqiqinin seçilməsindən asılı olaraq elmin vəziyyətinin müxtəlif dinamik şəkillərini əldə etmək olar. Əgər bibliometrik təhlildə tədqiqat obyekti kimi rubrikalar sistemi seçil-

mişdirsə, onda bu sistem daxilində nəşrlərin səpələnməsi, bölüşdurulməsini yaddan çıxarmaq olmaz. Çünki məntiqi təsnifləşdirmə az-az dəyişmək xüsusiyyətinə malikdir, həmçinin bu cür rubrikalaşdırma dəqiq müəyyən edilmişdir.

Bibliometrik tədqiqatlarda kvantifikasiyanın leksika əsasında həll olunan o məsələsini gözləmək olar ki, nəşrlərin müəllifləri artıq təsnifat cədvəlinə bağlı deyillər və öz fikirləri ilə dilin lüğət ehtiyatından istifadə edirlər.

Elmin tədqiqində bu 2 bibliometrik yanaşmanın inkişafı İSİ-nin unikal məlumat bazalarının meydana gəlməsi və genişlənməsi ilə sıx əlaqədardır və hər şeydən əvvəl SCİENCE CİTATİON İNDEX-in (SCİ) məlumat bazalarının (hansı ki, bir tərəfdən dünya miqyasında biblioqrafik materialların statistikasını aparmağa imkan verir, digər tərəfdən isə alimlər arasında (müvafiq olaraq və nəşrlər arasında) əlaqələri müəyyən edir, bu məlumatların ədəbiyyatın axtarışında olduğu kimi, elmdə də koqnitiv və sosial münasibətlərin) öyrənilməsində də istifadə edilir).

İSİ-nin məlumat bazasından istifadə zamanı kəmiyyətin qiymətləndirilməsində daha keyfiyyətli yanaşmalar tətbiq oluna bilər. JCR məlumatlar bazasına elmi jurnalların qiymətləndirilməsi üçün daxil edilmiş göstəricilər – impact factor və immediacy index elmin tədqiqatlarında mühüm indiqatorlardır.

Elmin bibliometrik tədqiqatlarındakı II yanaşma – struktur bibliometriya 70-ci illərdə meydana gəlir və XX əsrin 90-ci illərində fəal inkişaf edir. Bu onunla bağlıdır ki, alimlərlə, xüsusən elmmetristlərlə nəşr axınının kvantifikasiya məsələsinin II anlayışı (elmin vəziyyətinin struktur, kəmiyyət şəkli alınır) açıq dərk edilməyə başlayır. Burada nəşrlərin biblioqrafik məlumatlarının təhlili prosedurları "çox-az", "yuxarı-aşağı" kimi xüsusiyyətlərin alınmasına deyil, statistika əsasında elmin keyfiyyət strukturunun aşkar edilməsinə istiqamətlənir.

Qeyd etmək lazımdır ki, hələ ki, elmin xəritəyə köçürülməsində, kartoqramının yaradılması yolunda istifadə olunan çatışmayan sayda metodlar işlənməyib.

Struktur bibliometriya çərçivəsində elmin konseptual əsası, karkasının ümumi istiqamətinin əhəmiyyətli şəkildə yüngülləşdirə bilən aktual və perspektivli elmi biliyin terminoloji sisteminin işlənməsi təqdim olunur.

Bibliometrik üsulların elmin terminoloji sisteminin qurulmasında tətbiqi 2 məsələni həll etməyə imkan verir:

1. Elmi sahədə terminlər qrupunun kəmiyyət dinamikasının həyata keçirilməsi.

2. Terminlərin spesifik əlaqələrini üzə çıxarmaq – elmin tezaurusunu yaratmaq (statikada olduğu kimi dinamikada da) (7).

Müvafiq məlumat bazalarından əldə olunmuş bibliometrik göstəricilərin təhlili nəticəsində kitabxana fondunun müxtəlif mövzu istiqamətləri üzrə dinamikasını müəyyən etmək olar; mövzu üzrə informasiya resurslarının görünən tərkibinin optimal nisbəti qurulmuşdur; elmi tədqiqatların daha çox işlənən, az və ya çox fundamental əməklərlə təmin edilmiş mövzu istiqamətləri aşkar edilmişdir; gələcəkdə abunə yazılacaq sahəvi jurnalların mahiyyəti müəyyənləşdirilmişdir.

Reallıqdır ki, dünya elminin inkişafının əsasları Avropa və dünya miqyaslı forum və görüşlərdə müzakirə olunur və formalaşdırılır. Dünya və bütün avropa miqyasında innovasiya prosesinin inkişafını müşahidə etmək məqsədilə ixtisaslaşdırılmış indiqatorlar sistemi yaradılır. Belə ki, Avropa elm məkanına inteqrasiyada strateji məqsəd bütün dünyada təsdiqini tapmış tədqiqatların səmərəliliyinin qiymətləndirilməsi aparatına ölkə elminin cəlb edilməsini tələb edir.

Bir çox dünya ölkələrində elmin inkişafının qiymətləndirilməsi üçün 3 qrup göstəricidən istifadə olunur:

-elmin inkişafının statistik göstəriciləri (tədqiqata çəkilmiş xərclər, elmi personalın sayı və s.);

-patent statistikası;

-bibliometrik göstəricilər (elmi nəşrlərin istinadlarının miqdarı və s.).

Əgər elmin inkişafının statistik göstəriciləri və patent statistikası innovasiya prosesinin I mərhələsini əks etdirirsə, III qrup göstəricilər – bibliometrik göstəricilər ölkədə fundamental və tətbiqi tədqiqatların fəallıq və məhsuldarlıq dərəcəsini, elmi biliyin inkişafı və zənginləşdirməsini əks etdirir. Bibliometrik tədqiqatlar çərçivəsində sənəd axınının təhlilinin yeni yolları və metodikası, həmçinin onların istifadəsinin yeni istiqamətləri hazırlanmağa başladı. Onlar kitabxanaların, informasiya fondlarının idarə edilməsində, jurnal nəşrlərinin keyfiyyətinin qiymətləndirilməsində və s. təcrübi istifadəsini tapır.

Sonsuz analitik zəncirlərin tərtib edilməsi mümkünlüyü və müqayisəsi elmi yaradıcılıq üçün yeni sərhədlər açır, tədqiqata yeni görüş dairəsindən baxmağa, öz yaradıcılığını düzəltmək, təshih etmək, onu qiymətləndirmək, digərlərinin nəticələri ilə müqayisə etməyə imkan verir.

Bibliometrik göstəricilərin müasir dövr alimləri, elmi müəssisələr üçün ayrıca və bütövlükdə vacibliyinin qiymətləndirilməsinin çətinliyi şübhəsizdir.

Müasir dövrdə bibliometrik metodologiyalar milli və beynəlxalq kontekstdə fəal tələb olunur. Onun əsas öyrənmə obyektlərini müxtəlif əlamətlərə görə-elm sahələri, rubrikaları, ölkələr, müəlliflər və s. qruplaşdırılmış elmi nəşrlər təşkil edir.

O.Voverenenin fikrincə bibliometriyanın tarixi rus alimi P.Valdenin işindən başlanır. O, 1910-cu ildə ilk dəfə kimyanın inkişafında Rusiyanın və ayrı-ayrı ölkələrin alimlərinin əmanətlərinin (xəzinələrinin) öyrənilməsi üçün istinadların təhlili üsulunu tətbiq etdi. P.Valden kitabarası (kitabiçərisi) biblioqrafiyanın əsasında hər hansı ölkənin alimlərinin işlərinin istinadlarını hesablama yolu ilə hər ölkədə kimyanın inkişafını təyin etdi.

XX əsrin 80-ci illərinin ortalarında bibliometriyaya dair böyük həcmdə empirik material toplanmışdır. Buna görə də onun inkişafının yeni mərhələsinə daxil olması – nəzəri dərk edilməsi məntiqi şəkildə təqdim olunurdu. Bu mərhələdə bibliometriyanın elmlər sistemindəki yeri daha vacibdir. Bu məsələ ilə məşğul olan alim və mütəxəssislər hesab edirlər ki, bibliometriya müstəqil fənn deyil, yalnız elmi fənnləri təhlil edən metodologiyanın hissələrindən birindən ibarət olan riyazi və statistik üsullar kompleksidir. Onların bibliometriyanın məhz hansı fənnə məxsus olması haqqında vahid fikirləri yoxdur.

Bibliometrik metodların tətbiqinin üstünlükləri:

1. Bütövlükdə elmin və onun ayrı-ayrı sahələrinin eyni vaxtda əhatə olunması;
2. Dünya məlumat bazası hesabına geniş informasiya materialının tədqiqi;
3. Ayrı-ayrı obyektlərin dinamik inkişafını tədqiq etmək və onlar arasında əlaqələrin aşkar edilməsi (2,s.45).

Hal-hazırda bibliometrik tədqiqatlar 2 formada həyata keçirilir:

4. Məqsədli
5. Davamlı (1,s.189).

Bibliometriyanın üsullarının izahına dair müxtəlif fikirlər mövcuddur. Mahiyyət etibarilə bibliometriya üsulları yaxşı məlumdur. Amma onların dəqiq təsnifatı yoxdur. A.Pritçard və Q.Vitinq 1981-ci ildə bibliometriyaya bu üsulları gətirdilər:

- İstinadların təhlili;

- Referativ jurnalların təhlili;
- Ayrı-ayrı müəlliflərin nəşrlərinin miqdar təhlili;
- Ayrı-ayrı dünya ölkələrinin, həmçinin ayrı-ayrı elmi kollektivlərin alimlərinin nəşrlərinin kəmiyyət təhlili;
- Elmi sənədlərin kontent-təhlili;
- Elmi sənədlərin bölünməsi ilə bağlı digər üsullar (5,s.81).

Verilmiş siyahı tam deyil, lakin eyni zamanda o, kifayət qədər tam siyahılardan biri kimi qalır. Bu gün üçün vəziyyət elə çətinləşmişdir ki, bəzi tədqiqatçılar bunları bibliometrik üsullar, digərləri isə informetrik, elmmetrik, informasiya kimi növlərə ayırırlar. Bibliometriyada istifadə olunan üsullar A.Pritçard və Q.Vitinqin, D.Şmidmayerin, V.S.Lazarevin, O.Vovemenin işlərində natamam sistemləşdirilmişdir.

E.Y.Pavlovska özünün üsullar təsnifatını təklif etmiş, onu şərti təsnifat adlandırmış və 3 qrupa ayırmağı təklif etmişdir:

1. Sənədli informasiya axını elementlərinin kəmiyyət qiymətləndirilməsi üsulları;
2. istinad təhlili üsulları;
3. Leksik təhlil üsulları.

V.S.Lazarev A.Pritçard və Q.Vitinqin, D.Şmidmayerin konsepsiyalarını təhlil edərək, bibliometrik üsulların ilkin sənədlər və II informasiya nəşrlərinin təhlili, anketləşdirmə, kontent-təhlil və ona uyğun üsulları ayıraraq sənədlərin istinadlarının hesablanması və onlarla münasibətin kompleksini təqdim edir (5,s.82).

Bibliometriyanın əsas üsullarının müxtəlifliyində davamlı elementləri ayırmaq çətin deyil. Onlara hər şeydən əvvəl aiddir: ilkin və II informasiya mənbələrinin təhlili və istinadların təhlili.

Bibliometriya aparıcı elmi fənnlərdən biri olmaq üçün bütün imkanlara malikdir və uğurla inkişaf edib təkmilləşməyə borcludur.

O.Voverne elmin tarixçisi S.V.Altşullerin ardınca qeyd edir ki, 1911-ci ildə ilk dəfə ayrı-ayrı ölkə alimlərinin işlərinin öyrənilməsi üçün istinadların təhlili üsulunu tətbiq edən rus alimi P.Valdenin adı ədalətsiz olaraq unudulmuşdur. Buna görə də o, hazırkı dövrdə daha çox istifadə olunan bu üsulun yaradıcısı kimi qəbul olunmalıdır.

Xronoloji hesablanmanı 1771-1772-ci illərdən, "Paris biblioqrafiyası"nın ("Bibliographie Parisienne", Paris,1771-1772.-58p.) nəşrindən başlamaq olar. Bu nəşr elmi istinadların müasir göstəricilərinin nümunə olan ilk biblioqrafik göstəricilərindəndir. "Paris biblioqrafiyası"nda materiallar

ilkin mənbələrə (resenziyalaşdırılmış kitablar) əsasən səliqə ilə düzülmüşdür. Necə ki, məqalə-resenziyalara ancaq resenziyalaşdırılmış işlərlə əlaqədə maraq göstərilir.

Bu kökdən olan daha bir nəşr "Şepardın federal qanunvericiliyinin istinadlarının göstəricisi"dir ("Shepard's İndex"). Göstəricinin I cildi 1873-cü ildə çap olunmuşdur. Göstəricidə Federal Məhkəmənin və ABŞ-ın bütün ştatlarının məhkəmələrinin hökmləri, qərarları müvafiq məhkəmə qərarlarının istinadları olan nəşrlərin siyahısı ilə müşayiət olunur. Bu üsulla vacib hüquqi informasiyanın axtarışı asanlaşır. Bu nəşri həmçinin biblioqrafik istinadların göstəricisi hesab etmək olar. Çünki burada material təsvir olunduqları nəşrlərə görə deyil, presedentlərə görə düzülmüşdür.

İnformasiyaların yayılması proseslərinin öyrənilməsinə dair bibliometrik yanaşmalar C.K.Çipf ("Çipfin bölgüsü"), S.K.Bredford ("Bredfordun səpələnmə qanunu"), V.K.Bruks ("Səpələnmə qanunu"nun dəqiq riyazi formulu), A.Lotkun (müəlliflərin özləri tərəfindən nəşr olunmuş məqalələrin kəmiyyətindən asılı olaraq bölünməsini təsvir edən "Tərs kvadrat qanunu") adı ilə bağlıdır. Bu qanunların mahiyyəti ondadır ki, onların yaradıcıları sənəd axınının sistemli tədqiqinin əsasını qoymuş və bibliometriyanın təşəkkülündə mühüm rol oynamışlar (5,s.77).

Elmin bibliometrik tədqiqatlarında II yanaşmanın xülasəsi olaraq qeyd edək ki, struktur bibliometriyaya həmçinin elmin müxtəlif masştablarda kartoqrafiyalaşdırılması ilə bağlı olan biblioqrafik məlumatların təhlilinin alqoritmik prosedurları da daxildir (3,s.135).

Qeyd etmək lazımdır ki, elmin tədqiqinə bibliometrik yanaşmda müxtəlif göstəricilərdə, referativ jurnallarda, məlumat banklarında və s. olan nəşrlər haqqında ikinci informasiya istifadə olun bilər. Bu informasiya insanın yaradıcılığının, xüsusən elmi fəaliyyətinin bir çox tərəflərinin öyrənilməsində birinci dərəcəli əhəmiyyət kəsb edir. Bibliometriya fəaliyyətinin istəniən növünə aid edilən hər cür statitika kimi yalnız informatika və elmşünaslığn inkişafı üçün maraq doğurmur, həmçinin elmin idarə edilməsi işində, xüsusən elmi tədqiqat istiqamətlərinin planlaşdırılması və proqnozlaşdırılmasında mühüm köməklik göstərir (3,s.102).

Nəticə olaraq qeyd etmək lazımdır ki, nəzərdən keçirilmiş informasiya axınının kvantifikasiyasına 2 yanaşma bibliometrik təhlilin gələcə hüquqlarını elmin tədqiqində istifadə olunan digər üsullarla müqayisədə qısa izah etməyə imkn verir.

1. Bibliometrik yanaşmada elm sistemi bütövlükdə əhatə olunur; hər hansı digər elmmetrik tədqiqat onunla müqayisədə natamamdır. Əlbəttə, o, sosial-psixoloji məlumatları göstərə bilər, lakin tədqiq olunan sahənin bütünlükdə şəklini çəkmir.

2. Bibliometrik təhlildə tədqiqat geniş materiala əsasən həyata keçirilir. Dövriyyəyə dünya miqyaslı məlumatlar bazası buraxılır. Bu təhlilin rəngarəng metodikasından istifadə etməyə imkan verir. Bu üsulla informasiya əsasının kəmiyyət genişlənməsi yeni keyfiyyətli nəticələrə gətirib çıxarır. Bu elmin idarə edilmaəsi üçün vacib olan yeni semantik informasiyanın əldə olunması ilə nəticələnir.

3. Bibliometrik tədqiqatlarda təhlilin birbaşa üsullarından (anketləşdirmə, intervyu və s.) fərqli olaraq maddiləşdirilmiş hadisələrlə də (insanlar artıq stinad etdilər, artıq işi çap etdilər) işləyirik. Həmçinin biz materialın obyektləşdirilmiş xarakteri ilə də işləyirik (3,s.107).

Bibliometriya sahəsindəki tədqiqatlar təkcə kitabxana yaradıcılığı üçün deyil, həm də bütünlükdə elmi siyasətin müəyyən edilməsində böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT:

1. Xələfov A.A. Bibliometriya nəzəriyyəsi kitabxana fəaliyyətində [Mətn] / A.A.Xələfov, A.İ.Qurbanov, P.F.Kazımi // Bakı Univer-nin Xəbərləri. Humanitar elml. ser. 2012. №1. S.188-193.
2. Гохберг Л.М., Сагиева Г.С. Российская наука: библиометрические индикаторы [Текст] / Л.М.Гохберг, Г.С.Сагиева // Форсайт. 2007. №1. С.44-53.
3. Маршакова И.В. Система цитирования научной литературы как средство слежения за развитием науки. М.: Наука, 1988. 288с.
4. Мотылев В.М. Основы количественных исследований в библиотечной теории и практике. Л.: Наука, 1988. 198с.
5. Редкина Н.С. Библиометрия: история и современность [Текст] / Н.С.Редкина // Молодые в библиотечном деле. 2003. №2. С.76-86.
6. Рузавин Г.И. Методы научного исследования. М.: Мысль, 1974. 237с.
7. Энциклопедия эпистемологии и философии науки. Гл.ред. Касавин И.Т. М.: «Канон+», РООИ. "Реабилитация", 2009. 1248с.

А.З.Гаджиева

НАПРАВЛЕНИЯ БИБЛИОМЕТРИЧЕСКОЙ ИССЛЕДОВАНИИ, БИБЛИОМЕТРИЧЕСКИЕ МЕТОДЫ

РЕЗЮМЕ

В современное время для анализа науки в целом и в ее отдельных областях широко используются библиометрические исследования. Такие исследования проводятся библиометрическими методами. В статье говорится о значении статистических указателей для оценки научного потенциала.

A.Z.Hajiyeva

BIBLIOMETRIC INVESTIGATION DIRECTIONS, BIBLIOMETRIC METHODS

SUMMARY

Bibliometric investigations are used widely by the aim of analyses of the development of the entire science and its different fields in the modern times. These kinds of investigations are realized with the bibliometric methods. The importance of the statistic indicators are dealt with in the appreciation of scientific potential in the article.

İradə BAYRAMOVA
"Biblioqrafiyaşünaslıq" kafedrasının müəllimi

ARAN İQTİSADİ REGİONUNDA OXUCULARA BİBLİOQRAFİK-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

Açar sözlər: *Aran iqtisadi rayonu, biblioqrafik-informasiya xidməti, resursların yerləşməsi və istifadəsi, elektron resurslar*
Ключевые слова: *Аранский экономический район, библиографические-информационной службы, размещение в использование ресурсы, электронные ресурсы*
Key words: *Aran economic region, bibliographic-information service, settle and usage of the resources,electron resource*

Respublikanın iqtisadi rayonlarında, kitabxana-informasiya sisteminin inkişafı dövlət tərəfindən diqqət mərkəzində saxlanılan sahələrdən biri kimi önəm daşıyır. Bu sahənin inkişafı, cəmiyyət üzvlərinin intellektual-mədəni potensialının zənginləşdirilməsində, elmin, texnikanın ən yeni nailliyyətlərinin öyrənilməsində, gənclərin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasında onlara yüksək vətənpərvərlik hisslərinin aşılanmasında, kitabxanaların əvəzsiz rol oynadığını göstərir.

1998-ci ildə qəbul edilmiş –"Kitabxana işi haqqında" Qanunda deyilirdi: Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institudur.(3.)

Kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun tələbatını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxanaların yaranması, formalaşması, inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə, onu yaradan cəmiyyətlə bağlıdır. Son illərdə, imzalanmış qanun və sərəncamlar, dövlətin bu sahəyə diqqətinin bir təzahürüdür. Kitabxana-informasiya sahəsinin inkişaf etdirilməsi üçün, dövlət başçısı İlham Əliyev,

2007-ci il 20 aprel tarixində "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması" haqqında sərəncam verdi.(2.)

Kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etmək üçün, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı mühüm əhəmiyyət daşıyır. Dövlət Proqramının əsas məqsədi, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda, habelə, digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.(1.)

Kitabxanasız informasiya xidmətinin məqsədyönlü təşkilindən və son nəticəsindən danışmamaq olmaz. Məhz buna görədir ki, informasiyalaşdırılmış cəmiyyətdə, bu cəmiyyətin əsas atributlarından biri olan kitabxana işini zamanın tələblərinə uyğun qurmadan, onu kompüterləşdirmədən, informasiyalaşdırmadan, informasiya xidmətinin mərkəzinə çevirmədən keçinmək mümkün deyil. Bu da hər şeydən əvvəl kitabxanaların kompüterləşdirilməsini, kompüter texnologiyasının sürətlə kitabxana işinə tətbiq edilməsini, kitabxanaların, ilk növbədə, böyük kitabxanaların regional və qlobal kompüter şəbəkəsinə qoşulmasını tələb edir.(5.S.184-185)

Biblioqrafik-informasiya xidməti kitabxanalarda aparıcı istiqamətə malikdir. Kitabxananın bir çox göstəriciləri, o cümlədən fonddan səmərəli istifadə, aparılan biblioqrafik-informasiya xidmətinin səviyyəsindən çox asılıdır. Biblioqrafik-informasiya xidmətinin məzmun xarakteri və əhatə dairəsi kitabxananın tipindən, onun yerinə yetirdiyi vəzifədən və hər bir kitabxananın xarakterik xüsusiyyətlərindən asılı olaraq müəyyənləşdirilir.

Biblioqrafik-informasiya ilkin sənədlərin analitik təhlili və sintez edilməsi nəticəsində yaranan informasiyadır. O, sənədləşdirilmiş və ikinci hesab edilən xüsusi informasiya növünə daxildir.

Azərbaycan Respublikasının bütün iqtisadi regionlarında, soraq biblioqrafiya aparatı (SBA) biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. SBA-da kitabxananın informasiya resursları tam əks olunur. İqtisadi rayonların profili burada fəaliyyət göstərən MKS-lərin xidmət etdiyi ərazilərdə oxucu kontingetinə də təsir göstərir.

SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, MKS-də tərtib olunan kartotekalar və.s aiddir. Son illərdə kitabxanaların avtomatlaşdırılması və kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi nəticəsində MKS-də soraq biblioqrafiya aparatı daha da zənginləşmişdir. Bu isə, MKS-də olan ənənəvi kataloq və kartotekaların elektron informasiya daşıyıcılarına köçürülməsinə imkan yaradır.

SBA sənədləri formaca biblioqrafiya, kitabxana və faktoqrafik məlumatları mühafizə edib saxlayır. Digər məlumat mənbələrindən SBA, onunla fərqlənir ki, onun köməyi ilə verilən mənbələr, məlumatlar operativ, tam və digər kəmiyyət, keyfiyyət xarakterinə malik olur. Beləliklə, SBA-nın şərhini belə ümumiləşdirmək olar:

SBA-sənədli məlumat-axtarış sistemi olub, kitabxana, biblioqrafik və faktoqrafik məlumatın təbliği, axtarışı və verilməsinin optimallaşırılması məqsədi daşıyır.

Ölkənin iqtisadi rayonlarında bütün kitabxanalarda əhaliyə biblioqrafik-informasiya xidmətinin təşkili 2 istiqamətdə: Biblioqrafik-İnformasiya Xidməti və Soraq Biblioqrafiya Xidməti istiqamətlərində yerinə yetirilir.

BİX daimi sorğular əsasında aparılan xidmətdir. Yeni ədəbiyyatlar haqqında oxuculara vaxtaşırı biblioqrafik- informasiya çatdırılmasını nəzərdə tutur. BİX-dən fərqli olaraq, SBX birdəfəlik sorğu anlayışı ilə əlaqədardır. Ümumiyyətlə, BİX kitabxananın aktiv, SBX-ı isə passiv xidmət forması hesab olunur.

Hazırda, Azərbaycan Respublikasının iqtisadi rayonlarında hər bir oxucuya daha rəngarəng formada, səmərəli şəkildə biblioqrafik xidmət göstərmək üçün əsl şərait yaranmışdır.

MKS-lərdə mütəxəssislərin BİX-ni təşkil edərkən elmi-texniki məlumat orqanlarının fəaliyyətini nəzərə alınır. Çünki sahəvi ərazi elmi texniki məlumat orqanları həmin ərazidəki idarə və müəssisə mütəxəssislərinə həmçinin kənd təsərrüfatı işçilərinə biblioqrafik xidmət göstərməlidirlər. Bu mərkəzlərin fəaliyyətinin əsasını ayrı-ayrı mütəxəssislərə deyil, ümumilikdə, əvvəlcədən öyrənilmiş informasiya tələbatları əsasında kollektiv xidmət göstərilir. Bunun üçün isə BİX-nin müxtəlif formalarından istifadə olunur.

Əsas etibarilə xüsusi növ texniki ədəbiyyatın, qabaqcıl iş təcrübəsinə həsr olunmuş sənədlərin, kitab və jurnal məqalələrinin tələbatçılara çatdırılmasına səy göstərilir. Bunu nəzərə alaraq, MKS-lər, mütəxəssislərin biblioqrafik-informasiya tələbatlarının ödənilməsində ərazi məlumat orqanlarının olmasına baxmayaraq, kənd təsərrüfatı mütəxəssisləri MKS-nin iştirakı olmadan kitabxana-biblioqrafiya xidməti ilə əhatə oluna bilməz. BİX-nin xarakteri, məzmunu və həcmi MKS-nin kadr və maddi imkanlarından çox asılıdır.

BİX-nin ənənəvi formalarından: kitabxanaya daxil olan yeni ədəbiyyatın cari bülletenləri, mütəxəssis günləri, məlumat günləri, sərgi-baxışlar, kitab xülasələri, biblioqrafik icmallar, oxucu konfransları, kitab təqdimatları, ədəbi-bədii gecələr, görüşlər və s. metodlardan iqtisadi regionların Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində də istifadə olunur.

Azərbaycan Respublikasının Aran iqtisadi regionu, ərazisinin sahəsinə və əhalisinin sayına görə, ölkənin ən iri ikinci iqtisadi regionudur. İqtisadi regionun tərkibinə Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonları və Mingəçevir, Yevlax, Şirvan şəhərləri daxildir.

İqtisadi rayonda fəaliyyət göstərən bütün MKS-lər Soraq Biblioqrafiya Aparatına malikdir. Əhalinin informasiya təminatının ödənilməsində MKS-də biblioqrafik xidmətinin düzgün təşkil edilməsinin əhəmiyyəti çox böyükdür. MKS-lərin oxucuları müxtəlif qruplara ayrilir. Bunlara həkimlər, müəllimlər, şagirdlər, tələbələr, mütəxəssislər, elm xadimləri və s. aiddir.

Mingəçevir MKS-i, əsası 1956-cı ildə qoyulmuş kitabxananın fondu əsasında 1978-ci ildə mərkəzləşdirilmişdir. Mərkəzləşdirilmiş Kitabxana Sisteminə M.P.Vaqif adına Mərkəzi şəhər kitabxanası və 11 filial kitabxana sistemi daxildir. 2012-ci ildə MKS-in fondu 315074 nüsxə, kitab verilişi 777543 nüsxə, oxucuların sayı 42244 nəfər olmuşdur. MKS-in 6 şöbəsi var: Xidmət şöbəsi, Komplektləşdirmə və kitabişləmə şöbəsi, Metodika-biblioqrafiya şöbəsi, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, İnformasiya-resurs şöbəsi, Uşaq şöbəsi; (8.)

MKS 1982-ci ildən 3 qrupda fəaliyyət göstərir. MKS "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Qanunları, Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamını, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı, Mədəniyyət və Turizm Nazirliyinin Əmr və Sərəncamlarını əldə rəhbər tutaraq fəaliyyət göstərir.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitabxanaların informasiyalaşdırılması işi davam etdirilir. Bu məqsədlə, Mingəçevir şəhər MKS-nin Veb-saytı da internet şəbəkəsində yerləşdirilib. Veb-saytda məlumatlar 3 bölmədə sistemləşdirilmişdir: Birinci kitabxana haqqında məlumatlar; ikinci şəhər, şəhərin iqtisadiyyatı, tarixi abidələr və turizm potensialı; üçüncü - Azərbaycan haqqında, respublikamızın dövlət rəmzləri, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlar, habelə, Mədəniyyət və Turizm Nazirliyi və Mingəçevir şəhər icra hakimiyyətinin Veb-saytlarına birbaşa keçid linkləri yerləşdirilmişdir. "Kitabxana" bölməsində kitabxana və onun şöbələri haqqında məlumatlar verilmişdir. Veb-saytda "Xəbərlər" bölməsində şəhər MKS-də keçirilən tədbirlərin fotoları yerləşdirilmişdir. Veb-saytın "Bizim şəhər" bölməsində Mingəçevir şəhəri, onun tarixi və müasir Mingəçevir haqqında maraqlı məlumatlar təqdim edilir. "Memarlıq abidələri" bölməsində şəhər ərazisində mövcud olan və mühafizə edilən bir sıra tarixi abidələr və onların fotoşəkilləri yerləşdirilmişdir.

Şəhər MKS-nin Veb-saytının "İqtisadiyyat" və "Turizm potensialı" bölmələrində Mingəçevirin respublika iqtisadiyyatında tutduğu yer, şəhərin respublika enerji təminatçısı kimi rolu, yeni açılmış istehsalat obyektləri, habelə, şəhərin turizm gözəllikləri əks olunmuşdur. Veb-saytın "Doğma Azərbaycan" və "Dövlət rəmzləri" bölmələrində Azərbaycan haqqında zəngin məlumat portalı olan www.azerbaijan.az saytına birbaşa keçid linki qoyulmuş, dövlət rəmzləri haqqında geniş məlumatlar yerləşdirilmişdir. Bundan başqa, Veb-saytda "Dağlıq Qarabağ problemi" bölməsində Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlar verilmişdir. İnformasiya resurs şöbəsi həmçinin, kitabxananın saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir və nəzarət funksiyasını həyata keçirir. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi Kataloqlaşdırma modulunun bazasından istifadə edərək elektron resursların bazalarının yaradılmasını həyata keçirir. (8)

Aran iqtisadi regionuna daxil olan Şirvan şəhəri, təhsil səviyyəsinə görə iqtisadi regionda xüsusi mövqeyə malikdir. Şəhərdə əhalinin sayı (1 yanvar 2010-cu il) 78,1 min nəfər olmuşdur. Şirvan şəhərində 40 kitabxana fəaliyyət göstərir. Bu, ümumi ölkə kitabxanalarının 0,5%-ni təşkil edir. Kitabxanaların 20-i (50%) Mədəniyyət və Turizm Nazirliyinin, 23(44,3%)

Təhsil Nazirliyinin tabeliyindədir. Mədəniyyət və Turizm Nazirliyi sisteminə tabe olan kütləvi kitabxanaların fondu, 2000-2009-cu illərdə 180,3 min nüsxədən 183,3 min nüsxəyə qədər artaraq zənginləşmişdir. Şirvan şəhərində yerləşən kitabxanaların ümumi fondu cəmi 720,611 nüsxədir. Kitablar fondun 696.862 (96,7%) təşkil edir.(7.S.85)

Şirvan Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1979-cu ildə S.Ə.Şirvani adına Mərkəzi şəhər kitabxanasının bazası əsasında yaradılmışdır. Mərkəzi kitabxana əhalinin sıx yaşadığı ərazidə yerləşir. Kitabxananın əhatəsində 12 min əhali yaşayır. Mərkəzi kitabxana 12 ədəd komputer dəsti ilə təchiz edilmiş, internet sisteminə qoşulmuş informasiya təlim mərkəzi fəaliyyət göstərir. Kitabxananın nəzdində olan bu mərkəz, bütün oxucu qruplarına pulsuz olaraq komputer bilgiləri ilə bərabər ingilis danışıq dilini də öyrədir. Mərkəzi kitabxananın xidmət şöbəsinə abonoment, oxu zalı daxildir. Ötən ildə Mərkəzi kitabxanaya 616 nüsxə kitab daxil olub. Onlardan 548-i azərbaycan dilində, 15 nüsxə isə digər dillərdə olub. Ötən ildə Mərkəzi kitabxanada 3714 nəfər oxucu, 53626 nüsxə kitab verilişi, 26756 nəfər gəliş olmuşdur. Mərkəzi kitabxanada il ərzində 49 tədbir keçirilmişdir. Abonoment şöbəsində 1523 oxucu, 8302 gəliş, 21518 nüsxə kitab verilişi, oxu zalında 1590 oxucu, 17462 gəliş, 14191 nüsxə kitab verilişi, 49 tədbir keçirilmişdir.(10.)

Şirvan şəhərində əhalinin milli tərkibi müxtəlifdir. Belə ki, burada azərbaycanlılarla yanaşı, ruslar, ləzgilər, türklər, ukraynalılar, tatarlar, gürcülər, avarlar və s. yaşayır. Burada, ali təhsillilərin sayı 7,8% təşkil edir ki, bu da, rayon üzrə ixtisaslı kadrların hazırlanmasına və yeni tədris ocaqlarının yaradılmasına ehtiyac olduğunu göstərir. Əhalinin informasiya təminatının yüksəldilməsində, Şirvan MKS-nin rolunu xüsusi ilə qeyd etmək lazımdır.

2013-cü ildə kitabxanada ulu öndər H.Əliyevin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar sərgi təşkil olunmuşdur. Kiçik yaşlı oxuculara işğal olunmuş rayonların tarixi, ərazisi, mədəniyyəti haqqında məlumat verilir. Kitabxanada narkomaniyaya qarşı mübarizədə "İctimaiyyətin və ailənin rolu" mövzusunda dəyirmi masa keçirilmişdir. Yeni daxil olan kitabların təbliği məqsədilə kitab sərgiləri, tövsiyyə ədəbiyyat siyahıları tərtib olunmuşdur. Yeni daxil olan kitabların təqdimatları keçirilmişdir. Bu tədbirlərə yeniyetmələr və tələbə gənclər cəlb olunmuşlar.

Beynəlxalq Ana dili günü münasibətilə «Ana dilim-doğma dilim» adlı kitab sərgisi təşkil olunmuş, oxucu konfransı keçirilmişdir. Beynəlxalq

Sülh günü münasibətilə «Biz sülh istəyirik» adlı uşaqların əl işlərindən ibarət sərgi təşkil olunmuş, «Bütün dünyaya sülh gərəkdir» adlı oxucu konfransı keçirilmişdir. Dövlət bayrağı günü münasibətilə «Bir kərə yüksələn bayraq bir daha enməz», 28 May Respublika günü münasibətilə «Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycan Respublikası», 17 noyabr Milli Dirçəliş günü münasibətilə «Müstəqilliyimiz əbədidir», Beynəlxalq Uşaq kitabı günü münasibətilə «Kitab bilik mənbəyidir», 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə «Uşaqlar bizim gələcəyimizdir», 26 iyun Silahlı qüvvələr günü münasibətilə «Azərbaycan deyəndə» adlı oxucularla söhbətlər təşkil olunmuş, dəyirmi masalar keçirilmişdir.(10.)

Milli bayramımız olan Novruz bayramı münasibətilə «Elimizə bahar gəlir» adlı tədbir keçirilmişdir. 2 Fevral Gənclər günü münasibətilə «Gənclər bizim gələcəyimizdir»-mövzusunda məktəblilərlə söhbət aparılmışdır. 15 Sentyabr Bilik günü münasibətilə, 5 Oktyabr Müəllimlər günü münasibətilə bir sıra tədbirlər keçirilmişdir.

Kitabxanada şair və yazıçıların yubileylərinə həsr olunmuş bir sıra tədbirlər hazırlanıb keçirilmişdir. Xalq şairi Z.Yaqubun anadan olmasının 60 illiyi, F.Qocanın anadan olmasının 75 illiyi, Z.Cabbarzadənin anadan olmasının 90 illiyi, S.S.Axundovun anadan olmasının 135 illiyi, R.Rzanın anadan olmasının 100 illiyi münasibətilə sərgilər təşkil olunmuş, kitab müzakirələri keçirilmiş, biblioqrafik icmallar hazırlanmışdır.

Mərkəzi kitabxananın oxu zalında bir sıra daimi və dəyişən sərgilər var. Onlardan "Ümummilli lider Heydər Əliyev" guşəsi (kitab sərgisi və foto-stend), "Prezident İlham Əliyev Şirvan şəhərində" foto-montaj, "Doğma şəhərimiz Şirvan", "Yaddan çıxmaz Qarabağ" və s. mövzularda sərgilər diqqəti cəlb edir. Kitabxanada hər ay günün hadisələri ilə əlaqədar olaraq müvəqqəti sərgilər də hazırlanır. (10.)

Mərkəzi kitabxananın oxu zalında keçirilən "Milli qürur günümz", "Unudulmayan tarix", Şəhid Sadiq Atayevin anim mərasimi, "Heydər Əliyev və dövlətçilik ənənələri", "Biz müstəqil Azərbaycanın övladlarıyıq" və s. mövzularda ədəbi-bədii gecələr, disputlar, söhbətlər, səhərciklər diqqətəlayiq olmuşdur. Mərkəzi kitabxana gənclərə vətənpərvərlik tərbiyəsinin aşılanması ilə əlaqədar olaraq, hər ay müxtəlif mövzularda tədbirlər hazırlayır.

MKS-nin nəzdində 1 Uşaq kitabxanası və uşaq şöbəsi fəaliyyət göstərir. Kitabxananın ətrafında "Şəfəq", "Yasəmən ", "Bənövşə" uşaq bağçaları, 9, 10, 16, 18, 21 saylı orta məktəblər yerləşir. Uşaq kitabxanaları günün tələbləri səviyyəsində işləmiş öz oxucularına günün aktual məsələlərini, milli

bayramları təblig etmiş, tarixi və əlamətdar günləri, sair və yazıçıların, alimlərin, incəsənət, elm adamlarının yubileylərini balaca oxucularla birlikdə qeyd etmişlər (10.)

2011-ci il 20 Yanvar -hüzn günü ilə əlaqədar olaraq, "Şəhidlər ölməzdir" mövzusunda disput, 8 mart Beynəlxalq qadınlar günü münasibəti ilə "Ana müqəddəsdir" mövzusunda səhərcik, Novruz bayramı münasibəti ilə "Bahar gəlir yurdumuza", "Novruz milli bayramımızdır" mövzusunda şənlik keçirilmişdir. Vətənpərvərlik tərbiyəsi ilə əlaqədar olaraq, uşaqlar üçün "Şəhidlər və qəhrəmanlar qəlbimizdə yaşayırlar", "Ana dilim-şirin dilim", "Azərbaycan yurdum mənim " "Heydər Əliyev və uşaqlar", "Şəhərimizin Milli Qəhrəmanları" və s. mövzusunda müxtəlif tədbirlər keçirmişlər. Ötən hesabat ili ərzində 2 saylı filialın kitab fondu 16883 nüsxə olmaqla, fonddan 1217 nəfər oxucu istifadə etmişdir. Kitab verlişi 26504 nüsxə olmuş, kitabxanalarda 36 tədbir həyata keçirilmişdir. Uşaq şöbəsinin fondu 13099 nüsxə olmaqla, 1317 nəfər oxucuya 27299 nüsxə kitab verilişi olmuşdur. Cəmi 41 tədbir keçirilmişdir.(10.)

Aran iqtisadi regionuna daxil olan Yevlax şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1976-cı ildə təşkil edilmişdir. Yevlax şəhərinin ümumi əhalisi 105188 nəfərdir. Əhalinin 27200 nəfəri kitabxana oxucularıdır. MKS-in ümumi fondu 548.800 nüsxədir. Kitabxananın ümumilikdə 59 filialı var.(9.)

Mərkəzi kitabxana oxucuların kitaba və digər informasiya mənbələrinə olan tələbatını ödəmək üçün kataloq və kartoteka sistemindən, tövsiyyə ədəbiyyat siyahılarından və s.istifadə edir. Kitabxananın kitab fondu 63941 nüsxədir. Kitabxana il ərzində 2196 nəfər oxucuya xidmət göstərir. Mərkəzi kitabxanada il ərzində əlamətdar tarixi günlərə, şair və yazıçıların yubileylərinə, gənclərdə vətənpərvərlik ruhunun tərbiyəsinə, işğal olunmuş rayonlarımızın işğal günlərinə, kitabxanaya yeni daxil olan ədəbiyyatın təbliğinə və s. həsr olunmuş kütləvi tədbirlər keçirilmişdir. Kitabxana hər il 20 yanvar hüzn günü, 26 fevral Xocalı faciəsi günü, 31 Mart Azərbaycanlıların soyqırımı günü, 9 May qələbə günü, 28 May Respublika günü, 1 iyun Uşaqları Beynəlxalq Müdafiə günü, 15 iyun Milli Qurtuluş günü, 18 Oktyabr Dövlət müstəqilliyi günü, 12 Noyabr Konstitusiya günü, 17 Noyabr milli dirçəliş günü, 31 dekabr dünya azərbaycanlılarının həmrəyliyi günü kimi əlamətdar və tarixi günlərə həsr olunmuş dəyirmi masalar, görüşlər, müzakirələr keçirir, sərgilər fotostendlər təşkil edir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarının icrası ilə əlaqədar proqramın icrasına həsr

olunmuş ədəbiyyatlardan və mətbuat yazılarından ibarət sərgilər təşkil olunur.

Mərkəzi kitabxana öz fəaliyyətini yaxşılaşdırmaq üçün, M.F.Axundov adına Milli Kitabxana, F.Köçərli adına Respublika Uşaq kitabxanası ilə əməkdaşlıq edir. Əhaliyə kitabxana xidmətini müasir tələblərə uyğun olaraq qurmaq üçün, metodik tövsiyyələr alır, kitabxana fondunun müasir ədəbiyyatlarla komplektləşdirilməsində Milli kitabxananın imkanlarından istifadə olunur.(9.)

Mərkəzi şəhər kitabxanası əsaslı şəkildə yenidən qurulmuş, ən müasir inventar və avadanlıqlarla təchiz olunmuşdur

Yevlax şəhər Uşaq kitabxanası 1935-ci ildə təşkil olunmuşdur. Kitabxanada uşaqların milli ruhda tərbiyə edilməsi, vətənə, xalqa ləyaqətli bir vətəndaş kimi yetişməsi, təlim-tərbiyənin yaxşılaşdırılması üçün mühüm tədbirlər hazırlanıb həyata keçirilir. Kitabxananın fondunda 10015 nüsxə ədəbiyyat vardır ki, bunlardan 1652 nüsxəsi latın qrafikalı ədəbiyyatlardır. Kitabxana il ərzində 1211nəfər oxucuya xidmət göstərir. Kitabxanaya yeni daxil olan ədəbiyyatların müntəzəm olaraq sərgiləri təşkil edilir. Məktəbli oxucularda vətənpərvərlik tərbiyəsinin təbliği ilə əlaqədar «Vətən bizi çağırır», «Azərbaycan-yurdum mənim», və s. adlarda sərgilər təşkil olunmuşdur.(9.)

Aran iqtisadi regionunun tərkibinə daxil olan Ağdaş rayonunda, ilk kitabxana 1923-cü ildə təşkil edilmiş, bu kitabxananın fondu əsasında 1980-ci ildə Ağdaş rayon MKS-i yaradılmışdır. MKS 6 şöbə, 1 uşaq kitabxanası və 79 filial kitabxanadan ibarətdir. Oxuculara xidmət şöbəsi - 27903 nüsxə fondla 4 min nəfərə yaxın oxucuya xidmət edir. Oxu zalında müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirilir. Hər il şöbənin fondu yeni ədəbiyyatla zənginləşdirilir. 2011-ci ilin statistik məlumatlarına görə 593 nüsxə yeni kitab şöbənin fonduna daxil olmuşdur. İnformasiya-Resurs mərkəzi- kitabxananın Veb-saytının idarə olunmasını, buraya yeni məlumatların operativ daxil edilməsini, əlavə və dəyişikliklər aparılmasını həyata keçirir. Rayon MKS-də oxucuların sorğularına operativ cavab vermək məqsədilə kitabxananın saytı istifadəyə vermişdir ki, saytda yerləşən Elekron kataloq bölməsi 2 hissədən ibarətdir: Kitablar və Elektron kartoteka;

İstifadəçilər lazımi ədəbiyyatı açar sözlər vasitəsilə saytda müvafiq bölmələrə daxil etməklə istədikləri ədəbiyyatı əldə edə bilərlər. (11.)

Ağcabədi rayon Mərkəzi Kitabxanası 1934-cü ildə yaradılmışdır. 1977-ci ildə onun bazası əsasında, Mərkəzləşdirilmiş Kitabxana Sistemi

yaradılıb. MKS rayon əhalisinə və ərazidə yaşayan qaçqın və məcburi köçkünlərə yüksək səviyyədə xidmət göstərir. Mərkəzləşdirilmiş Kitabxana Sistemində, MKS-in mərkəzi aparatı, Metodika və biblioqrafiya şöbəsi, Oxuculara xidmət şöbəsi, Komplektləşdirmə və kitab işləmə şöbəsi, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, İnformasiya-resurs şöbəsi və rayon MKS-nin Uşaq şöbəsi, 2 qəsəbə kitabxanası və 45 kənd kitabxana filialları var. MKS-nin fondu 361742 nüsxə, oxucularının sayı 51825 nəfər, yeni daxil olan kitabların sayı 478 nüsxədir. Fondun 14856 nüsxəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə əlaqədar nəşr olunub kitabxanalara hədiyyə edilən kitablardır.(12.)

Beyləqan rayonunda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması və kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində işlər aparılır. Dövlət Proqramının uğurlu icrasını təmin etmək məqsədi ilə, Beyləqan rayonunda 2012-ci il "Kitabxanalar ili" elan olunmuşdur. Rayonun kitabxana fondlarının müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, kitabxanalarda multimedia resursları fondlarının yaradılması, onların CD və DVD ilə təmin edilməsi məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyindən 1000 ədəd CD, 11 yeni kompüter, 2 projektor, 2 ekran, disklər üçün 10 ədəd rəf verilmiş, Mərkəzi kitabxanada təmir işlərinə başlanılmışdır. Hazırda, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi İRBİS-64 proqramında işləyir. Əhalinin mütaliəyə marağını artırmaq məqsədi ilə, MKS tərəfindən oxucu konfransları, "dəyirmi masalar", "kitab təqdimatları" keçirilir. Cari ildə "kitab ən yaxşı dostdur", "sizin sevimli kitablarınız", "nağıllar qonağımızdır", "Oxu məni" və.s kimi tədbirlər də keçirilmişdir.(17.)

Kürdəmir rayon Mərkəzi kitabxanası 1938-ci ildə yaradılmışdır. Kürdəmir rayon MKS-i Mərkəzi kitabxananın bazası əsasında təşkil olunmuşdur. MKS-nin tərkibində Mərkəzi kitabxana və Uşaq kitabxanası daxil olmaqla, cəmi 50 kitabxana var. Bu kitabxanaların ümumilikdə, 337784 nüsxə fondu var. Onların 81546 (24,2%) latın qrafikası ilə nəşr olunub. MKS-də oxucuların sayı 41978 nəfər, o cümlədən, Mərkəzi kitabxanada 4011nəfər, Uşaq kitabxanasında 1910 nəfər, şəhər və kənd kitabxanaları üzrə 35057 nəfərdir. MKS üzrə kitab verilişi 904992 nüsxə olmuşdur. Bu göstəricilər, Mərkəzi kitabxana üzrə 86237 nüsxə, Uşaq kitabxanası üzrə 36009 nüsxə, şəhər və kənd kitabxanaları üzrə 782746 nüsxə təşkil etmişdir.

Oxuculara xidmət şöbəsi, böyük oxucu kütləsini mütaliəyə cəlb etmək üçün, ərazidə yerləşən bütün müəsisələrlə və əhali ilə sıx əlaqə saxlayır, fondda olan yeni ədəbiyyat haqqında məlumat verir, yeni kitabların sərgilərini təşkil edir. Şöbə gün ərzində 30-35 oxucuya xidmət edir. Eyni zamanda, oxu zalından gün ərzində 40 nəfərə qədər oxucu istifadə edir. Şöbədə əlamətdar və tarixi günlər, yubileylər təşkil edilir. Xidmət şöbəsinin fondunun həcmi 24771 nüsxə, oxucuların sayı 4011 nəfər, kitabverilişi 86237 nüsxədir.

Komplektləşdirmə və Kitabişləmə şöbəsi, oxucuların tələbatlarının ödənilməsi üçün, universal profilli kitab fondunu komplektləşdirir. Dövlət vəsaiti hesabına və digər mənbələrdən yeni ədəbiyyatları almaqla, kitab fondunu daim zənginləşdirir.Yeni daxil olan ədəbiyyatların uçotunu aparır, ədəbiyyatların elmi və texniki cəhətdən işlənməsini təşkil etdikdən sonra, kitabxana filiallarına çatdırılması işini həyata keçirir. Fondun mühafizəsinə və məzmunca aktuallığını itirmiş və istifadə olunaraq yararsız vəziyyətə düşmüş ədəbiyyatrlardan təmizlənməsinə nəzarət edir.

Metodika-Biblioqrafiya şöbəsi, metodki mərkəz olaraq, MKS nəzdində fəaliyyət göstərir, kitabxanalara metodiki köməklik edir və sistemin oxucularının biblioqrafik xidmətini təşkil edir. Soraq-biblioqrafiya aparatını təkmilləşdirir, biblioqrafik işi əlaqələndirir və ona nəzarət edir. Məqalələrin sistemli və diyarşünaslıq kartatekalarını tərtib edir. Yeni daxil olan ədəbiyyatın məlumat bülletenlərini və tövsiyə siyahılarını tərtib edir. Sistemin bölmələrinin fəaliyyətini məzmun, forma və metodiki baxımdan əlaqələndirir, işin yeni üsul və metodlarını öyrənməklə, qabaqcıl təcrübələri aşkar edir. Kadrların ixtisaslarının artırılması işinin təşkil olunmasına kömək edir. Kütləvi tədbirlərin keçirilməsinə təcrübi, metodik yardım göstərir,müxtəlif mövzularda metodik vəsaitlər hazırlayır.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, kitabxanalrın elektron kataloqunun idarə olunması, elektron kataloqların "Katoloqlaşdırılma", "Komplektləşdirmə", "oxucu" modullarının işini təşkil etmək, habelə MKS-də kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işini təşkil edir.

İnformasiya-Resurs şöbəsi kitabxanaların veb-saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir. Nəzarət funksiyasını həyata keçirir. Şöbə kitabxanalarının elektron kitabxanalarının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaş-

dırılması şöbəsinin həyata keçirdiyi "Kataloqlaşdırma" modulunun bazasından istifadə edərək, elektron resursların bazalarının yaradılmasını həyata keçirir. Şöbə fasiləsiz internetlə təmin olunmuş, oxucuların istifadəsinə verilmişdir. Şöbənin əsas vəzifəsi: informasiyalı cəmiyyətdə istifadəçilərin informasiyaya olan tələbatlarını ödəməkdir.

2008-ci ildə Kürdəmir MKS-də Amerika mərkəzi yaradılmışdır. Mərkəzin yaradılmasında əsas məqsəd, informasiya axınının artdığı və yeniləndiyi müasir dövrdə, getdikcə artan oxucu sorğularının daha operativ və tez yerinə yetirilməsindən və onun xidmətindən istifadə edən tələbatçıların ümumi internet kompüter biliklərinə yiyələnməsinə kömək etməkdən ibarətdir. (20.)

Bərdə rayon Mərkəzi Kitabxanasının əsası 1954-cü ildə qoyulmuş, 1967-ci ildən isə Mərkəzi kitabxana kimi fəaliyyət göstərir. 1980-ci ilin noyabr ayından Bərdə rayon kitabxanaları mərkəzləşdirilmişdir. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibinə 1 mərkəzi kitabxana, 56 filial kitabxanası daxildir. MKS-in 536470 nüsxə kitab fondu, 48 min nəfərdən çox oxucusu var. MKS-də 7 şöbə fəaliyyət göstərir. Mərkəzi kitabxanın və filiallarının xidmət etdiyi ərazidə əhalinin sayı 147300 nəfərdir. MKS-i 1995-ci ildən fəaliyyətinə görə II qrupa keçirilmiş, "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında"qanunları, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələri, Respublika Prezidentinin kitabxana işi ilə bağlı bütün qərar və sərəncamlarını, digər hüquqi sənədləri rəhbər tutaraq fəaliyyət göstərir.(13.)

Kitabxanada oxuculara operativ biblioqraafik xidmət göstərilir. Kitabxananin bütün şöbələri bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərir. Kitabxananın özülünü təşkil edən Oxuculara xidmət şöbəsi – oxuculara abonement, oxu zalı, internet vasitəsi ilə xidmət göstərir. Bundan əlavə oxuculara xidmət şöbəsi kitab təbliği işində əyani və şifahi təbliğat formalarından istifadə edərək müxtəlif məzmunlu tədbirlər hazırlayıb keçirir. Vaxtaşırı olaraq, ən çox oxunan kitabların monitorinqini keçirir, kitabxanaların komplektləşdirilməsi üçün oxucular tərəfindəm tələb olunan ədəbiyyatın siyahısını tərtib edib komplektləşdirmə şöbəsinə təqdim edir. İnformasiya-resurs və biblioqrafik proseslərin avtomatlaşdırılması şöbələri kitabların və dövrü mətbuat məqalələrinin elektron kataloqa yazılmasını, veb-sayta məlumatların daxil edilməsini və proqramlaşdırılmasını həyata keçirir. MKS oxuculara məsafə limitsiz biblioqrafik xidmət göstərir. Bu məqsədlə kitabxananın veb-

saytı oxucuların istifadəsinə verilmişdir. Saytın Elektron kataloq bölməsi 3 hissədən ibarətdir: Kitablar; Dövrü mətbuat- 2011; Elektron kartoteka- 2012; (13.)

Aran iqtisadi regionuna daxil olan Göyçay rayon Mərkəzi kitabxanası 1923-cü ildən fəaliyyət göstərir. Kitabxana M.Ə.Sabirin adını daşıyır. Şəhər əhalisinə xidmət sistemində mərkəzi şəhər kitabxanası xüsusi yer tutur. Rayon MKS-nin tərkibində 63 kitabxana və kitabxana filialı fəaliyyət göstərir. Bunlar 1 mərkəzi, 2 uşaq kitabxanası, 2 şəhər kitabxana filialı, 1 gənclər kitabxanası, 57 kənd kitabxanasıdır. Mərkəzi şəhər kitabxanası rayonun mərkəzi dövlət kitabxanası olub, yerli əhaliyə, idarə və təşkilatlara, ümumtəhsil məktəblərinə kitabla və biblioqrafik materiallarla xidmət etmək işini həyata keçirir. Rayon kitabxanasının əsas vəzifəsi, dövlətin siyasətini təbliğ etmək, kitab, jurnal, qəzetlərin, habelə elektron informasiya daşıyıcılarının köməyi ilə elm, texnika, mədəniyyət və incəsənətin bütün sahələrindən məlumat almaq işində rayon əhalisinə, oxuculara xidmət etmək, rayonda kitabxana işinin inkişafına və möhkəmləndirilməsinə kömək etməkdir. Kitabxana xidməti abonoment, qiraət zalı, kitabxanalararası abonoment və biblioqrafiya işi, elmi-texniki informasiya, fərdi və kütləvi, şifahi və yazılı vasitələrlə təşkil edilir. Kitabxananın 6 şöbəsi var.(19.)

Hacıqabul rayonunda 66 kitabxana var. Bu kitabxanalardan 19-u(28,8%) şəhərdə, 47-i(71,2%) kənd yerlərində yerləşir. Kitabxanaların 32-i Mədəniyyət və Turizm Nazirliyi, 32(48,5%) Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir.(4.) Hacıqabul rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 27 avqust 1990-cı ildə Hacıqabul rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 05 saylı qərarı ilə yaradılmışdır. Hacıqabul rayon Mərkəzi kitabxanasının əsası 1939-cu ildə qoyulmuşdur. 01 yanvar 2012-ci il tarixinə olan məlumata əsasən Hacıqabul rayonunda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Sisteminə daxil olan 32 dövlət kütləvi kitabxanası fəaliyyət göstərir. Bu kitabxanalardan 1-i rayon Mərkəzi kitabxanası, 1-i rayon Uşaq kitabxanası, 6-sı şəhər və qəsəbə kitabxanası, 24-ü isə kənd kitabxana filialıdır. Rayon Mərkəzi kitabxanasının 7 şöbəsi var. İnformasiya tələbatçılarının sorğularının ödənilməsində xüsusi rol oynayan abonement bölməsinin işi oxuculara kitab və digər informasiya daşıyıcıları vasitəsilə xidmətdən ibarətdir. 01 yanvar 2012-ci il tarixinə olan məlumata görə Abonement bölməsinin kitab fondu 14836 nüsxədən ibarət olmuşdur. Bundan 7458 nüsxəsi latın qrafikalı ədəbiyyatdır. Abonement

bölməsinin kitab fondundan 2299 nəfər oxucu istifadə edir. Oxucuların informasiya tələbatının ödənilməsində, onlara biblioqrafik xidmətin göstərilməsində kitabxananın veb saytının yaradılmasının xüsusi əhəmiyyəti vardır. Kitabxanada bu işin həyata keçirilməsi ilə İnformasiya-Resurs şöbəsi məşğul olur. Bu şöbə kitabxananın Veb-saytının idarə olunması, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir, nəzarət funksiyasını həyata keçirir. Şöbə kitabxananın Elektron kitabxanasının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir.

Əsası 1947-ci ildə qoyulmuş İmişli rayon Mərkəzi kitabxanası 30 il sonra- 1977-ci ildə mərkəzləşdirilmişdir. Hazırda 1 şəhər, 1 gənclər, 1 uşaq, 63 kənd kitabxana filialı vasitəsi ilə əhalinin informasiya təminatı həyata keçirilir. MKS-nin 384604 nüxsə kitab fondu var (14.)

Neftçala rayon ərazisində kütləvi kitabxanalar hələ ötən əsrin ortalarından fəaliyyətə başlamışdır. Hazırda Neftçala rayon MKS-i rayonun kənd və qəsəbələrində olan filial kitabxanalara inzibati və metodiki rəhbərlik edir və kitabxananın müxtəlif ədəbiyyatlarla zəngin olan fondu ilə oxuculara xidmət göstərir. Kitabxananın 52 filialı var. Bu kitabxanalardan 49-u kənd və qəsəbə, 3-ü isə Uşaq kitabxanalarıdır. 2011-ci ilin yekun hesabatına görə, MKS 39193 nəfər oxucuya xidmət göstərmişdir. Hazırda MKS-in kitab fondu 299759 nüsxədir.(21.)

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi, elektron kartotekanın təşkili və zənginləşdirilməsinə nəzarət edir. Müasir informasiya texnologiyaları, elektron resurslar vasitəsi ilə oxuculara xidmət işini yüksək səviyyədə həyata keçirir. Elektron kataloqun yaradılması işində Xidmət şöbəsi ilə digər şöbələrin işini əlaqələndirir. Müxtəlif oxucu qruplarına xidmət edir, daimi sərgilərin və kütləvi tədbirlərin təşkilini həyata keçirir. Kitab fondu 52570 nüsxə, oxucuların ümumi sayı 4140 nəfərdir. Neftçala rayon MKS-nin saytı 2009-cu ilin sentyabr ayından etibarən fəaliyyət göstərir. Saytda çox zəngin məlumatlar yerləşdirilmiş, fondun elektron kataloq və elektron kitabxana bölmələri yaradılmışdır. Hər iki bölmə oxuculara virtual xidmət göstərir.(21.)

Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1975-ci ildən fəaliyyətə başlamışdır. Nizami Gəncəvi adına mərkəzi kitabxana adlanan MKS, özündə 56 filialı birləşdirir. MKS 1 uşaq kitabxanasını, 1 gənclər kitabxanasını, 47 kənd kitabxana filialını, 5 şəhər kitabxanasını əhatə edir. Biblioqrafik xidməti tam və operativ həyata keşirmək üçün, 2009-cu ildə Nizami Gəncəvi adına Mərkəzi Kitabxanada Elektron Kitabxananın yaradılması üçün 11 kompüter və digər avadanlıqlar alınmışdır. MKS-in oxucularının ümumi sayı 47.531 nəfər, kitabxana fondunun ümumi həcmi 527.339 nüsxədir. Kitabxananın 5 şöbəsi var. Abonoment şöbəsi, kitabxana yarandığı ilk gündən fəaliyyət göstərir. Şöbənin fondu bədii və elmi ədəbiyyatla zəngindir. Şöbədən ayrı-ayrı oxucu qrupları istifadə edir. Gün ərzində 20-25 nəfər oxucuya xidmət göstərilir. Şöbənin əlifba və sistemli kataloqları var. Fondda "Açıq rəf"-də sərgilənən kitablar oxucuların marağına və kitab seçməsinə şərait yaradır. Şöbədə oxucuların maraq dünyasına məxsus sərgilər, yerli yazarların sərgiləri, yeni alınmış kitabların sərgiləri nümayiş etdirilir. Kitabxananın müasir səviyyədə tərtib edilən saytında Elektron kataloq və Elektron kitabxana bölmələrində kitabxananın zəngin kitabxanasının fondu oxucularin virtual istifadəsinə verilmişdir. Elektron kataloq bölməsində materiallar 4 qrupa ayrılmışdır: Kitablar, Elektron kartateka, Retro kitablar, Yeni kitablar, Diyarşünaslıq (22.)

Zərdab rayon Mərkəzi Kitabxanasının saytında rayonun yetirmələri Həsən Bəy Zərdabi, Milli Azərbaycan hökumətinin yaranmasında fəallıq göstərmiş Şirin Nuriyev, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov və b. şəxslər haqqında məlumatlar verilir. Saytın maraqlı linklərindən biri "Əkinçi" bölməsidir. Burada Azərbaycanda ilk mətbu orqan olan "Əkinçi" qəzeti, onun yaradıcısı Həsən bəy Zərdabinin bu sahədəki fəaliyyəti haqqında məlumatlar təqdim edilir. Kitabxananın Veb-saytında "Kitabxana" və "strukturu" bölməsində rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, onun fəaliyyəti və şöbələri haqqında, "Tədbirlər" bölməsində isə keçirilən tədbirlər haqqında məlumatlar təqdim edilir. Bundan başqa, "Yeni nəşrlər" bölməsində kitabxana fonduna daxil olan yeni kitabların siyahısı təqdim edilir.(23.)

Regionların inkişafı orada olan mədəni mərkəzlərin, şəhər kitabxanalarının inkişafına da təsir etmişdir. Region əhalisinin biblioqrafik-informasiya təminatının ödənilməsində kitabxanaların fəaliyyəti bilavasitə, o zaman keyfiyyətli olur ki, həm kitabxanaların informasiya resursları, həm ixtisaslı kitabxanaçı-biblioqrafların iş təcrübəsi bu işdə vəhdət təşkil etsin.

Regionlarda biblioqrafik informasiya təminatının müasir vəziyyəti onu göstərir ki, regionlarımızla bağlı qəbul olunmuş Dövlət Proqramları ayrı-ayrılıqda hər bir regionun iqtisadiyyatı ilə bərabər, onun təhsilinin, mədəniyyətinin inkişafına da yol açmışdır. Regionlarda fəaliyyətdə olan kitabxanalarda biblioqrafik informasiya təminatının yaxşılaşdırılması üçün xüsusi mərkəzlərdən kitabxanalara ezamiyyələr təşkil edilmişdir. Bu

ezamiyyələr nəticəsində yerlərdə mövcud olan kitabxanalarda nöqsanlı cəhətlər nəzərə alınmış, onların kitabxana fondunun vəziyyəti qiymətləndirilmişdir.

Müasir dövrdə, regionlarda kitabxanalarda biblioqrafik informasiya təminatının təşkilində mühüm cəhətlərdən biri regionlarda olan kitabxanalarda elektron kataloq sisteminin təşkili və ondan istifadənin genişləndirilməsi olmuşdur. Demək olar ki, regionlarımızda kənd yerlərində kitabxanalarda elektron kataloq yoxdur. Bu da əslində, kitabxanaların inkişafı və biblioqrafik-informasiya təminatının həyata keçirilməsində böyük çətinliklər yaradır.

ƏDƏBİYYAT:

1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. – 2008. - №2. – s.6-29.
2. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan. -2007.- 21 aprel.
3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. //Kitabxanaşünaslıq və biblioqrafiya, – 1999. №1.-s.3-16.
4. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-B.- 2009.-88s.
5. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə) .-B., 2003.-314s.
6. İsmayılov N.İ., Bayramova İ.Z. Azərbaycan Respublikasının regionlarında şəhər əhalisinin informasiya təminatının bəzi məsələləri.//Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.-2010.- № 2.-s.341-350.
7. Bayramova İ.Z. "Azərbaycan Respublikasinin regionlarinin kitabxana-informasiya resurslarinin yerləşməsinin vəziyyəti (Aran iqtisadi rayonunun nümunəsində)" // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. – 2012. №2. – s.80-99.
8. http://minqacevirmks.webs.com
9. http://www.yevlaxmks.webs.com

10. http:// www.shirvaninfo.webs.com
11. http:// www.agdash-ih.gov.az
12. http:// www.acabedi-mks.webs.com.
13. http:// www.barda-mks.az.
14. http:// www.imislimks.webs.com.
15. http:// www.saatli-ih.gov.az.
16. http:// www.ucar-ih.gov.az
17. http:// www.beylaqan-mks.az.
18. http:// www.bilesuvar.mks.ucoz.com.
19. http:// www.qoycaymkswebs.com.
20. http:// www.kurdemir-mks.az.
21. http:// www.neftcala-mks.az.
22. http:// www.salyan-mks.az.
23. http:// www.zerdab-mks.info

И.Байрамова

ОРГАНИЗАЦИЯ БИБЛИОГРАФИЧЕСКОГО-ИНФОРМАЦИОННОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В АРАНСКОГО ЕКОНОМИЧЕСКОГО РАЙОНА

РЕЗЮМЕ

В статье излагается особенности организации библиотечно-информационного обслуживания читателей в Аранского економического района, о тагже проявление заботы государства в этой области, о роле библиотек в повышение интеллектуально- культурного развития уровня населения.

I.Bayramova

ORGANIZATION OF BIBLIOCRAPHICAL-INFORMATION SERVICE OF READERS IN THE ARAN ECONOMICAL REGION

SUMMARY

It was accounted the specific features of organization of bibliographical-information service of readers in the Aran economical region. At the some trine, in this spector deals with the increasing of libraries becase of development of people`s intellectual-cultural level,the reflection of state`s care to it.

Sima İSMAYILOVA
pedaqogika üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN "XALÇA SƏNƏTİ" BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

Açar sözlər: *Azərbaycan, mədəniyyət, xalça sənəti, biblioqrafiya, sənəd, axtarış, informasiya, elmi-texniki, biblioqrafik göstərici, kommunikasiya, cəmiyyət, incəsənət, inkişaf, sahə*

Ключевые слова: *Азербайджан, культура, ковроткачество, библиографии, документы, поиск, информация, научно-техническая, библиографическая инструкция, связь, образование, культура, развитие, поле*

Key words: *Azerbaijan, culture, carpet weaving, bibliographies, documents, search, information, scientific-technical, bibliographic instruction, communication, community, culture, development, field*

Müasir dövr informasiya texnologiyaları əsri, elmlərin inteqrasiyası, yeni-yeni elm sahələrinin yaranması, elmin, texnikanın, sosial-iqtisadi inkişafın ümumiləşdirilməsi, elmi – tədqiqatların istehsalata tətbiqi kimi səciyyələndirilir.

Mədəniyyətin mühüm tərkib hissəsini təşkil edən incəsənət insan mənəviyyatının zənginləşməsində, şəxsiyyətin hərtərəfli inkişafında, incəsənət əsərləri insanların, xüsusilə gənc nəslin estetik tərbiyəsində mühüm vasitədir.

Humanitar elmlər sistemində incəsənət elmi öz çoxşaxəliliyi, səciyyəvi fərqli cəhətləri ilə digər elm sahələrindən əsaslı şəkildə fərqlənir. Humanitar elmlər konteksində incəsənət elmi daima yeniləşir, yeni-yeni sahələri yaranır. Bu elm sahəsinin inkişafına təkan verən əsas amillərdən biri də həmin sahəyə dair daim yeniləşən sənəd kütləsi və axınıdır.

Respublikamızda incəsənət ədəbiyyatının sürətlə artması və bu ədəbiyyata marağın genişlənməsi onun biblioqrafik mənbələrinin yaranması zərurətini qarşıya qoymuşdur. Vasitəçilik funksiyasını "Sənəd-tələbatçı" sistemində yerinə yetirən biblioqrafiya vasitəsilə incəsənətə dair sənəd kütləsinin yayılması, təbliği və qeydə alınması prosesləri həyata keçirilir. Biblioqrafiya

sənəd-kommunikasiyaları sistemində vasitəçilərdən biri olmaqla sənədlərdə verilən mətnlərin mövcudluğu, tərkibi, forma və məzmunu haqqında cəmiyyət üzvlərinə biblioqrafik informasiya çatdırır.

Cəmiyyətin informasiyalaşdırılması zəruri bir prosesdir. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda (3 aprel, 1998-ci il) informasiyalaşdırma anlayışımna belə tərif verilmişdir:

"İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanlarının təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların və vətəndaşlarən informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial və elmi-texniki prosesdir" [1].

İnformasiya ehtiyatlarının mühüm tərkib hissələrindən biri biblioqrafik informasiyadır. Biblioqrafik informasiya ümumi informasiya sistemində ikinci hesab edilən informasiya kimi mühüm yer tutur və sənəd-kommunikasiyaları sistemində vasitəçilik edən sosial institutlarla bir sırada durur. Biblioqrafik informasiya biblioqrafik fəaliyyətin sənəd-kommunkasiyaları sistemindəki vasitəçiliyinin müxtəlif mövcudluq formalarına malik olan əsas üsulu və vasitəsidir.

Müxtəlif formalarda mövcud olan biblioqrafik informasiya mənbələri sənədlərin özlərini deyil, onların eyniləşdirilmiş və axtarışları üçün kifayət edən standart modellərini əks etdirir. Nəticə etibarilə onlar ilkin informasiya mənbəyi hesab edilən sənədlərin özlərini deyil, onların haqqında biblioqrafik hesab edilən informasiyanı cəmiyyət üzvlərinə çatdırır. İstifadəçilər biblioqrafik informasiya mənbələrindən sənədlərsiz istifadə etmək imkanına malik olurlar [4].

İnsanların birbaşa mənəviyyatına, mənəvi qidasına çevrilən incəsənət əsərləri, bu sahənin yaradıcıları incəsənət nümunələrini yaradan, ölməz sənət əsərlərinin müəllifləri cəmiyyət üzvləri təərəfindən rəğbətlə qarşılanırlar. İncəsənət sahəsini tədqiq edən, problemləri aşkar edən və həllinə çalışan həmin sahənin mütəxəssisləri özləri də çoxsaylı sənəd kütləsi, sənət əsərləri yaradırlar. Zaman-zaman bu sənəd kütləsi müxtəlif istiqamətli biblioqrafik mənbələrdə əks olunur. İncəsənət sahəsinin mütəxəssislərinin və tələbatçılarının biblioqrafik informasiya təminatında ilkin mənbələrlə yanaşı, biblioqrafik informasiya mənbələri də mühüm rol oynamış və bu gün də oynamaqdadır.

Məlumdur ki, Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzlərindən biridir. Yüksək bədii və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaları ümumdünya şöhrəti qazanmışdır. Təsadüfi deyildir ki, lap uzaq keçmişlərdən Azərbaycan xalçaları təkcə valehedici bir əşya olaraq qalmamış, eyni zamanda hərtərəfli tədqiq edilib öyrənilmişdir. Azərbaycan xalçaları haqqında ilk məlumatlara eramızdan əvvəl V əsrdə yaşamış yunan alimi Ksenofonun əsərlərində rast gəlirik. Xalçalar haqqında qiymətli məlumatları orta əsrlərdə Azərbaycanda olmuş ərəb və İran tarixçiləri, daha sonra isə Avropa səyahətçiləri vermişlər.

Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu yaradıldıqdan sonra, 1945-ci ildən başlayaraq Azərbaycan xalça sənətinin tədqiqi elmi əsaslar üzərində qurulmuşdur. İnstitut sənətşünaslıq fikrinin elmi mərkəzinə çevrilmişdir. İnstitutda işlənib hazırlanmış çoxlu elmi məqalə və kitablar Azərbaycan xalçaçılığının ayrı-ayrı problemlərinə və məsələlərinə həsr olunaraq bu qədim el sənətinin öyrənilməsində həlledici rol oynamışdır. Lakin müxtəlif səbəblərdən bu materiallar nadir biblioqrafik tapıntıya çevrilmişdir. Biblioqrafik göstəricini tərtib etməkdə məqsəd də bu sahəyədair çap olunmuş əsərləri bir yerə toplamaq və həmin mənbələrlə informasiya istifadəçilərini tanış etmək və onların biblioqrafik informasiya tələbatını ödəmək olmuşdur.

"Azərbaycan xalça sənəti" adlı ilk biblioqrafik göstərici Nəzirə Nağıyeva tərəfindən tərtib olunaraq 1983-cü ildə "Yazıçı" nəşriyyatında çap edilmişdir. Retrospektiv xarakterli bu biblioqrafik vəsait 99 səhifədən ibarət olmaqla 1776-1983-cü illərə dair materialları əhatə edir. Biblioqrafik göstəriciyə xalça sənətinə dair xarici ölkələrdə nəşr edilmiş materiallar da daxil edilmişdir.Xarici dildə olan materiallar rus dilinə tərcümə olunaraq verilmişdir. Fikrimizcə xarici dildə olan materialların orjinalın dilində verilməsi və sonra onun rus dilinə tərcümə olunması daha effektli olar, vəsaitin istifadə dairəsini genişləndirirdi.

Biblioqrafik göstəricidə materiallar bölmələrə ayrılmış və xronoloji qaydada qruplaşdırılmışdır. Hər ilin daxilində isə materiallar əlifba sırası ilə yerləşdirilmişdir. Biblioqrafik vəsaitin əvvəlində xalçaçılığı dair dövlət qərarları verilmişdir.

Biblioqrafik göstərici Azərbaycan dilində 249; rus dilində 243, xarici dildə 54 biblioqrafik mənbəni əhatə edir [2].

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə Azərbaycan və rus dillərində "Müəlliflərin əliffba göstəricisi" kimi köməkçi aparat tərtib edilmişdir.

Biblioqrafik göstərici akademik Rasim Əfəndiyevin sözləri ilə desək "Biz cəsarətlə deyə bilərik ki, bu göstərici nəinki Azərbaycan sənətşünaslıq elmində, hətta dünya sənətşünaslığında əhəmiyyətlidir".

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2011-ci ildə 1983-cü ildə nəşr edilmiş biblioqrafik vəsaiti yenidən işləyərək, Azərbaycanda və xarici ölkələrdə xalçaçılığa aid nəşr edilən materialları toplamış və "Azərbaycan xalçası" adlı yeni biblioqrafik göstəricini hazırlayıb 2012-ci ildə nəşr etdirmişdir. Biblioqrafik göstərici Əməkdar Mədəniyyət işçisi, fəlsəfə doktoru Kərim Tahirov tərəfindən tərtib edilmişdir. [3]

Bu biblioqrafik göstəricidə Azərbaycan xalça sənətinə aid kitablar, kitablarda çap olunan məqalələr, qəzet və jurnal materialları toplanmış, oxucuların və mütəxəssislərin istədikləri məlumatı asan əldə edə bilmələri üçün vəsait bir çox yarımbölmələrə ayrılmışdır.

Biblioqrafik göstəriciyə "Azərbaycan xalçası" adlı qısa başlıqdan sonra "Azərbaycan xalçası: əsas tarixi mərhələlər" adı ilə geniş "Oçerk" yazılmışdır. Oçerkdə Azərbaycan xalça sənətinin tarixi mərhələlər üzrə inkişafı və bu xalçaları bölgələr üzrə yaradanlar haqqında ətraflı məlumat verilmişdir.

Azərbaycan xalça sənəti uzun illərdən bəridir ki, xarici və yerli tədqiqatçıların tədqiqat obyekti olmuşdur. Azərbaycan xalçalarının hərtərəfli tədqiqatçısı isə görkəmli alim Lətif Kərimov olmuşdur. Lətif Kərimovun "Azərbaycan xalçası" adlı üçcildliyi Azərbaycan xalçasının əsl ensklopediyasıdır.

Biblioqrafik göstəricinin maraq doğuran bölmələrindən biri də sənətşünaslıq doktoru, professor Röya Tağıyeva tərəfindən yazılmış "Azərbaycan xalçaçılıq mərkəzləri, xalça növləri, tipləri" adlı oçerkdir. Mütəxəssis tərəfindən yazılmış bu oçerkdə Azərbaycan xalçalarının bölgələr üzrə növləri, tipləri haqqında ətraflı məlumat verilmişdir.

Biblioqrafik vəsaitin maraq doğuran və oxunaqlı bölmələrindən biri də "Görkəmli şəxsiyyətlər Azərbaycan xalçaları haqqında" bölməsində görkəmli dövlət və ictimai xadimlərin, sənətşünasların, xalçaçı və tarixçi alimlərin, tədqiqatçı və şərqşünas alimlərin, xalçaçı rəssamların ürəkdən gələn səmimi fikirləri əks olunmuşdur. Bu qiymətli fikirlər içərisində ulu öndər, ümummilli lider Heydər Əliyevin fikirləri daha diqqətəlayiqdir :

"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bugünüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir." [3]

İncəsənətin retrospekktiv biblioqrafik mənbələrinin ən mükəmməl nümunəsi olan bu vəsait 1776- cı ildən 2011-ci ilə qədər olan dövrü əhatə edir. Biblioqrafik göstəricidə materiallar xronoloji prinsip əsasında sistemləşdirilmişdir.

Biblioqrafik göstəricidə "Azərbaycan xalçaçılıq məktəbləri", "Azərbaycanın görkəmli xalça ustaları", "Azərbaycan xalçaları haqqında xarici dillərdə" adlı bölmələrdən Azərbaycan və rus dillərində ətraflı məlumat verilmişdir.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq və vaxt itkisinə qənaət etmək məqsədilə "Qərar və göstərişlər", "Müəlliflərin əlifba göstəricisi", "Sərlövhələrin əlifba göstəricisi" kimi köməkçi aparat tərtib edilmişdir.

ƏDƏBİYYAT:

1. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının qanunvericilik toplusu .-1998 .-№ 6.- S.1214-1222.
2. Azərbaycan xalça sənəti: Biblioqrafik göstərici (1776-1983) / Tərt.ed.: N.Nağıyeva .-B.:Yazıçı, 1983 .- 99 s.
3. Azərbaycan xalçası: Biblioqrafik göstərici (1776-2011)//M.F.Axundov adına Azərbayvcan Milli Kitabxanası .- 2012.- 474 s.
4. Əliyev Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal .- BUN, 2004.-№ 1.- S.82- 92.

С.Исмайлова

"ИСКУССТВО КОВРОТКАЧЕСТВА" АЗЕРБАЙДЖАНА В БИБЛИОГРАФИЧЕСКИХ ИСТОЧНИКАХ

РЕЗЮМЕ

Статья посвящено анализа библиографических ресурсов по ковровое искусства Азербайджана. Анализируются основные библиографические указатели по данной отрасли.

S.Ismayilova

AZERBAIJAN – "ART OF CARPET" IN BIBLIOGRAPHICAL SOURCES

SUMMARY

Azerbaijan carpet art in bibliographic sourcesThe article is devoted to analysis of bibliographic resources on the carpet art of Azerbaijan. Analyses the basic bibliography on the industry.

Orxan AĞAMİRZƏYEV
AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı

KİTABXANA MENECMENTİNDƏ ƏMƏYİN NORMALAŞDIRILMASI

***Açar sözlər**: kitabxana, kitabxanaçı, idaretmə, kitabxana-informasiya menecmenti, kitabxanalarda əməyin normalaşdırılması.*

***Ключевые слова:** библиотека, библиотекарь, управление, библиотечно-информационный менеджмент, нормирование труда в библиотеках.*

***Key words**: library, librarian, management, library and information management, librarian-manager, work rationing in a library science.*

Kitabxana əməyinin normalaşdırması kitabxanalarda əməyin təşkilinin, onun məhsuldarlığının və keyfiyyətinin ən aktual problemlərindən biridir. O kitabxanalarda işin təşkilini düzgün qurmağa, əməkdaşlar arasında iş ağırlığının bərabər bölünməsinə, kadrların səmərəli istifadəsinə, ştat tələblərinin dəqiqləşdirilməsinə və müəyyənləşdirilməsinə kömək edir. Bu isə əmək ölçülərinin əmək fəaliyyətinin səmərəli şəkildə öyrənilməsi və layihələndirilməsi əsasında müəyən olunması deməkdir. (6, 65-78)

Kitabxana əməyinin normalaşdırılması idaretmənin əsas hissəsi olub, bəzi texnoloji proses və ya əməliyyatların yerinə yetirilməsində, müəyyən nəticələrin əldə olunmasında əmək sərfinin, materialların, pul vəsaitinin və digər ehtiyatların elmi əsaslandırılmış normalarla müəyyənləşdirilməsini özündə birləşdirir.

Əmək üzrə normalar işlərin ayrı-ayrı elementlərinin yerinə yetirilməsinin, avadanlıq vahidinin, xidmətin, iş yeri, yaradıcı qrup, struktur bölmələr, eləcə də işin həcminin və istehsal- idaretmə funksiyalarının yerinə yetirilməsinə lazım olan işçilərin sayına və s. əmək (vaxt) sərfinin tənzimlənmiş mənasıdır (10).

Əmək normaları ayrı-ayrı əməliyyatlar, bir-biri ilə qarşılıqlı əlaqədə olan əməliyyatlar qrupu və başa çatdırılmış işlər kompleksi (genişləndirilmiş, kompleks norma) üçün təyin edilir. Normaların differensasiya səviyyəsi

istehsal miqyasında və kitabxananın tipi, buraxılan məhsulun (göstərilən xidmətin) özəllikləri, əməyin təşkili formaları əsasında müəyyən edilir.

Əməyin normalaşdırılmasının əsas məqsədi əməyin məhsuldarlığının və istehsal proseslərinin effektiv qurulması yolu ilə əmək ehtiyatlarının idarəolunmasının əlverişliliyinin artırılmasıdır.

Kitabxana əməyinin normalaşdırılması sahəsində aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- kitabxana işində normalaşdırmanın metodika və metodologiyasının işlənilməsi;
- normalaşdırma sferasının genişləndirilməsi, köhnəlmiş və ya əvvəllər mövcud olmayan iş proseslərinə normaların işlənilməsi;
- planlaşdırmada istifadə olunan genişləndirilmiş normaların işlənilməsi;
- norma və normativlərin kitabxana praktikasında istifadəsi üzrə metodiki vəsaitlərin hazırlanması;
- normalara yenidən baxılması; köhnəlmiş, səhv və təcrübi-statistik normaların elmi əsaslandırılmış normalarla əvəz edilməsi; (11)

Kitabxanalarda əməyin normalaşdırılması aşağıdakı tələblərə uyğun olmalıdır:

- elm və texnikanın nailiyyətlərinin, texnoloji tərəqqinin aktiv tətbiqinə;
- əməyin uçot və hesabatının, istehsaldaxili cari və perspektiv planlaşdırmanın yaxşılaşdırılmasına;
- ştat sayının hesablanmasına;
- ştatın kitabxana daxilində bölüşdürülməsinə və koordinasiyasına;
- əməyin ağırlığının və intensivliyinin normal təminatına;
- əmək münasibətləri sferasında sosial konfliklərin həlll edilməsinə və xəbərdarlıqlara;
- əməyin qiymətləndirilməsinə və nizam-intizamın möhkəmləndirilməsinə
- istehsalın effektivliyinin artırılmasında işçilərin əsaslarına
- əmək haqqı ilə əmək məhsuldarlığının həcmi arasındakı əsasandırılmış iqtisadi münasibətlərə
- əhaliyə kitabxana xidməti bazarında rəqabətqabiliyyətliliyin artırılmasına və kitabxana xidmətlərinə xərclərin azalmasına;
- işçilərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün zəmin yaradılmasına;

Əməyin normalaşdırılması üçün normativ materiallar əsaslandırılmış əmək sərfinin hesablanması üçün baza olmalı və aşağıdakı tələblərə cavab verməlidir:

- istehsalın təşkili texnika və texnologiyaların muasir səviyyəsinə uyğun olmalı;
- texniki-texnoloji, təşkilati, iqtisadi və psixofizioloji faktorların təsirinin maksimal dərəcəsini nəzərə almalı;
- əməyin gərginliyinin (intensivliyinin) optimal dərəcəsini təmin etməli;
- dəqiqliyin tələb edilən səviyyəsinə uyğun olmalı;
- kitabxanada əmək sərfinin hesablanması işlərin əmək ağırlığının müəyyənləşdirilməsi üçün sərfəli olmalı;
- informasiyanın işlənməsi və toplanması üçün avtomatlaşdırılmış iş rejimindən istifadə imkanı təmin olunmalıdır.(7, 204-293)

Əmək normalarının keyfiyyəti, o cümlədən onların əsaslandırılma dərəcəsi normalaşdırmanın isifadə olunma metodikasından çox asılıdır. Normalaşdırma metodları ilə işlərin yerinə yetirilməsinin daha rasional metodları seçilir, əməyin yeni reqlamenti möhkəmləndirilir, onların bütün kitabxana işçiləri tərəfindən yerinə yetirilmə vacibliyi təsdiq edilir.

Kitabxana işçilərinin əməyinin normalaşdırılması zamanı normAlaşdırmanın aşağıdakı növlərindən istifadə olunur: vaxt norması, istehsal (hasilat) norması, xidmət norması, idaretmə norması, say(miqdar) norması стишдырмалы илли (normativ).

Əmək sərfi normalarının hər birinin hesablanmasının əsasında konkret kvalifikasiyalı kitabxanaçıya müəyyən istehsal şərtləri daxilində verilən işin yerinə yetirlməsinə nə qədər vaxt gərəkdiyini göstərən və reqlamentləşdirilmiş həcmi ifadə edən vaxt norması durur. Bu norma hər zaman vaxt vahidi - saat, dəqiqə və onun payı şəklində təyin edilir. İstehsal, xidmət və idarəetmə normaları vaxt normalarından törəmə sayılır.

Vaxt norması müəyyən təşkilati-texniki şərtlər daxilində uyğun ixtisaslı işçi və ya işçilər qrupu tərəfindən iş vahidinin yerinə yetirilməsi üçün təyin edilmiş iş vaxtına sərfin həcmidir.

İstehsal norması- işin müəyyən olunmuş həcmidir (kitabverilişinin, işlənmiş sənədlərin sayı) hansı ki,uyğun ixtisaslı işçi və ya işçi qrupu müəyyən təşkilati- texniki şərtlərlə iş vaxtı (saat, iş günü, və s.) vahidi daxilində mütləq yerinə yetirməlidir.

Xidmət norması- bu konkret vaxt bölgüsü (iş günü, ay, il) ərzində bir kitabxanaçıya düşən istifadəçilərin, gəlişin və s. müəyyənləşdirilmiş sayıdır.

İdaretmə norması-verilmiş təşkilati-texniki şərtlərlə bir rəhbərin idarə etməsi gərəkən işçilərin reqlamentləşdirilmiş sayıdır.

Say (miqdar) norması (normativ)-konkret istehsal, idaretmə funksiyalarının və ya iş həcminin yerinə yetirilməsi üçün lazım olan bəzi peşəkar-kvalifikasiyalı tərkibli işçilərin sayının müəyənləşdirilməsidir. Say norması (normativi) ilə həmçinin sənət, ixtisas, iş növü və ya qrupu, ayrı -ayrı funksiyalar, bütünlükdə kitabxana və ya onun qismən hansısa struktur bölməsi üzrə əmək sərfi də müəyyənləşdirilir. (9.45-47)

Vaxt hesabı ilə ödənilən işçilərin əməyinin effektivliyinin artırılması məqsədi ilə onlara əməyin normalaşdırılmasının yuxarıda göstərilən növləri əsasında normalaşıdırlmış tapşırıqlar təyin edilir.

Normalaşdırılmış tapşırıq-bu işçinin və işçi qrupunun iş növbəsi, iş ayı (ay və növbələşdirilmiş normalaşıdırlmış tapşırıq) və ya digər iş vaxtı norması daxilində, eləcədə vaxt hesabı ödənilən işlərdəki digər vaxt vahidi üzrə yerinə yetirməsi gərəkən işin müəyyənləşdirilmiş həcmidir.

Normaların həmçinin digər növləri (vahid, nümunəvi, sahələrarası) də vardır.

Vahid normalar xalq təsərrüfatının bir və ya digər sahələrinin analoji şəraitində eyni texnologiyalar üzrə yerinə yetirilən işlər üçün hazırlanır və müvafiq iş növlərində işçilərin əməyinin ödənilməsi və normalaşdırılmasında tövsiyəedici xarakter daşıyır.

Nümunəvi normalar kitabxananın artıq belə iş növləri olan bəzi və ya çox hissələrində təşkilati-texniki şərtlərin rasional uçotu ilə nümunəvi tipologiyalar üzrə yerinə yetirilən işlər üçün işlənilir. Nümunəvi normalar istehsalın bu normaların hesablanmış olduğu təşkilati-texniki şərtlərinin lazımi səviyyəyə çatmadığı kitabxanalar üçün etalon qismində tövsiyyə olunur.

Sahələrarası, vahid, nümunəvi normalar və normativlər müvafiq nazirliklər və kitabxananın tabeçiliyində olduğu müəssisə tərəfindən təsdiq edilir. Yerli normativ materiallar ayrı-ayrı iş növləri üçün o hallarda işlənilir ki, müvafiq sahəvi və ya sahəvi normativ materiallar olmamış olsun, eləcə də əməyin normalaşdırılması üçün mövcud sahələrarası və sahəvi normativ mAterialların işlənilməsi zamanı nəzərdə tutulana müqayisədə kitabxanada daha qabaqcıl təşkilati-texniki şərait təşkil edilmiş olsun.

Təşkilati-texniki şərtlər üzrə stabil işlərə təyin edilmiş normalarla bərabər, kitabxanalarda muvəqqəti və birdəfəlik normalar da tətbiq edilir.

Müvəqqəti normalar əməyin normalaşdırılması üçün təsdiq edilmiş normativ materialların olmadığı zaman bu və ya digər işlərin yerinə yetirilməsi zamanı təyin edilir. Bu tip normaların qüvvədə olma müddəti 3 ayı keçməməlidir.

Birdəfəlik normalar vahid xarakter daşıyan ayrı-ayrı işlər (plandankənar, qəza) üçün təyin edilir.

İşçilərin əməyi əsasən texniki cəhətdən əsaslandırılmış normalar üzrə normalaşdırılmalıdır.

Texniki cəhətdən əsaslandırılmın normalar normalaşdırmanın analitik metodu ilə təyin edilmiş və texnika və texnologiyanın, əməyin və istehsalın təşkilinin əldə edilmiş səviyyəsinə uyğun olan normalardır.

Texniki cəhətdən əsaslandırılmış normalara aşağıdakılar daxildir:

- vahid və nümunəvi normalar;
- əmək üzrə sahələrarası və sahəvi normativlər əsasında təyin edilmiş normalar;
- əmək üzrə yerli normalar əsasında təyin edilmiş sahələrası və sahəvi normativlərə nisbətən daha irəliləyişli sayılan normalar;
- avadanlığın məhsuldarlığı barədə texniki məlumatların uçotu ilə normalaşdırmanın analitik metodu, iş vaxtının sərfinin nəticələrinin öyrənilməsi, əməyin təşkilinə elmi tələblərin əsasında təyin edilmiş yerli normalar.

Mövcud normaların keyfiyyətinin təhlili texniki normalaşdırma metodları –xronometraj, iş vaxtının fotoqqafiyası, ekspert qiymətləndirmə metodu və ani müşahidə metodu vasitəsilə həyata keçirilir.

Xronometraj vaxtın müəyyənləşdirilməsi məqsədi və proqressiv metodların öyrənilməsi ilə və iş gününün qurtarmasına 1,5-2 saat qalmış həyata keçirilir.

Kitabxanada iş gününün fotoşəkli. Qeyri-istehsal xərclərinin azaldılması məqsədi ilə işlərin yerinə yetirilmə ardıcıllığı və iş metodlarının öyrənilməsi üçün çıxış məlumatlarnının alınması üçün həyata keçirilir. Müşahidə bir-iki həftə ərzində bütün iş proseslərində həyata keçirilir.

Ekspert qiyymətləndirmə metodu istehsalat şəraitində faktiki əmək sərfinin, əlavələrin aşkarlanması; əməliyyatların sırasına daxil edilməli olan dəyişikliklər; kompüter və surətçıxartma-çoxaltma texnikasında yerinə yetirilən proseslərin müəyyənləşdirilməsi məqsədi ilə həyata keçirilir.

Ani müşahidə metodu özündə iş günün fotoşəklinin xüsusiyyətlərini birləşdirir. Ancan vaxta görə və obyektlər uzrə bütövlükdə sesilmiş sayılır. Onun mahiyyəti iş günü ərzində vaxtın istifadəsinin əhəmiyyətli sayda dövri olaraq təkrarlanan qısa müşahidələrinin aparlmasından ibarətdir.

Bildiyimiz kimi, kitabxana əməyinin normalaşdırılmasının öz xüsusiyyətləri: əmək obyektinin müxtəlifliyi, yerinə yetirilmiş funksiyaların yüksək mürəkkəbliyi, yüklənmələrdə qeyri-tarazlığın olması, insana və s. yönəldilmə əməyinin normalaşdırılması metodlarının ümumi prinsipləri əsasında nizamlanır. Müasir dövrdə elm və texnikanın səviyyəsinə, əməyin təşkili və idarəolunmasının təşkili qaydalarına uyğün olaraq normalaşdırmanın yaxşılaşdımasına tələblər də durmadan artır: köhnəlmiş normalar yeni normaların tətbiqinə sistemli baxış tələb edir.

Məlumdur ki, hər bir kitabxana normalaşdırma obyekti kimi özündə mürəkkəb əmək proseslərinin birləşdirir. Buna görə də, əməyin normAlaşdırılması üzrə metodiki materiallar hər bir əmək prosesi üçün optimal sayılan mövcud metodların tətbiqi üzrə tövsiyyələrə və proseslərin klassifikasiyasına malik olmalıdır.

Bu sadalanan tələblər tam mənada respublika kitabxanalarının fəaliyyətinə də öz təsirini göstərməkdədir. Bu gün kitabxanalarımızın əksəriyyətində kitabxana əməyinin normalaşdırılması məsələlərinə geniş yer verilir. (4,5) Kitabxanalarda normativ işin təşkilini özündə əks etdirən praktiki normalaşdırılma, normaların tətbiqinin düzgünlüyünün yoxlanılması və onların gərginliyinin təhlil olunması üzrə işlər gedir. Metodik planda tənzimləyici sənədlər hazırlanır.(1,2,3) Məqsəd işin yerinə yetirilməsi üçün vaxt sərfinin təyin olunması əsasında kitabxananın bütün sahələrində işin düzgün təşkili və bununla da, əməyin səmərəliliyinin artırılmasıdır. Məhz işi düzgün təşkil etməklə eyni ştat tərkibi və eyni vaxt sərfində daha yüksək nəticələr əldə etmək olar. Köhnə normaların nəzərdən keçirilməsi və yeni normaların tətbiqi kitabxanaçıların özlərinin yaradığılıq axtarışlarının, peşə dünyagörüşlərininn genişlənməsi, ixtisasının, peşə və ümumi mədəniyyətinin səviyyəsi ilə bilavasitə əlaqəli olmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu. 1-ci buraxılış. /tərtibçi: A.Məmmədova.-Bakı:Mərkəzi Elmi Kitabxana, 2004.-68 səh.

2. Azərbaycan Milli Elmlər Akademiyası kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu. 2-ci buraxılış /tərtibçi: A.Məmmədova.-Bakı:Mərkəzi Elmi Kitabxana, 2004.-150 səh.
3. Azərbaycan Milli Elmlər Akademiyası kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu. 3-cü buraxılış: Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının əsas iş prosesləri və əməliyyatları üçün normalar: ikinci nəşr/tərt.ed. A.Z.Məmmədova; elmi red.A.İ.Əliyeva-Kəngərli.-Bakı: AMEA Mərkəzi Elmi Kitabxana.-2006.-119 s.
4. Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının hesabatları (2001-2013-cü illər)
5. Kitabxanaşünaslıq şöbəsi iyirmi illik zaman kəsiyində // Elmi əsərlər. AMEA MEK. – 2011. – Bur. XII. -S. 32-49.
6. Məmmədova K. Kitabxanalarda əməyin təşkili və normalaşdırılması // Elmi əsərlər. AMEA MEK. - 2008. - Bur. IX .-S. 65-78.
7. Межотраслевые нормы времени на работы, выполняемые в библиотеках: утв. постановлением М-ва труда и соц. развития РФ от 3.02.1997 № 6 // Н. Ю.Савельева. Настольная книга библиотекаря / Н. Ю. Савельева. – Ростов н/Д. : Феникс, 2006. – С. 204—293.
8. Научная организация труда как фактор повышения эффективности работы библиотек: сборник научных трудов / сост. А.В.Понятовская. -Москва,1983.-160с.
9. Научная организация труда в библиотеках: Практ.пособие / А.Н.Ванеев, В.Г.Горев, Л.В.Коваленок, А.Н.Смирнова; Под.ред А.Н.Ванеева.-М.: Книга, 1980.-87с.
10. Редькина, Н. С. Технологическая работа в библиотеке / Н. С. Редькина ; ГПНТБ СО РАН. – Электрон. дан. – Новосибирск, 2006. – Режим доступа : http://rucont.ru/file.ashx?guid=a859a40e-be50-438d-b1d4-dfab7468b1bf
11. Фекличева, Н. Ю. Нормирование труда [Электронный ресурс] : методика разработки норм рабочего времени библиотекаря / Национальная библиотека Республики Карелия ; отдела прогнозирования и развития библиотечного дела; Н. Ю Фекличева. – Режим доступа: http://www.library.ru/1/local_uprav/docs/UK112005_metodika_razrabotki_norm_rabochego_vremeni.rtf

О.Агамирзоев

НОРМИРОВАНИЕ ТРУДА В БИБЛИОТЕЧНОМ МЕНЕДЖМЕНТЕ

РЕЗЮМЕ

В статье раскрывается сущность нормирование труда в библиотеках и определяется ее основные направления. Даются практические советы по совершенствование библиотечных процессов, реализации управленческих функций и улучшению условий труда.

O.Agamirzoyev

WORK RATIONING IN LIBRARY MANAGEMENT

SUMMARY

In article the essence work rationing in libraries reveals and is defined its main directions. Practical advice on improvement of library processes, realization of administrative functions and to improvement of ksloviya of work is given.

Nadir İSMAYILOV
dosent, "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri

Xəyalə XƏLİLOVA
ADA Universiteti Kitabxanasının əməkdaşı

AZƏRBAYCANDA KİTABXANA İSİNİN İNKİSAFINDA YENİ MƏRHƏLƏ
(ADA UNİVESİTETİNİN KİTABXANASININ KECİRDİYİ BEYNƏLXALQ KONFRANSIN İCMALI)

***Açar sözlər**: Azərbaycan Respublikası, informasiya, kitabxana, ADA Universiteti, konfrans, təlim, kataloq, mövzu, sahə, proses, cəmiyyət*

***Ключевые слова**: Азербайджанская Республика, из информации, библиотека, Университет ADA, конференции, обучение, каталог, название, область, процесс, сообщество*

***Key words**: the Republic of Azerbaijan, of information, the library, the University of ADA, conferences, training, directory, title, area, process, community*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra cəmiyyətin həyatında köklü dəyişikliklərin baş verməsi, informasiya cəmiyyətinə keçid, kitabxana-informasiya infrastrukturunun yeni mühitə transformasiyası prosesləri dərinləşdi. Cəmiyyətin informasiya təminatının təşkili, onun perspektivlərinin müəyyən edilməsi hər şeydən əvvəl keçilmiş yola nəzər salınmasını tələb edir. Bu baxımdan ADA Universiteti Kitabxanasının aprel ayının 1-i və 2-i tarixlərində "Kitabxana informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi" mövzusunda təşkil etdiyi I Beynəlxalq Konfrans böyük elmi-praktik əhəmiyyət kəsb edir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin də dəstəyi ilə keçirilən tədbir ADA Universiteti rəhbərliyi, eyni zamanda kitabxana heyətinin səyi və gərgin əməyi nəticəsində baş tutdu və iki gün davam etdi.

Konfransda ADA Universitetinin rektoru Hafiz Paşayev, Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayev, kitabxana sahəsində fəaliyyət göstərən mütəxəssislər və xarici qonaqlar iştirak ediblər. Ümumilikdə Konfransda

200-ə yaxın qonaq iştirak edib ki, onlardan 20 nəfərdən çoxu müxtəlif xarici ölkələrdən dəvət almış kitabxana sahəsinin qabaqcıl mütəxəssisləri idi. Digər qonaqlar isə Azərbaycanın müxtəlif universitet, institut və digər təhsil müəssisələrinin kitabxana işçilərindən, rayon və şəhər mərkəzləşmiş kitabxana sistemlərinin kitabxanaçılarından ibarət idi.

Konfransı açıq elan edən ADA Universitetin rektoru Hafiz Paşayev kitabxananın universitet həyatında önəmindən bəhs edərək hətta universitet binası zamanı kitabxananın mərkəzi nöqtə olaraq seçildiyini də konfrans iştirakçılarının nəzərinə çatdırdı. Hafiz Paşayev hər bir təhsil ocağının inkişafı üçün kitabxananın mövcudluğunu xüsusi olaraq vurğulayaraq kitabxana işinə diqqətin artırılmasını və bu sahədə ciddi addımların atılmasının zəruriliyini konfrans iştirakçılarına bildirdi.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayev son dövrlərdə ölkəmizdə kitabxana-informasiya sahəsində əldə edilmiş nailiyyətlərdən bəhs etdi.

Onu da qeyd etmək lazımdır ki, ADA Universiteti Kitabxanasının təşkil etdiyi bu konfrans Azərbaycan Kitabxana işi tarixinə ilk beynəlxalq konfrans olaraq düşdü. Konfransın təşkili ölkənin bütün kitabxanalarından dəvət edilmiş kitabxanaçılara xarici kitabxana mütəxəssislərin təcrübələri haqqında informasiya qazanmağa, onlarla təcrübə mübadiləsi etməyə imkan yaratdı. Konfransın gələcəkdə Azərbaycan kitabxanaları ilə xarici kitabxanalar arasında yeni əməkdaşlıqların yaradılmasına bir cığır açdığını da desək yanılmarıq.

İki gün davam edən konfransda maraqlı və kitabxana işi sahəsində önəmli məsələlərə toxunulan çıxışlar dinlənildi.

ADA Universitetinin Tədris işləri üzrə prorektoru Cənab Patrick Quinn isə öz çıxışında qeyd edib ki, müasir dövrdə kitabxanaların əhəmiyyəti getdikcə artır və kitabxanaların mövcudluğu ilə yanaşı onların inkişafı insanların intellektual səviyyəsinin yüksəldilməsi üçün olduqca vacibdir. Onun sözləri ilə desək kitabxana olmadan hər hansı bir inkişafdan, tərəqqidən söhbət açmaq qeyri-mümkündür. "Müasir kitabxanalarda informasiya xidmətləri" mövzusunda çıxış edən Patrick Quinn ilk sessiyanı açaraq sözü konfransda çıxış edəcək qonaqlara verdi. Konfransın ilk sessiyasında "Aparıcı təcrübə və xidmət keyfiyyətinin meyarları" mövzusu ilə Aberystwyth Universiteti, Kitabxana İnformasiya Xidmətlərinin direktor müavini - Julie Hart, "Qərb kitabxanaçılıq təcrübəsi: İstifadəçilərlə əlaqələrin qurulması üsulları və səbəbləri" mövzusu ilə Nazarbayev Universiteti Kitabxanasının

Baş Meneceri Jim Agee, "Gürcüstanda kitabxanaların inkişaf tendensiyası: Əldə olunmuş təcrübə əsasında" mövzusunda isə Tbilisi Dövlət Universiteti, Milli Elmi Kitabxananın Direktoru İrakli Qaribaşvili çıxış edərək konfrans iştirakçılarını müvafiq mövzularla əlaqədar məlumatlandırdılar.

İlk qısa fasilədən sonra "Kitabxanalarda tədris və tədqiqat qlobal elmi-tədqiqat cəmiyyətinin bir hissəsi kimi" mövzusuna həsr edilmiş II sessiyanın moderatoru olan ADA Universiteti kitabxanasının direktoru Marta Speirs iştirakçıları salamlayaraq konfransın məqsədindən və əhəmiyyətindən bəhs edib, sözü çıxış edəcək qonaqlara verdi. Bu sessiyada "KİV informasiya mədəniyyəti: yeni imperativ" mövzusunda Bütün Proqramlar üçün İnformasiya (IFAP)-ın sədri, Sədr Yevgeni Kuzmin, "İnformasiya mədəniyyəti proqramının ADA Universitetinin təhsil prosesinə tətbiqində kitabxananın rolu" mövzusunda ADA Universiteti Kitabxanasının Məlumat və İnformasiya bilgisi üzrə kitabxanaçısı Müşviq İmamverdiyev və "Azərbaycanın elmə əsaslanan iqtisadiyyatının qlobal elmi-tədqiqat cəmiyyəti vasitəsilə təkmilləşdirilməsi" mövzusunda Thomson Reuters İP və Elm, Strateji Biznes Meneceri Philip Purnell çıxış edərək konfras iştirakçılarını məlumatlandıraraq onların suallarını cavablandırdılar. ADA Universiteti Kitabxanasının kitabxanaçısı Müşviq İmamverdiyevin çıxışı maraq doğuran çıxışlardan oldu. O öz çıxışında İnformasiya mədəniyyəti proqramının ADA Universitetində tətbiqindən, universitetin müəllim və tələbə kontingenti ilə əməkdaşlıqdan, informasiya mədəniyyətinin tədrisinin vacibliyindən söhbət açdı.

Günün son sessiyasında "Onlayn informasiyaya ümumçıxış" mövzusunda danışan moderator Elçin Məmmədov sözü ADA Universiteti Fiziki Qüsurlu Şəxslərlə İş Şöbəsinin əməkdaşı Elnur Eyvazova verdi. Fiziki qüsurlu istifadəçilərə informasiya xidmətinin təşkili barəsində çıxış edən Elnur Eyvazov ona ünvanlanmış sualları cavablandırdı. Onun çıxışı zamanı kitabxana işinin ciddi problemlərindən biri işıqlandırıldı. Belə ki, Elnur Eyvazovun auditoriyaya müraciəti zamanı bəlli oldu ki, Azərbaycan kitabxanaçılarına əlil və qüsurlu oxuculara xidmətlə bağlı heç bir treninq keçirilmir. Halbuki, bu məsələyə xüsusi diqqət yetirilməlidir. Əlil və fiziki qüsurlu şəxsləri cəmiyyətə qazandırmaq, onların mütaliəsinə rəhbərlik etmək müasir vəziyyətdə kitabxanaçıların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu səbəbdən də mövcud problemin aradan qaldırılması prioritet məsələlərdən biridir.

Növbəti çıxışda AZLİBNET – Azərbaycan kitabxanalarının ilk toplu kataloqundan bəhs edən Azərbaycan Dövlət Gənclər Kitabxanasının direk-

toru Tahir Sadıqov və həmin kitabxananın kitabxanaçıları Solmaz Osmanova və Günay Həsənova konfrans iştirakçılarını öz kitabxanalarının gördüyü iş haqqında məlumatlandırdılar. Konfransın ilk günündə OCLC-nin nümayəndəsi olan Barış Tan Qlobal toplu kataloq haqqında məruzə etdi.

Aprel ayının 2-də öz işini davam etdirən konfrans prorektor Patrick Quinnin moderatorluğu ilə başladı və Mississippi Universitetinin əməkdaşı Gregory Heyworthun "Mətnşünaslıq elmi və keçmişdən xəbər verən gələcək" mövzusunda, Bakı Ali Neft Məktəbi kitabxanasının rəhbəri Tatyana Zaysevanın "Azərbaycanda repozitar fond xidmətləri: faktiki hesabat" mövzusunda, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Kitabxana Şöbəsinin müdiri Lətifə Məmmədovanın "Azərbaycan ədəbiyyatının virtual kitabxanası: ədəbiyyat incilərimizin dünyaya çatdırılması" mövzusunda olan çıxışları ilə davam etdi.

Konfransın son sessiyası da maraqlı çıxışlarla yadda qaldı. Aberystwyth Universiteti Kitabxana İnformasiya Xidmətlərinin direktor müavini Julie Hart, "Yeni onlayn akreditə olunmuş informasiya liderlik proqramı üzrə Emerald, ASLIB və Aberystwyth Universitetinin birgə əməkdaşlığı", ProQuest-in nümayəndəsi Abdullah Al-Sayyadın "Summon – şəbəkə miqyasında araşdırma: daxili və xarici resursların vahid interfeysdən axtarışının həyata keçirilməsi və istifadəsinin asanlaşdırılması", Mehmet Hasekinin "Texnologiya elm sahəsi üzrə bili-k mənbələri; IEEE rəqəmsal kitabxanasının təqdimatı", Elsevier B.V.nin Satış Meneceri Ayhan Saracoğlunun, "Tədqiqat məkanında qlobal istiqamətlər" və ADA Universiteti Biznes fakültəsi nümayəndələri, Anke Piepenbrink və Elkin Nurməmmədovun "Keçid iqtisadiyyatı və formalaşmaqda olan bazar iqtisadiyyatı" üzrə mövzuları haqqında olan çıxışları konfrans iştirakçılarının ürəyincə oldu. Hər bir çıxışdan sonra iştirakçılar suallarını çıxış edənlərə ünvanlayaraq onları maraqlandıran suallara ətraflı cavablar aldılar.

ADA Universiteti kitabxanasının maraqlı təşəbbüslərindən biri çıxışlardan sonra kitabxanada təlimlərin təşkil edilməsi oldu. Hər bir kitabxana işçisi öz şöbəsinin işini konfrans iştirakçılarına həm əyani göstərməklə, həm də video təqdimatların köməyi ilə izah edərək sualları cavablandırdı. Beləliklə, konfrans iştirakçıları kitabxananın işi ilə, həmçinin yeni texnologiya, kitabişləmə qaydaları ilə tanış olmaq imkanı əldə etdi. Konfrans təşkilatçıları qonaqların konfrans haqqında olan fikirlərini öyrənmək məqsədi ilə onlar arasında yazılı sorğu da keçirdi. Sonda ADA Universiteti Kitabxanasının

direktoru Martha Speirs qonaqlara gəldikləri üçün öz minnətdarlığını bildirdi və konfrans öz işini yekunlaşdırdı.

ADA Universitetinin təşkil etmiş olduğu bu konfrans xarici kitabxanalarla müqayisədə Azərbaycan kitabxanalarının bir çox qüsurlarını meydana çıxardı ki, bu da ölkə kitabxana işinin inkişafında atılacaq addımların ciddiliyini və bu sahədə görüləcək işlərin tezləşdirilməsi zəruriliyini bir daha ortaya qoydu. Bu cür tədbirlərin mütəmadi keçirilməsini ölkənin, ümumilikdə kitabxana işinin inkişafına təkan kimi qiymətləndirsək yanılmarıq. Amma bunu xüsusilə qeyd etmək lazımdır ki, bu kimi tədbirlərin təşkili ilə iş bitmir. Əldə edilən biliklərin, iş təcrübəsinin təbliğini tezləşdirmək və kitabxanalarımızın vəziyyətini yaxşılaşdırmaq lazımdır.

Konfrans Azərbaycan kitabxanaçılarına xarici kitabxanaların təcrübələri ilə yaxından tanış olmaq, onlarla fikir mübadiləsi aparmaq, eyni zamanda ölkə kitabxanalarında olan çatışmazlıqları daha da aşkarlamağa və gələcəkdə bu sahədə ciddi addımlar atmağa imkan verdi. Konfransın ölkə kitabxanalarının hərtərəfli inkişafındakı rolunu nəzərə alaraq gələcəkdə ADA Universiteti Kitabxanası bu kimi tədbirlərin mütəmadi olaraq keçirilməsini nəzərdə tutur.

Н. Исмайлов,
Х. Халилова

НОВЫЙ ЭТАП В РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ (ИТОГИ МЕЖДУНАРОДНОЙ КОНФЕРЕНЦИИ,ПРОВОДИМОЙ БИБЛИОТЕКОЙ УНИВЕРСИТЕТА АДА)

РЕЗЮМЕ

Конференция,организованная Библиотекой Университета АДА, вошла в историю Библиотечного дела в Азербайджане как первая международная конференция. Проведение этой конференции дало возможность библиотекарям, приглашенным со всех библиотек страны, ознакомиться опытом специалистов, приглашенных из-за рубежа, а также создало условия для обмена опытом между участниками. Нужно отметить, что данная конференция сыграет большую роль в сотрудни-

честве между Азербайджанскими и зарубежными библиотеками в будущем. На конференции, которая длилась два дня, были выслушены интересные и важные вопросы в сфере библиотечного дела.

N.Ismayilov
Kh.Khalilova

A NEW PHASE IN LIBRARY WORK DEVELOPMENT IN AZERBAIJAN (REVİEW OF INTERNATIONAL CONFERENCE HELD BY THE LIBRARY OF ADA UNIVERSITY)

SUMMARY

The conference organized by the Library of ADA University entered the history of library work of Azerbaijan as an international conference. The conference introduced an opportunity to librarians invited from all the libraries across the country to gain knowledge about experiences of foreign library experts and ensure an experience exchange with them. It wouldn't be wrong to claim that it made a path in setting up new cooperation between Azerbaijani and the foreign libraries.

The important speeches that touched upon the necessary issues in the filed were delivered during the two days long conference.

QEYDLƏR ÜÇÜN

Kompüter tərtibatçısı:

Ulduz MANAFOVA

Jurnal Azərbaycan Respublikası
Mətbuat və İnformasiya Nazirliyində
qeydə alınmışdır.
Şəhadətnamə № 575 .27 mart 1997.

Çapa imzalanıb: 22.09.2014
Format: 70x100 $^{1}/_{16}$ Qarnitur: Times.
Həcmi: 17 ç.v. Tiraj: 100.
Qiyməti müqavilə ilə.